www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 fevral 2015-ci il Çərşənbə axşamı № 24 (6052) Qiymətı 40 qəpik


**Xəbər**

## Ölkədə spirtli içki və siqaret bahalaşdı

yazısı səh.13-də

**Gündəm**

### Parlamentdə amnistiya çağırışı



Milli Məclisdə narkomaniya ilə bağlı da həyəcan təbili çalındı; mərc oyunlarının ləğvi istənildi; fırıldaqçı şirkətlərin məsələsi qaldırıldı...

yazısı səh.6-da

### Müxalifətdən Fransa prezidentinə sərt cavab

yazısı səh.8-də

### Tələbələr "Khazar Islands"da

yazısı səh.3-də

### Banklar prezidentin tapşırığına əməl edirmi?

yazısı səh.4-də

*Natiq Miri:*

### "İqtidarın Qərblə anlaşması müxalifətin ziyanına deyil"

yazısı səh.9-da

### Dövlət içərisində "dövlət" yaradan məmurlar...

yazısı səh.10-da

### Uğursuz Minsk Qrupunun gələcəyinə dair iki mövqe

yazısı səh.11-də

### Ordumuz irimiqyaslı təlimlərə başladı

yazısı səh.2-də

### Magistraturaya sənəd qəbulu başlayır

yazısı səh.13-də

### Müğənni Maral Tahirqızı qadın alverində suçlandı

yazısı səh.14-də

### Prezident Sənaye Məhəlləsinin yaradılmasına dair sərəncam verdi

yazısı səh.2-də

### Müsavat seçkilərə hansı formada qatılacağını qətiləşdirməyib

yazısı səh.5-də

### Mərkəzi Bank Çinə 500 milyon dollar investisiya yatıracaq

yazısı səh.13-də

### Abbasov və İbrahimbəyov yenidən rusların "Bakı layihəsində"

# "MİLYARDERLƏR İTTİFAQI" SİYASİ SƏHNƏYƏ QAYIDIR

Moskvanın elitar restoranlarının birində RATİ-nin fəal üzvləri-Dağıstan prezidenti Ramazan Abdulatipov, Abbas Abbasov və Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov nədən danışıblar?...



yazısı səh.8-də

## Bakıdan Dərbəndə göndərilən 30 milyonu kimlər yeyib?

Dərbəndin yeni başçısı Məhəmməd Cəlilov bu haqda "Yeni Müsavat"a şok açıqlamalar verib; "Həmin pul Dərbəndin abadlaşdırılması və digər layihələr üçün nəzərdə tutulmuşdu, amma lazımsız adama verilib, indi də vəsait ortada yoxdur"

yazısı səh.12-də



*Əli Həsənov:*

### "Azərbaycan dünyanın kosmik dövlətləri ilə bir sıradadır"

yazısı səh.5-də



### Müsavat Divanı Qubad İbadoğluna xəbərdarlıq etdi

yazısı səh.2-də



### "Lamiyə Quliyeva işi"ndə şok gəlişmə

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015



## Prezident Sənaye Məhəlləsinin yaradılmasına dair sərəncam verdi

**Prezident İlham Əliyev Neftçala Sənaye Məhəlləsinin yaradılması haqqında sərəncam imzalayıb. Prezident.az saytının məlumatına görə, sənədə əsasən, sənaye sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Neftçala rayonunda Neftçala Sənaye Məhəlləsi yaradılır.**

Sərəncamda bildirilir ki, kiçik və orta sahibkarlığa dəstək məqsədilə Neftçala Sənaye Məhəlləsinin ərazisində qeyri-neft sənaye sahələri üzrə məhsul istehsalı və emalı müəssisələri, habelə xidmət müəssisələri yaradılır. Neftçala Sənaye Məhəlləsinin fəaliyyətinin təşkilini və tənzimlənməsini "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti həyata keçirəcək.

Azərbaycan Respublikasının Nazirlər Kabineti Neftçala Sənaye Məhəlləsinin fəaliyyəti üçün 10 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin daimi istifadəsinə verilməsini iki ay müddətində təmin etməli və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməli, eləcə də sərəncamdan irəli gələn digər məsələləri həll etməlidir.

## Lavrov Obamanı dövlət çevrilişində ittiham etdi



**"ABŞ prezidenti Barak Obamanın "Vaşinqton Ukraynada hakimiyyətin ötürülməsinə nail oldu" sözləri ABŞ-ın dövlət çevrilişində iştirak etdiyinin sübutudur". Avropa.info xəbər verir ki, bu sözləri Rusiya XİN-i Sergey Lavrov Pekində keçirilən mətbuat konfransında deyib. Rusiyalı nazirə görə, ABŞ Ukraynada Maydan hadisələri başlayandan bu prosesə qoşulmuşdu. Hakimiyyət çevrilişi baş tutanadək prosesdə iştirak etdi. Qeyd edək ki, 2014-cü ilin 22 fevral tarixində Ukraynada baş verən hakimiyyət çevrilişi zamanı qanuni prezident Viktor Yanukoviç hakimiyyətdən uzaqlaşdırılmışdı.**

## "Uzunmüddətli sükutumu bağışlayın..."

### Xədicə İsmayıl karserə salınmasından, türmədə ona qarşı təzyiqlərdən yazıb



**AzadlıqRadiosunun həbsdəki əməkdaşı Xədicə İsmayıldan yeni xəbər var. Xanım jurnalist son məktubunda öz durumundan, son günlər yaşadıqlarından yazıb. Məktub "əzizlərim" müraciəti ilə başlayır: "Mən yaxşıyam, nigarançılığa əsas yoxdur. Mənə və ailəmə göstərdiyiniz dəstəyə görə sizə təşəkkürümü bilmirəm necə ifadə edim. Hazırda vacib olanı - mübarizəni davam etdirməkdir. Radiodakı həmkarların indi işi necə qurduqlarını, nə ilə məşğul olduqlarını bilmirəm, amma əminəm ki, onlar harada olsalar Azərbaycan insanının məlumatlandırılması üçün vicdanla çalışacaqlar. Bu işin ölkənin içində də, çölündə də davam etməsi olduqca vacibdir..."**

X.İsmayıl "hər şey bitdi, heç nə düzəlməyəcək" deyə bədbinliyə qapılan dostlarının olmasından da bəhs edib: "Mənim də nə vaxtsa bədbinliyə qapılmaq üçün səbəblərim olub. Amma hər dəfə köməyimə çatan prinsiplərim olub: "Bu işin uğur hekayəsi dəyişən hökumətlər barədə deyil, sənin qoyacağın nümunə haqqındadır". Uğur hekayəsini siz, biz, hər birimiz yazırıq. Sınmadıqsa, deməli, yenilmədik. Uzunmüddətli sükutumu bağışlayarsınız yəqin. Əvvəlki məktublardan sonra karserə salındım. Amma yenə də yazmaqda davam etdim. Bundan sonra kameramda axtarış aparıb, mənim xəttimlə yazılan bütün kağızları, o cümlədən evdən istəyəcəyim əşyalarin siyahısını da apardılar. Sizin üçün yazdığım və Penitensiar Xidmətə poçt vasitəsilə göndərmək istədiyim yazılar da vardı müsadirə olunanlar arasında. Hələ qaytarmayıblar. Yəqin Penitensiar Xidmətdə oxucum çoxdur, hələ hamısını oxuyub bitirməyiblər.

Qəzetləri də iki-üç gün gecikmə ilə və seyrək-seyrək alıram. Təcridxana rəsmilərinə "qəzetlərimə ehtiyacınız varsa, sizi də abunə yazdırım, amma mənim nüsxələrimi özümə gətirin" təklifim o qədər də kar etmədi. Nə isə, imkan düşdükcə oxuyuram. Ailə görüşlərinə hələ icazə verməyiblər. Odur ki, məlumatım olduqca azdır"...

❑ **Hazırladı: SEVİNC**

# Ordumuz irimiqyaslı təlimlərə başladı



**Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən fevralın 2-də müdafiə naziri general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi altında Silahlı Qüvvələrin bütün qoşun növlərinin cəlb olunması ilə irimiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, təlimlərə 15000 nəfərədək şəxsi heyət, 300-dək zirehli texnika, raket və artilleriya qoşunlarının 200-dən artıq qurğusu, Hərbi-Hava Qüvvələrinin 20-dək aviasiya vasitəsi, həmçinin qruplaşmanın havadan mühafizəsi məqsədilə hava hücumundan müdafiə bölmələri və müasir hava hücumundan müdafiə kompleksləri ilə silahlanmış zenit-raket birləşmələri cəlb edilib. Ali Baş Komandanın göstərişinə əsasən təlimlər zamanı birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatda olan 5000 nəfərədək hərbi vəzifəli və 300-ə yaxın avtomobil texnikası təlimdə iştirak edir.

## Müsavat Divanı iki narazı ilə bağlı qərarını verdi

### Qubad İbadoğlu və Ellada Məmmədliyə xəbərdarlıq olundu

**Müsavat Divanının 2 fevralda növbəti toplantısı keçirilib. İclasda Müsavat başqanlığına sabiq namizəd, ADR hərəkatının rəhbəri Qubad İbadoğluna və Qadınlar Birliyinin sədri Ellada Məmmədliyə xəbərdarlıq edilib.**

Bu barədə musavat.com-a Müsavat Divanının üzvü Başxanım Abbasova məlumat verib. O bildirib ki, iclasda Qubad İbadoğlu iştirak etməsə də, Ellada Məmmədli iştirak edib: "İclas çox gərgin keçdi. Ellada xanımın özü iştirak edirdi. Verilən hər bir suala sərbəst cavab verdi. Ona sosial şəbəkələrdə yazdığı statuslara görə xəbərdarlıq edildi. Qubad İbadoğluna isə iclasa gəlmədiyinə görə xəbərdarlıq olundu. Qubad bəy növbəti Divan iclasına çağırıldı. Gəlməyəcəyi təqdirdə onun iştirakı olmadan qərar veriləcəyi bildirildi".

**Q.İbadoğlu musavat.com-a açıqlamasında ona olunan xəbərdarlıq qərarına belə şərh verib:** "Əvvəlcədən demişdim ki, dəvəti qəbul edirəm, amma Divanda iştirakım mümkün deyil. Bakıda olmayacağımı dedim. Növbəti Divan iclasında mən Vaşinqtonda olacam. Bu Divana görə səfəri təxirə salmalıyam? Divanda iştirakda özüm maraqlıyam. Sözlərimi onların diqqətinə çatdıracam. Mənim də onlara xəbərdarlıq etmək imkanlarım var. Bəzi məsələləri onlarla müzakirə edib, xəbərdarlığımı onların diqqətinə çatdırmaq istəyirəm. Partiyanın maddəsində göstərilir ki, üzvə rəhbərliyi tənqid etdiyinə görə intizam qaydaları tətbiq oluna bilməz. Bununla onlar Müsavat Partiyasının nizamnaməsini pozurlar. Ellada xanıma olunan xəbərdarlıq qanunsuzdur. Bu kampaniya dayandırılmalıdır. Onlara məsləhət görərdim ki, nizamnaməni yaxşı oxusunlar".

**E.Məmmədli Divanda iştirakı ilə bağlı bunları dedi:** "Mənə verilən suallar ADR hərəkatı ilə bağlı idi. Guya mən Qadınlar Birliyinin sədri kimi orada məsul vəzifə tuturam. Dedim ki, ictimai hərəkatdır. Sədrlər Şurasına gəlməməyimi dedilər. Bildirdim ki, nizamnamədə Sədrlər Şurası və İcra Aparatı deyilən qurum yoxdur. Mənə məhkəmə qurmuşdular. Bunlar şəxsi hüquqlarımı belə tapdaladılar. Guya bunlar məni dəvət edirlər iclaslara, amma mən gəlmirəm. Etirazımı bildirdim. Sonluq belə oldu ki, deyilənlərdən nəticə çıxarmalıyam. İradlarla razı olmadığımı söylədim. Partiya başqanının legitimliyini qəbul etməməyimin şəxsi işim olduğunu bildirdim. Orada hamı mənə qarşı qərəzli çıxışlar edirdi. Başxanım müəllimə söz demək istəyirdi, amma ona imkan vermirdilər".

❑ **Cavanşir ABBASLI**

## VİP müxalifətin seçkiyə blokla getməsinə tərəfdar çıxdı

**Dünən Vətəndaş və İnkişaf Partiyası (VİP) Siyasi Şurasının növbədənkənar iclası keçirilib. Partiyanın mətbuat xidmətindən verilən məlumata görə, iclasda əsasən VİP-in Siyasi Partiyaların Demokratiya və İnsan Hüquqları Mərkəzində təmsil olunan təşkilatların iştirakı ilə bu il keçiriləcək parlament seçkilərinə yönəlik formalaşdırılan seçki blokunda iştirakı məsələsi müzakirə olunub.**

VİP Siyasi Şurasının son iclasından sonra baş tutan Siyasi Partiyaların Demokratiya və İnsan Hüquqları Mərkəzinin toplantısı haqqında məlumat verən sədr Əli Əliyev sözügedən qurum daxilində seçki hazırlıqlarının intensivləşdirilməsi və bu çərçivədə seçki blokunun tezliklə təsis olunması zərurətinin önə çıxdığını diqqətə çatdırıb. Ə.Əliyev bu zərurətin arqumentləşdirilmiş mövqe ilə ifadə edildiyini deyərək, VİP Siyasi Şurasının bu məsələnin yenidən müzakirə olunmasına ehtiyac yarandığını diqqətə çatdırıb. Müzakirələrdə fəallıq göstərən Siyasi Şura üzvləri müxalifətin parlament seçkilərinə vahid platforma əsasında qatılmalarının vacibliyini vurğulayaraq, VİP-in bu məqsədə hədəflənmiş təşəbbüsləri yüksək qiymətləndirdiyini bir daha qeyd ediblər. Mərkəzi üzvlərinin seçki blokunun formalaşdırılmasının sürətləndirilməsinə dair mövqeyini əsaslı hesab edən natiqlər VİP-in bu prosesdə çevik iştirakının təmin olunması üçün partiya sədri Ə.Əliyevə yetərli səlahiyyət verilməsini məqsədəuyğun sayıblar. Eyni zamanda qeyd olunub ki, VİP sədrinin ona verilmiş səlahiyyət çərçivəsində seçki blokunda təmsilçiliklə bağlı imzaladığı sənədlər partiyanın mart-aprel ayında keçirilməsi nəzərdə tutulan Məclisində yenidən dəyərləndirilməlidir.

❑ **E.SEYİDAĞA**

## Amerikalı jurnalistlər Dağlıq Qarabağa kimin vizası ilə gedib?

**Xəbər verildiyi kimi, Amerikanın nüfuzlu "New York Times" qəzetinin jurnalistləri Azərbaycanın işğal altındakı ərazisinə gediblər. Azərbaycan XİN-in açıqlamasına görə, onlar rəsmi Bakının razılığı əsasında, qabaqcadan Azərbaycan hökumətinə müraciət edib akkreditasiya kartları aldıqdan sonra işğal altındakı bölgəyə yollanıblar. Lakin erməni tərəfi məsələni bir qədər fərqli təqdim edir. Musavat.com erməni KİV-ə istinadən xəbər verir ki, guya jurnalistlər məhz ikinci dəfə, Bakını xəbərdar eləmədən separatçı rejimin "rəsmi razılığını" alandan sonra bölgəyə gəliblər.**

Belə ki, qondarma respublikanın "prezidenti"nin mətbuat xidmətinin başçısı David Babayan deyib: "Məsələ ondadır ki, hələ bir il öncə onlar Dağlıq Qarabağ ərazisinə daxil olmaq üçün Stepanakertə müraciət eləmişdilər. Paralel şəkildə analoji müraciəti Bakıya ünvanlamışdılar. Bununla da "DQR" qanunvericiliyini pozmuşdular. Bir il keçəndən sonra onlar təzədən bizə müraciət elədilər, bu dəfə Bakıya analoji məktub yollamadan. Məhz bundan sonra məsələ həllini tapdı və onlar öz fəaliyyətlərinə başladılar".

**Başsağlığı**

**Rauf Arifoğlu və "Yeni Müsavat" qəzetinin kollektivi Alı və Rəfail Tağızadələrə əzizləri Gülarə xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**



## Nazir Şirvanda vətəndaşları qəbul edəcək

**Daxili işlər naziri general-polkovnik Ramil Usubov vətəndaşları qəbul edəcək. DİN-dən verilən məlumata görə, görüş fevral ayının 28-də Şirvan şəhərində keçiriləcək. Vətəndaşların qəbulunda polisin sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan, Şirvan şəhər, Sabirabad, Salyan, Neftçala, Hacıqabul, Biləsuvar, Cəbrayıl, İmişli, Zərdab, Saatlı rayon sakinlərindən yaşı 20-dən az, 30-dan çox olmayan aşağıdakı şərtlərə uyğun vətəndaşlar iştirak edə bilər.**

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (qadınlar istisna olmaqla);

boy ölçüsü 175 sm-dən yuxarı (qadınlar üçün 170 sm);

düzgün bədən quruluşlu və idman cüssəli, tam orta təhsilli;

yol-patrul xidməti inspektoru vəzifələrinə əlavə olaraq avtomobil nəqliyyatına aid olan orta-ixtisas və ya ali təhsilli, 3 ildən az olmayan sürücülük təcrübəsi olan, kompyuterdən istifadə etməyi bacaran şəxslər;

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# "Talış xanlığı" mövzusu yenidən qızışdı

**Tarixçi-alim Cəmil Həsənlinin facebook-da paylaşdığı "Talış xanlığı" statusu ətrafında başlayan qalmaqal səngimək bilmir. Hər gün yeni-yeni tanınmış simalar, tarixçilər müzakirəyə qoşulur. Cəmiyyət də məsələyə laqeyd deyil. Cəmil Həsənlini sərt tənqid atəşinə tutanlar da var, müdafiə edənlər də.**

**Müzakirələrdə ən fəal iştirak edənlərdən biri tarixçi alim Dilavər Əzimlidir. O, öz mövqeyini sosial şəbəkələrdə daha aydın ifadə edib:** "Bu xanlığın adı Lənkəran xanlığı olub. Mərkəzi vaxtilə Astara şəhəri, sonra isə Lənkəran şəhəri olub. Lənkəran xanları Səfəvi nəslindən olub, türksoyludurlar. Bütün mənbələrdə Lənkəran xanlığı kimi yazılır. Sonradan, XIX əsrin II yarısından Talış xanlığı kimi də qeyd olunub. Əslində bunu ruslar qarşıdurma yaratmaq üçün ortaya atıblar. Azərbaycanda Talış xanlığı olmayıb, Lənkəran xanlığı olub".

Qeyd edək ki, "Ata yurdu" dərsliyinin müəlliflərindən biri olan AMEA-nın Tarix İnstitutunun direktoru Yaqub Mahmudov mətbuata açıqlamasında Cəmil Həsənlini ittiham etmişdi. Milli Şura sədri isə öz növbəsində ona sərt cavab vermişdi.

**Yaqub Mahmudlu barəsində səsləndirilən tənqidi fikirlərə növbəti dəfə münasibət bildirib:** "Cəmil Həsənli ara qarışdırır və məqsədli şəkildə talış-türk məsələsini qaldırır. 5-ci siniflər üçün "Azərbaycan tarixi" dərsliyində cəmi 3 xanlıq barədə məlumat verilib - Gəncə, Qarabağ və İrəvan xanlıqları. Lənkəran və digər xanlıqlar barədə paraqraflar yoxdur və onlar növbəti dərsliklərdə tədris olunacaq. Belə olan halda Cəmil Həsənlinin yalnız Lənkəran xanlığı məsələsini qaldırması təəccüblü görünür. Necə olur ki, Cəmil Həsənli həmin dərslikdə Quba, Bakı, Təbriz xanlıqları barədə məlumatların olmamasını deyil, Lənkəran xanlığı məsələsini qaldırıb? Özü də həmin xanlığın adını "Talış" qoyub".

**Cəmil Həsənli isə Yaqub Mahmudovun "ara qarışdırmaq" ifadəsinə sərt cavab verib:** "Deməliyəm ki, ara qarışdırmaq onun özünün köhnə peşəsidir. Əminliklə deyim ki, Yaqub müəllim səhv fikirləşir. Heç bir türk-talış qarşıdurması yaratmaq, bundan hansısa məqsədlərlə istifadə etmək ağlımızdan belə keçmir. Sadəcə, öz peşəmizə hörmətlə yanaşmağa çalışırıq. Tarixi müzakirələrdə dəlili qurtaranda məsələyə siyasi don geyindirmək bir qayda olaraq sovet dövrünün ənənəsi idi".

**Yazıçı-publisist Mehriban Vəzir də müzakirələrdə aktiv iştirak edənlər sırasındadır. O, öz facebook səhifəsində bu mövzu ilə bağlı status paylaşıb, "Talış xanlığı" məsələsinə etnik mövqedən yanaşanları tənqid edib:**

## Mehriban Vəzir: ""Talış xanlığı" məsələsini etnik höcət mövzusuna çevirənlər bu xanlığı quranların şəcərəsi ilə tanış olsunlar"



Mehriban Vəzir

""Talış xanlığı" məsələsini vətənpərvərlik və ya etnik höcət mövzusuna çevirənlər bu xanlığı quranların şəcərəsi ilə tanış olsunlar. Soyu səfəvilərə, Ərdəbil şeyxlərinə bağlı bir Seyid Talışa gəlir, yatdığı ilk gecədə yuxusunda görür ki, bir gün bu torpaqda dövlət - xanlıq quracaq. Adam sufilərdən idi, belə yuxuların mənasını bilirdi. Həm də yeddi arxa dönəni dövlət quruculuğu üzrə ixtisaslaşmışdı. Ona görə də geri qayıdır və ailəsini, yaxınlarını götürüb bu İlahi informasiyanın ardınca yenidən Talışa qayıdır və xanlığını qurur. Təbii ki, dövlətin davamlılığı üçün yerli türklərin və talışların başçıları ilə qohum olmaq şərt idi. Beləliklə, bu şəcərənin yeni qurşaqlarında qanqarışdırmalar davam etməyə başlayır. Ona görə də Talış xanlığını talışlara, türklərə və ya Ərdəbil seyidlərinə *(onlar min il türklərlə qan qarışdırmış və türkləşmiş ərəblər-farslar olsalar belə)* aid olmasını israr etmək gülüncdür. O uzaq siyasi prosesi təhrif etməklə *(bu təhrifi dərsliklərdə etmək isə sovetizmdir)* vətənpərvər olmaq və ya etnik mübahisə açmaq, sadəcə, komikdir".

❑ **Cavanşir ABBASLI**





# Tələbələr "Khazar Islands"da

**Azərbaycan Dövlət Neft Akademiyası, Prezident yanında Dövlət İdarəçilik Akademiyası, Texniki Universitet və Sumqayıt Dövlət Universitetinin bir qrup tələbəsi yeni salınan "Khazar Islands" şəhər kompleksində ekskursiyada olublar.**







Ekskursiya zamanı tələbələr "Khazar Islands" layihəsinin müəllifi, "Avesta Konsern"in rəhbəri, tanınmış iş adamı Hacı İbrahim Nehrəmli və "Avesta Konsern"in vitse-prezidenti Taleh Quliyev tərəfindən də qəbul ediliblər.

Görüşdə tələbələrə məlumat verilib ki, son illər dünyada baş verən maliyyə böhranına baxmayaraq, prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində Azərbaycanda iri investisiya layihələri uğurla davam etdirilir. Bu cür investisiya layihələrindən biri də paytaxt Bakı yaxınlığında inşa edilən və Azərbaycanı dünyada tanıdacaq "Khazar Islands" şəhəridir.

Bildirilib ki, sözügedən şəhərin inşasına milyardlarla investisiya vəsaiti qoyulub ki, bu da ölkəmizdə minlərlə yeni iş yerinin açılmasına səbəb olub.

Hacı İbrahim Nehrəmli layihə ilə bağlı tələbələri maraqlandıran sualları cavablandırıb.

❑ **Xəbər xidməti**

# Yazarlarımız pul qarşılığında lobbi yazıları yazarmı...



**Azər Rəşidoğlu:** "İçimdən keçməyən heç bir yazını yaza bilmərəm"



**Zahir Əzəmət:** "Dəyərlərimə zidd olmayan peşəkar təklif olarsa, qəbul edə bilərəm"



**Çingiz Sultansoy:** "Hansısa mütərəqqi ideyanı populyarlaşdırmaq təklifinə əgər baxışlarıma, prinsiplərimə zidd olmasa, baxaram"

**Son illər Azərbaycan iqtidarı lobbiçilik fəaliyyəti ilə bağlı gördüyü işlərdə xarici mətbuat faktoruna xüsusi yer ayırır. Və dünyanın ən nüfuzlu nəşrləri də biznes maraqları çərçivəsində Azərbaycanla bağlı məqalələri dərc etdirməyə razılıq verir. "Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev ötən saylarımızda bu barədə detallı danışıb. O deyib ki, dünyada lobbiçilik fəaliyyəti geniş yayılıb və bu sahə intellektual industriyanın ən gəlirli sahələrindən biridir, PR fəaliyyəti ilə uzlaşır.**

Bu işlə məşğul olan yazarlar isə ciddi qazanc əldə edirlər. Elə biz də tanınmış yazarlara bu sualı ünvanladıq: lobbi yazıları yazarsınızmı? Yüksək məbləğdə qonorar sizi qələminizi bu sahədə işlətməyə sövq edərmi?

**"Yeni Müsavat" qəzetinin yazarı Azər Rəşidoğlu sualımıza birmənalı şəkildə "yazmaram" dedi. Müsahibimiz, ümumiyyətlə, içindən keçməyən heç bir yazını yaza bilməyəcəyini vurğuladı:** "Partiya yazarlarını, hakimiyyət və ya müxalifət mirzələrini ciddi qəbul etmirəm. Mənim üçün ümumi maraqlar, lobbi, dövlətin marağı anlayışı yoxdur. İçin nə deyirsə, odur".

**Kulis.az dərgisinin baş redaktoru Qan Tural da bildirdi ki, əgər bu, onun ideyasına uyğundursa yazar:** "Amma pul üçün müharibə çağırışları etmərəm, insan hüquqları pozuntusuna haqq qazandırmaram, mütərəqqi ideyaları şübhə altına almaram və s. Yazıçı öz fikrini istehsal edir, ona görə də hansısa formada özünə yad fikirləri təlqin və təbliğ etməməlidir. Tutaq ki, mahiyyətcə pasifist olan bir insanın təmənnalı münasibət fonunda müharibə çağırışları etməsi mənim aləmimdə xəyanətdir. Bu cür yanaşma yazıçını inandırıcılıqdan uzaqlaşdırır. Təkif edilən mövzu və yanaşma mənim prinsiplərimə uyğundursa mən onu yazmaqda elə bir narahatlıq görmürəm, lakin öz düşüncəmə uyğun olmayan şeyləri də yazmaram. Bura çox şey daxildir, misal üçün, müharibə çağırışları, insan hüquqlarının pozulmasına haqq qazandırmaq, hansısa fərdi, milləti, etnik və dini qrupu aşağılamaq və s".

Qan Tural hesab edir ki, yazıçı hər nə qədər müxtəlif obrazlar yaratsa belə, onun bir obrazı var və o bu obraza sədaqət göstərməlidir.

**Aznews.az saytının redaktoru Elçin Zahiroğlu isə hesab edir ki, ümumiyyətlə, Azərbaycan jurnalistləri xarici media ilə əlaqələri genişləndirsə yaxşıdır:** "Lobbi yazılarını hər adam deyil, belə deyək, ixtisaslaşmış, bu sahədə təcrübəsi olan jurnalistlər yazmalıdır. Əlbəttə, jurnalistlərin lobbiçiliklə məşğul olması qəbul olunan deyil. Amma fakt ondan ibarətdir ki, əksər ölkələrin mətbuat nümayəndələri bu işlə ciddi məşğul olurlar".

**Yazar Zahir Əzəmət isə bunu prinsip etibarilə mümkün hesab edir:** "Prinsipcə mümkündür. Dəyərlərimə, maraqlarıma zidd olmayan peşəkar təklif olarsa, qəbul edə bilərəm".

**Jurnalist Çingiz Sultansoy heç zaman pul qarşılığında lobbi yazıları yazmadığını dedi. Onun sözlərinə görə, redaktorun tapşırığı ilə yazı yazıb, veriliş hazırlayıb:** "O da baxışlarıma, prinsiplərimə uyğun gələndə, ən azı zidd olmayanda. Hansısa mütərəqqi ideyanı populyarlaşdırmaq təklifinə əgər baxışlarıma, prinsiplərimə zidd olmasa, baxaram. Amma burada 2 məqam önəmlidir: Birinci, mütərəqqi olsun. İkincisi, dünyagörüşümə və prinsiplərimə uyğun gəlsin. Bu sayaq layihələrdə iştirak etmişəm. Heç vaxt mədahlıq etməmişəm".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015



# Nəsrullahlar yoxdur, yoxsa İsgəndərlər çatışmır?

Hüseynbala SƏLİMOV

**Bəli, hər sənətin öz spesifikası var. O cümlədən də jurnalistikanın. "Danışırsınızsa, özünüzdən danışın. Cəmiyyətdən yazmağa, onun adından danışmağa sizə kim haqq verib?" Nisbətən böyük təcrübəsi olan elə bir yazar tapmaq olmaz ki, nə vaxtsa belə bir ittihamla və yaxud da xəbərdarlıqla rastlaşmasın...**

Adətən belə hallarda nə edirik? Başlayırıq ki, bizim cəmiyyətimiz həqiqətən də ən sağlam, ən ədalətli, ən humanist (məşhur bir filmdə deyildiyi kimi!), ən qəhrəman cəmiyyətdir...

Amma həqiqətdə belədirmi? Patologiyalar yalnız fərdlər - individlər üçün xarakterikdir, yoxsa onların kollektiv formaları da olur?

Maraqlıdır, hələ Z.Freyd bütövlükdə cəmiyyətin sağlam olmaya bilməsi fikri ilə razılaşırdı, amma eyni zamanda da xəbərdarlıq edirdi ki, bu, çox çətin problemdir, çünki individ-fərd halında fon olur və bu fon rolunu cəmiyyət oynayır, məhz cəmiyyətə görə biz hansısa fərdin sağlam olub-olmaması haqda fikir yürdürük...

Həm də bu, cəmiyyətlə bağlı yeganə problem də deyil. Fərd halında məsələ gedib tibbi diaqnoza və ya müalicəyə qədər çata bilir...

Amma cəmiyyətin "müalicə" olunması haqda kim göstəriş verəcək? Bunu heç təsəvvür etmək mümkündürmü?..

Burada nəzəri-psixoloji girişi dayandırırıq. Ona görə ki, problem artıq qoyulub - soruşulur ki, cəmiyyət qeyri-sağlam ola bilərmi? Əgər olarsa, bəs bu halda nə etməli, onu müalicə etmək mümkündürmü?

Çox da uzağa getməyəcəm. Hər bir cəmiyyətin, hətta millətin tarixində elə bir şəxslər olub ki, onlar həqiqətən də cəmiyyətlərini "müalicə" etməyə çalışıblar və buna nail də olublar...

Məsələn, Rusiyanın tarixində 1-ci Pyotr beləlrindən idi. Başa düşürəm, söhbətin müstəbiddən başlaması belə bir fifir yaradacaq ki, bəs, bu da kral və ya çar arzusundadır...

Yox, belə arzuda bulunmuruq. Sadəcə, həkimlər bütün dövrlərdə eyni xəstəlikləri heç də eyni üsullarla müalicə etməyiblər-əvvəllər bitkilərlə, otla müalicə edirdilər, indi isə tomoqrafiya edirlər. Bircə düzəlişlə ki, müalicə olunan eyni xəstəlikdir...

Lap aydın olsun deyə, özümüzə keçəcəm. Ötən əsrin əvvəlində bizim "molla Nəsrəddinçilər" olub və onların da başında M.Cəlil dayanıb. "Molla Nəsrəddinçilər" deyirdilər ki, bəs bizim bu cəmiyyət ən azı sosial və kultural baxımdan sağlam deyil, ona görə də nadanlığı, mövhumatçılığı və geriliyi qamçılayırdılar...

Başqa bir cərəyan təmsilçiləri - "füyuzatçılar" isə bir qədər fərqli düşünürdülər. Onlar belə hesab edirdi ki, millətə böyüklük hissi aşılamaq lazımdır...

Bu iki baxışın finalı nə oldu? Deyilənə görə, 20-ci illərin axırına yaxın Bakıya səfər edən Əli bəy Hüseynzadə "molla Nəsrəddinçi"lərə deyibmiş ki, bəli, siz haqlı çıxdınız...

İndi bunu heç də bir ədəbi-sosioloji istiqamətin və ya konsepsiyanın digəri üzərində qələbəsi kimi təqdim etmək istəmirik, hər ikisinin öz yeri, öz önəmi var...

Həm də bizi bu günün cəmiyyəti - çağdaş cəmiyyətimiz maraqlandırır. Bəzən deyirlər ki, bəs, filankəs də marginallaşıb, cəmiyyət üçün tamam anlaşılmaz adam olub...

Belə hallarda "toplumçular" birmənalı olaraq cəmiyyətin tərəfini tutur və ərz edirlər ki, bəs, yazıq filankəs, o da belə qurtardı...

Amma kim haqlıdır? Kim müqəssirdir? Kim sağlamdır? Fərd, yoxsa cəmiyyət? İnanın, bu sualın cavabı heç də həmişə birmənalı deyil. Bəzən elə olur ki, fərdi yox, cəmiyyəti müayinə etmək zərurəti yaranır...

Məsələn, indiki Azərbaycan cəmiyyətini sağlam hesab etmək olarmı? Güman etmirik ki, Z.Freyd və yaxud da E.Fromm buna müsbət cavab verərdi...

Bəli, bu cəmiyyətdə marginal və yaxud da ki, "qeyri-sağlam" adam statusu qazanmaqdan asan iş yoxdur. Yetər ki, cəmiyyət üçün xarakterik olan onlarla keyfiyyətlərdən, əslində isə qüsurlardan biri səndə çatışmasın...

Fərqləndinsə, vay, halına... Hamı dodaq büzəcək və ya ən yaxşı halda "əşi, fikir verməyin, bir az başqa adamdır"-deyəcəklər. Yəqin ki, burada kefli İsgəndəri xatırlamamaq günah olardı...

Bəzən bizə hər şey çox, olduqca normal görünür. Hətta düşünürük ki, bəli, daha şeyx Nəsrullahlar yoxdur...

Amma belədirmi? Əsla. Ətrafımız onlarla-şeyx Nəsrullahlarla tamam doludur. Sadəcə, onları ifşa edən İsgəndərlər, bəli, kefli İsgəndərlər çatışmır...

# Banklar prezidentin tapşırığına əməl edirmi?

## Ekspertlər bildirirlər ki, kommersiya bankları real sektoru maliyyələşdirməkdə maraqlı görünmür, bəzi banklar isə tapşırıqdan nəticə çıxardıqlarını bildirir...

**Dövlət başçısı İlham Əliyevin banklardan gözlədiyi addım onların biznes kreditlərinə daha çox vəsait ayırmasıdır. Qeyd edək ki, prezident banklara sonuncu müşavirədə etdiyi iradı bir müddət öncə də etmişdi. Ancaq görünən odur ki, banklar iradlardan nəticə çıxarmır. Ekspertlər isə bildirirlər ki, bankların istehsalın uzunmüddətli sferasına kredit verməməsinin səbəbi bu sahədə risklərin yüksək səviyyədə olmasıdır.**




**İqtisadçı ekspert Vüqar Bayramovun sözlərinə görə, hələ də real sektora yönəldilən kreditlərin həcmi ümumi kredit portfelində aşağı olaraq qalmaqdadır:** "Ölkə başçısının kommersiya banklarının real sektoru daha çox maliyyələşdirməsi ilə bağlı qeydlərinə gəldikdə isə, o, 2014-cü ildə də bu məsələyə toxunmuşdu. İndiki halda kommersiya banklarının real sektoru daha çox maliyyələşdirməsi vacibdir. Çünki nəzərə alsaq ki, neftin dünya bazarında qiymətinin aşağı düşməsi fonunda investisiya xərclərinin azalacağı proqnozlaşdırılır və həmin fərqin kommersiya bankları tərəfindən ödənilməsinə və ya kompensasiya edilməsinə ehtiyac var. Amma təəssüf ki, kommersiya bankları real sektoru maliyyələşdirməkdə maraqlı deyillər. Əvvəla, istehlak kreditləri üçün faiz dərəcələri yüksək olduğu üçün bunda banklar maraqlıdır. Həmçinin real sektorda girovlarla bağlı problemlər var, kommersiya bankları girovlar olmadan vəsait, kredit verməkdə maraqlı deyillər. Rayonlarda isə cəlb edilən girovun təxminən 60 faizi həcmində kredit verilir. Daha böyük məbləğli kreditlər üçün daha bahalı girovların cəlb edilməsinə ehtiyac var. Bu da əksər hallarda real sektor üçün problemlər yaradır".

**V.Bayramov kommersiya banklarını stimullaşdıracaq təkliflərin də olduğunu vurğulayır:** "Təşviqedici tədbirlərin həyata keçirilməsinə ehtiyac var.

**Digər iqtisadçı ekspert Natiq Cəfərli** isə bildirir ki, əslində istehlak kreditləri dünyanın hər yerində banklar üçün prioritet və çox gəlir gətirə biləcək kredit növünə aid olunur: "Müddəti çox qısa, faizlər yüksək olur, tələbat olur və insanlar öz gündəlik məişət həyatlarını yaxşılaşdırmaq üçün istehlak kreditlərini götürməkdə maraqlı olurlar. Biznes kreditləri isə uzunmüddətli kreditlər hesab olunur. Bəzən işə başlayarkən bir neçə il gözləmək lazımdır ki, həmin sahə - istehsal sahəsi gəlir gətirməyə başlasın və kreditlərin ödənilməsinə başlanılsın. Bu, uzunmüddətli biznes kreditlərinin verilməsində maraq yaratmır. İstehlak kreditləri qısamüddətli və gəlirli olduğundan, banklar buna meyllənirlər. Ona görə də dünyanın bir çox ölkələrində təşviq proqramları vasitəsilə tənzimlənir ki, banklarda da maraq yaransın, biznes çevrələrində də. Sahibkarlar bu təşviq proqramlarından, dövlətin dəstəyindən istifadə edərək uzunmüddətli və aşağı faizli kreditlər götürsünlər. Ona görə də Azərbaycanda məhz bununla bağlı problem yaşanır. Uzunmüddətli kreditlərə banklarda maraq yoxdur. Çünki biznes sahəsində çalışanların da buna ciddi marağı yoxdur. Faizlər həddindən artıq yüksəkdir. Son açıqlanan rəqəmlərə görə, uzunmüddətli istehsala sərf olunan kreditlər ortalama 10-12 faiz civarındadır. Bu, çox yüksək faizdir və istehsala başlamaq və yaxud da biznes açmaq istəyən hər hansı bir iş adamı bu yüksək faizlərlə uzunmüddətli kredit götürərkən əksər vaxt gəlirə çıxma zamanı çox vaxt ziyana düşür. Ona görə də biznes çevrələrində də belə kreditlərə maraq çox olmur. Bunu köklü şəkildə dəyişmək üçün bank sferasında olan problemlərin həll olunması kifayət etmir. Yəni faiz aşağı çəkilsə belə, bəzi ciddi problemlər var ki, onlar da müvafiq olaraq həll olunmalıdır ki, iş, biznes çevrələrində maraq daha da artsın. Bunlar inhisarçılıqla bağlı problemlərdir, korrupsiya ilə bağlı problemlərdir, onlar çox ciddi şəkildə bazara müqavimət göstərir. Bütün bu kompleks problemlər təbii ki, Azərbaycanda biznes kreditlərinin çox aşağı səviyyədə olmasına gətirib çıxarır. Bu isə qeyri-neft sektorunun inkişafı üçün seçilmiş hədəflərə çatmaqda ciddi problem yaradır".

**Bəzi banklar isə dövlət başçısının çıxışından nəticə çıxarıb. "Bank Respublika"nın ictimaiyyətlə əlaqələr şöbəsindən mətbuata verilən açıqlamada bildirilib ki, dövlət başçısının həmin çıxışı diqqətlə izlənilib və təhlil edilib:** "Bizim bankın mahiyyəti ondan ibarətdir ki, biznes kreditlərinin artırılmasına önəm veririk. Bu çıxışdan sonra həmin istiqamətdə işlər genişlənib".

**"Unibank"ın ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə isə bu il bank biznes layihələrinə diqqəti artıracaq:** "Dövlət başçısının banklar qarşısında qoyduğu tapşırıqlarına əsasən, "Unibank" hələ ötən ildən biznes kreditlərinin həcmini artırıb. Bankın illik göstəricilərində də bu artım diqqəti çəkir. 2014-cü ildə bankın yalnız sahibkarlara xidmət edən ixtisaslaşmış 1 biznes filialı açılıb. Digər 2 filialı isə yalnız biznes kreditləri üzrə ixtisaslaşıb. İl ərzində verilən biznes kreditləri 50 milyon manatdan çox artıb. "Unibank"ın biznes kreditləri portfeli 2014-cü ildə 2013-cü illə müqayisədə 37 faiz və ya 50,4 milyon manat artaraq təxminən 188 milyon manata çatıb. Bankın sənaye sektoruna ayırdığı kreditlər 1,7 dəfə, kənd təsərrüfatına verdiyi kreditlər 53,4 faiz, ticarət və xidmətə verdiyi kreditlər isə 29,6 faiz artıb. 2015-ci il ərzində də "Unibank" biznes layihələrinin dəstəklənməsinə diqqəti daha da artıracaq".

"Accessbank", "Bank of Azerbaijan", "Bank of Baku"dan isə sualımızı cavablandırmadılar.

Əksər ekspertlər bildirirlər ki, istehlak kreditlərinə üstünlük verən banklardan prezidentin daha bir tələbi də var. Bu tələb isə bankların şəhər və rayonlarda layihələrə qoyduqları vəsaitlərin həcminin ictimaiyyətə açıqlanmasıdır. Qeyd edək ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, 2014-cü ilin yanvar-noyabr aylarında maliyyə-kredit təşkilatları tərəfindən ölkənin hüquqi və fiziki şəxslərinə verilmiş kreditlərin məbləği artıb. Bu məbləğ 19,1 faiz artaraq, əvvəlki illərdə verilmiş kreditlər də nəzərə alınmaqla, 18,2 milyard manata çatıb. Kreditlərin 79,5 faizi uzun müddətə verilib, 5,4 faizinin isə ödəmə vaxtı keçib.

Ekspertlərə görə, ölkədə verilən kreditlər istehsalı dəstəkləməyə qadir deyil. Bir neçə il qabaq ümumi kredit səbətində istehlak kreditlərinin payı 26-27 faiz ətrafında dəyişirdisə, keçən il 37-38 faizə qalxmışdı. Hazırda isə 41 faiz ətrafında dəyişir. Ekspertlər qeyd edirlər ki, ölkənin əsas banklarının biznes kreditləri verməyə imkanı yoxdur. Çünki biznes kreditləşdirilməsi üçün çox böyük vəsaitlər lazımdır. Bankların isə kütləvi şəkildə bu vəsaitləri verməyə imkanı yoxdur. Ölkədə kommersiya bankları ucuz resurslar tapa bilmədiklərinə görə faiz dərəcəsi aşağı, müddəti uzun olan bu kreditləri verə bilmirlər. Kommersiya banklarında kredit dərəcələrinin yüksək olmasının səbəbləri var. Əsas səbəb bankların cəlb etdiyi resursların dərəcəsinin yüksək olması ilə bağlıdır. Bankların əsas kredit mənbəyi fiziki şəxslərin depozitləri, yəni əhalinin əmanətləridir. Depozitlərin dərəcəsi yüksək olması kredit dərəcələrini də yüksək edir.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015

**“Qədim dövrdən bəri yaşamaq uğrunda mübarizə aparan qəbilə və xalqlar həm məskunlaşdıqları əraziləri, həm də ətrafdakı insanları öyrənməyə çalışmış, əldə etdikləri məlumatları və bilikləri müxtəlif formalarda əks etdirərək bir-birilərinə çatdırmışlar. Belə formalardan biri də universal ünsiyyət vasitəsi olan, fərqli dillərdə danışan insanların başa düşə biləcəyi kartoqrafik təsvir və materiallardır”. (Trend)**


Əli Həsənov

# “Biz postsovet ölkələri arasında beşinciyik...”

## Əli Həsənov: “Bu gün Azərbaycan dünyanın kosmik dövlətləri ilə bir sıradadır”

**Bunu Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov** Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) birgə təşkilatçılığı ilə “Azərbaycan Respublikasının Milli Atlası” və “Cənubi Qafqaz: 1903-cü il” xəritəsinin təqdimatında çıxışı zamanı deyib. Ə.Həsənovun sözlərinə görə, mütəxəssislər belə hesab edirlər ki, kartoqrafiya hətta yazıdan da əvvəl əmələ gəlib: “Bu sahə ildən-ilə təkmilləşir və dövlət və cəmiyyət üçün onun əhəmiyyəti daha da artır. Azərbaycan alimləri və mütəxəssisləri milli xəritəçəkmə mədəniyyətinin tərəqqisi istiqamətində mühüm uğurlara imza atıblar. Hələ sovet dövründə ölkənin fiziki, coğrafi, geoloji, siyasi və inzibati xəritələri hazırlanıb. Lakin ölkəmiz müstəqillik qazandıqdan sonra bu sahənin elmi-praktiki, təsərrüfat əhəmiyyəti, siyasi və ideoloji xüsusiyyəti artıb. Erməni ekspansionistlərin xəritə və atlaslardan ölkəmizə qarşı silah kimi istifadə etməsi bu məsələnin nə qədər vacib olduğunu göstərir. Dövlətin öz məqsədlərinə çatması yolunda kartoqrafik materialların əhəmiyyətini və təsir imkanlarını mühüm qiymətləndirən ümummilli lider Heydər Əliyev bu sahənin inkişafına xüsusi həssaslıqla yanaşıb”.

**PA rəsmisi bildirib ki, 2001-ci ildə ölkədə struktur islahatları aparılarkən kartoqrafiya problemləri diqqətdən yayınmayıb, müasir dövrdə mövcud resurslardan daha səmərəli istifadə etmək üçün Dövlət Topaq və Xəritəçəkmə Komitəsi yaradılıb:** “Tədqiq olunmuş məlumatlar və statistik göstəricilər Azərbaycanda kartoqrafiya sahəsində yeni inkişaf mərhələsinin İlham Əliyevin adı ilə bağlı olduğunu söyləməyə əsas verir... ”

**Ə.Həsənov qeyd edib ki, atlasdakı qiymətli elmi məlumatlar, 1000-ə yaxın xəritə, diaqram və cədvəl, arayışlar, qrafika və illüstrasiyalar redaksiya heyətinin və bütün mütəxəssislərin gərgin əməyinin nəticəsidir:** “Beynəlxalq təcrübə göstərir ki, milli atlasları yalnız müstəqil dövlətlər hazırlayır. Hazırda dünyadakı 200-dək dövlətdən təxminən yarısının atlası yoxdur. Qərb ölkələri bu prosesi hələ ötən əsrin 70-90-cı illərinin ortalarından başlayıblar. Biz postsovet ölkələri arasında 5-ci ölkəyik ki, milli atlasımızı buraxırıq. Bizdən əvvəl Rusiya, Belarus, Ukrayna və Qazaxıstan milli atlaslarını hazırlayıblar. Təbii ki, Azərbaycanın Milli Atlasının ərsəyə gəlməsi həm dövlət müstəqilliyimizin bizə bəxş etdiyi tarixi nailiyyət, həm xalqımızın yüksək intellektual potensialının göstəricisi, həm də son illər sosial-iqtisadi sahədə qazanılan uğurların nəticəsidir. Hazırda Azərbaycan Milli Atlasının tərtibatında da 2 süni peykimizin imkanlarından da istifadə olunub. Bu gün Azərbaycan dünyanın kosmik dövlətləri ilə bir sıradadır. Bu faktın özü Azərbaycanın nə qədər inkişaf etdiyinin bariz göstəricisi hesab oluna bilər”.

**O hesab edir ki, atlas cəmiyyətimiz üçün bir neçə aspektdən önəmli olacaq:** “Əvvəla, atlas vətəndaşlar, xüsusilə də gənc nəsil üçün maarifləndirici funksiya daşıyır. Belə ki, tariximiz, mədəniyyətimiz, iqtisadiyyatımız, təbii sərvətlərimiz barədə dəqiq məlumatlar və doğru biliklər əldə etmək, ölkəmizin hər bir güşəsini daha yaxından tanımaq imkanı yaranacaq. Digər tərəfdən, təhsil alan gənclərimiz və yeniyetmələrimiz bu tipli vəsaitlərlə işləmək vərdişləri qazanacaq ki, bu da onların dünyagörüşünün genişlənməsinə, intellektual səviyyələrinin artmasına səbəb olur. Atlas Azərbaycanın mili maraqlarının qorunması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli işinə də öz mühüm töhfəsini verəcək. Ermənistan və erməni diasporu uzun illərdən bəri müxtəlif saxta xəritələr hazırlayaraq onlardan ölkəmizə və xalqımıza qarşı geniş istifadə edirlər. Azərbaycanın Milli Atlasının nəşr edilməsi, xarici ölkələrə, beynəlxalq təşkilatlara və tanınmış kitabxanalara göndərilməsi regionun tarixi və coğrafiyası, burada gedən proseslərin mahiyyəti ilə bağlı erməni yalanlarının ifşasına əlavə imkanlar yaradacaq”.

PA rəsmisinin fikrincə, bu baxımdan atlasın tarix bölməsinə geniş materialların yerləşdirilməsi müsbət haldır.

# Müsavat seçkilərə hansı formada qatılacaq?

**Müxalifət düşərgəsinin aparıcı partiyası olan Müsavatın bir sıra Məclis üzvləri seçki bloku yaratmaq istiqamətində müzakirələrə vaxt sərf etməyin əleyhinə çıxış edirlər. Məsələn, Məclis üzvləri Mustafa Hacıbəyli, İltizam Əkbərli bildiriblər ki, vaxtı bloklaşma müzakirələrinə sərf etmək əvəzinə seçkidə təkbaşına iştirak qərarını verib seçkiyə ciddi hazırlaşmaq lazımdır.**

Müsavat Partiyasının rəhbərliyinə daxil olan şəxslərin bu məsələdə mövqeyini öyrəndik.

**Müsavat Partiyası Məclisinin sədri Nüşabə Sadıqlı** bildirdi ki, Müsavat demokratik partiyadır və qərarları kollegial qəbul edir. Seçkidə blokla və təkbaşına iştirak barədə də qərar kollegial qəbul olunacaq. Yəni bu, Məclis sədrinin və ya başqa bir fərdin şəxsi mövqeyi ilə həll edilməyəcək. Partiyanın rəhbər orqanlarında məsələ geniş müzakirə ediləcək və qərar veriləcək: “Hər kəsin fərdi mövqeyi ola bilər. Amma yekunda məsələ səsvermə nəticəsində verilən qərarla həllini tapacaq. Bu gün üçün partiyada seçkidə təkbaşına iştirakın məqsədəuyğun olduğunu düşünənlər də, blokla iştirakın düzgün olduğunu düşünənlər də var. Yəqin ki, bu məsələlər Məclisin növbəti iclasında müzakirə olunacaq. Hələ qəti bir qərar yoxdur ki, Müsavat seçkiyə təklidə, yoxsa blok şəklində getsin. Hazırda şəxsi mövqeyimə gəlincə, inanın ki, mən bu məsələdə tərəddüd içindəyəm. Təhlil etməkdəyəm ki, hansı variant xalqımız və partiyamız üçün daha uğurludur”.



**Nüşabə Sadıqlı:**
“Mən bu məsələdə tərəddüd içindəyəm”



**Elman Fəttah:**
“Bu gün üçün Müsavatın gündəliyində hansısa blokun tərkibində seçkidə iştirak etmək yoxdur”

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirdi ki, Müsavat seçkidə iştirakda maraqlıdır:** “Bizim düşüncəmizə görə, hədəfləri, məqsədləri Müsavatla eyni olan müxalif partiyalarla seçkiyə birlikdə getməyimiz daha düzgün olardı. Bu məsələlər müzakirə olunur. Eyni zamanda Müsavatın seçkidə öz namizədlər siyahısı ilə iştirak etmək təklifləri də səslənir. Bütün bu təkliflər partiyanın strukturlarında müzakirə olunacaq və daha məqbul hesab olunan təklif qəbul ediləcək”.

**Müsavat Partiyası başqanının müavini Elman Fəttah bildirdi ki, seçkidə hansı şəkildə iştirak məsələsi partiya strukturlarında müzakirə olunur. Məclisin son iclasında 2015-ci il üçün fəaliyyət planı qəbul olunub. Fəaliyyət Planında parlament seçkiləri ən vacib məsələlərdən birini tutur:** “Bizim əsas mövqeyimiz ondan ibarətdir ki, seçkiyə hazırlıq dövründə, seçki islahatları, demokratik seçki mühitinin yaranması istiqamətində əksər siyasi qüvvələrlə funksional əməkdaşlıq etmək vacibdir. Seçkiyə hazırlığa Müsavat Partiyası başlayıb. Bu gün üçün Müsavatın gündəliyində hansısa blokun tərkibində seçkidə iştirak etmək yoxdur. Hazırda partiyamız özünün deputatlığa namizədlər siyahısını müəyyənləşdirir. Bu isə seçkidə Müsavatın öz siyahısı ilə iştirak etməsi deməkdir. Mən hesab edirəm ki, bu düzgün addımdır. Ancaq onu da unutmayaq ki, hələ seçkiyə xeyli vaxt var. Əgər yeni situasiya yaranarsa, ondan asılı alı olaraq hansısa blokun yaranması və seçkidə həmin blokla iştirakı istisna da eləmirik. Bu gün üçün isə gündəlikdə hansısa seçki bloku yoxdur”.

❑ **Etibar SEYİDAĞA**

# Milli nəxunəkliyin inkişafı



**Samir SARI**

**Dünən spirtli içkilərin və tütün məmulatlarının bahalaşacağı barədə xəbəri oxumazdan bir az qabaq bir rusdilli saytda insanın beynini məhv edən 10 şeyə dair yazı oxudum.**

Heç demə, insanın beynini az yemək də xarab edirmiş, çox yemək də, səs-küy və çirkli hava da.

Ancaq tibb alimlərinin uzun illər apardıqları təhqiqatdan sonra gəldikləri nəticə budur ki, insanın beynini ən çox xarab edən şey tütün və alkoqoldur. Bildiyiniz - siqaret və araq. Bunlar insanın beyninə o dərəcədə mənfi təsir göstərir ki, onlarda alzheymer mərəzi yaradırmış.

İndi deyirlər ki, məhz bu məmulatların qiyməti qalxacaq. İqtisadçılar aksiz vergilərindən-filandan danışır, ağıllı izahatlar verir, bahalaşmanı layiqincə əsaslandırırlar, amma bu, siqaret və araq istehlakçılarının qulağına girmir. Onlar üçün əsas odur ki, siqaretin və arağın qiyməti qalxır və bu pis şeydir.

Belə çıxa bilər ki, tütün və spirtli məmulatların qiymətini artırmaq istəyənlər ölkə vətəndaşlarının sağlığının qeydinə qalır, onların xərçəng və alzheymer kimi mərəzlərə yoluxmasının qarşısını almaq, heç olmasa risk faizini aşağı salmaq istəyirlər.

Elə şey yoxdur. Məqsəd pul qazanmaqdır. Məlumdur ki, neftin qiyməti düşüb, dövlət büdcəsində kəm-kəsir, yırtıq-deşik əmələ gəlib. Büdcəni doldurmaq üçün yeyib-içən, çəkən adamların yardımına ehtiyac var.

Məsələ bu qədər bəsitdir. Kimsə deyə bilər ki, bəs niyə kasıbları nəzərə almırlar. Niyə almırlar ki? Bu qiymət artımı dolayısı ilə kasıblara xeyirdir. Ucuz siqaret çəkməzlər, ucuz araq içməzlər, qara və ağ ciyərlərini, eləcə də beyinlərini xarab edib ölməzlər.

Birdəfəlik bilmək lazımdır ki, bir sıra şeylər sırf varlılar üçündür. Keçmişdə siqarı, qəlyanı lordlar çəkirmiş, indi hamı çəkir. Qədimlərdə göz yaşı kimi duru arağı, viskini varlılar içirmiş, indi hamı içir, heç baxmırlar da ki, bu, prinsipcə, haramdır.

Əgər kimin pulu çoxdursa və tamahını boğa bilmirsə, zəhmət çəksin, sevimli məmulatına daha çox pul versin. Arada da dövlət büdcəsinə daxilolmalar azalmasın.

Deyilə bilər ki, dövlət büdcəsindən qamarlamalar, silib-süpürüb boşaltmalar olmasa, daha effektiv olar və tütündən, spirtdən gələn daxilolmalara ehtiyac qalmaz. Amma bu, başqa söhbətdir. Bunu biz bilmərik, iqtisadçılar, maliyyəçilər bilər.

Mütəxəssislər isə deyirlər ki, sözü gedən məmulatların qiymətinin artması onların istehlakını azaldacaq. Yəni tutaq ki, Əşrəf və Mürsəl kişi gündə bir qutu, 20 gilə siqaret çəkirdisə, indi günə 15 gilə çəkəcəklər ki, ailə büdcəsinə ziyan olmasın. Yaxud adını çəkmək istəmədiyim tanış alkoqoliklər həftədə 5 şüşə araq içirdilərsə, indi birinə qənaət edəcək, dörd şüşə içəcəklər.

Hərçənd ola bilər ki, bu islahat istehlaka o qədər də təsir göstərməsin, milli nəxunəkliyin inkişafına təkan versin. Yəni ola bilər ki, Əşrəf və Mürsəl kişilər gün ərzində çəkdikləri 20 gilə siqaretin beşini dənə-dənə məhəllədəki tay-tuşlarından alsınlar. Yaxud içki aludəçiləri həftəlik spirt limitlərinin çatışmayan hissəsini kiminsə boynuna qoya bilərlər.

Amma bunun dövlət büdcəsinə istisi-soyuğu yoxdur, məmulatların pulunu kim verir, versin, əsas odur ki, büdcəyə pul gəlsin.

İçməyən və çəkməyənlərin vecinə deyil, deyirlər, Allah eləsin, araq da, siqaret də qızıl qiymətinə olsun. “Biz çəkmirik, ölmürük ki... Çörək deyil, su deyil. Siqaretsiz, araqsız da yaşamaq olar” - belə deyirlər.

Düzdür, onlarsız da yaşamaq olar. Ancaq çəkən və içənlərin fikrincə, bu artıq yaşamaq deyil, guya ki, belə yaşayışın ləzzəti yoxdur.

Alkoqola və tütünə qarşı qətiyyətli mübarizə aparan bir tanış adam var, qohum-əqrəba arasında, iş yerində həmişə hamıya sağlam həyat tərzi keçirməyi təbliğ edir, bu yaxınlarda özü mənə etiraf etdi ki, yalnız pis adamlara spirtin və tütünün ziyanından danışmır. Deyir, zəhləm gedən adamlara bu barədə danışmıram, qoy çəksinlər, içsinlər, tez ölsünlər.

Xüləs, bu xüsusda çox fikirləşməyə də dəyməz. Tibb alimləri sübut edirlər ki, insanın beynini xarab edən 10 şeydən biri də boş-boş fikirləşməkdir.

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015

**Fevralın 2-də spiker Oqtay Əsədovun sədrliyi ilə Milli Məclisin yaz sessiyası öz işə başladı. Dövlət himninin oxunmasından sonra parlament sədri sessiyanın başlanması münasibətilə təbriklərini çatdırdı, uğurlar arzuladı. Bildirdi ki, artıq 4-cü çağırış Milli Məclisin səlahiyyətlərinin başa çatmasına az qalıb, ona görə də bizi gərgin iş gözləyir. Spiker bu sessiyada hökumətin, ombudsmanın, Hesablama Palatasının hesabatının dinləniləcəyini, büdcə məsələsinə yenidən baxılacağını deyib. Gündəliyin təsdiqindən sonra cari məsələlər ətrafında müzakirələr başladı.**

# Parlamentdə amnistiya çağırışı

## Milli Məclisdə narkomaniya ilə bağlı da həyəcan təbili çalındı; mərc oyunlarının ləğvi istənildi; fırıldaqçı şirkətlərin məsələsi qaldırıldı...

**Deputat Zahid Oruc** qış tətilində ölkə başçısının Tarif Şurasının enerjidaşıyıcıları ilə bağlı qərarını ləğv etdiyini xatırladaraq bildirdi ki, əslində Tarif Şurasının statusu qanunla müəyyənləşməlidir. Deputat Şurada QHT, parlament nümayəndələri və Mətbuat Şurasından bir nəfərin olmasını zəruri saydı. Z.Oruc yanacaq məsələsində qurumun əsassız addım atdığını və nəticənin də belə olduğunu qeyd etdi.

**Xanhüseyn Kazımlı** Gənclər günü ilə bağlı danışaraq təbriklərini çatdırdı, ölkə başçısına gənclərə verdiyi mükafatlara görə təşəkkür etdi.

**Qənirə Paşayeva** da gənclərə təbriklərini ifadə etdi. Xanım deputat aliment verməkdən imtina ilə bağlı problemdən bəhs etdi. Dedi ki, qanunvericiliyə edilən dəyişiklik də bu problemi aradan qaldırmayıb. O xatırlatdı ki, icrasını gözləyən 140 min işin üçdə biri alimentlə bağlıdır. Q.Paşayeva aliment fondunun yaradılması barədə təşəbbüs qaldırdı, yəni dövlət alimenti verir, amma sonra atadan alır, yaxud işsizləri işə düzəldir.

**Spiker dedi ki, fondları yaratsaq, alimentləri verməyənlərin sayı daha da artacaq:** “Xüsusilə indiki vaxtda fond yaradıb hər şeyi dövlətin üstünə atmaq əlavə problem yarada bilər. Ona görə də ayrı variantlar tapmaq lazımdır”.

**Deputat Leyla Abdullayeva orta məktəblərdə kişi müəllimlərin azlığının ciddi problem olduğunu dedi. O bildirdi ki, bu gün ölkəmizdə orta məktəb müəllimlərinin böyük əksəriyyəti qadın müəllimlərdir:** “Gənc nəslin formalaşmasında kişi nümunəsi önəmlidir. Biz yalnız şagird yox, həm də əsgər yetişdiririk”.

**Fərəc Quliyev Yay Oyunları ərəfəsində Bakıda köhnə avtomobillərin olmasını məqsədəuyğun saymadı:** “İl məhdudiyyəti qoymaqla bu avtomobillərin Bakıya daxil olmasının qarşısını almalıyıq. Yaxud həmin avtomobilləri vətəndaşlardan almaq olar. Bu, həm də paytaxtın ekoloji problemlərinin aradan qaldırılmasın istiqamətində də addım olardı”.

**Flora Qasımova yanvarda 20 Yanvarın, fevralda Xocalı soyqırımının ildönmünü keçirdiyimizi qeyd etdi və konkret addımlara çağırdı:** “Mən də öz doğma evimizə qayıtmaq istəyirəm. Ümidimiz Azərbaycan ordusuna və Ali Baş Komandanadır. Düşmən özünü işğal altındakı ərazilərdə çox arxayın hiss edir. Belə olmasaydı, kəlbəcərliləri Şuşa türməsində saxlamazdılar. Halbuki Şuşa türməsində Sərkisyan, Saakyan saxlanılmalı idi”. Flora xanım şəhid əsgərlərin doğmalarına başsağlığı verdi. Daha sonra şəhid ailələrinin “qanpulu”sunun verilməsini də istədi.

Spiker dedi ki, onlara da müraciət ediblər və bu müraciət hökumətə göndərilib.

**Fazil Mustafa da Milli Məclis rəhbərliyinin bu məsələyə həssaslıqla yanaşdığını və məsələnin həll olunacağına inamını ifadə etdi:** “Bu gün Gənclər günüdür və cəbhədə həlak olan, yaralananlar da gənclərdir. Bu addımı atmalıyıq ki, insanlar döyüşməyə, ölməyə peşman olmasınlar”.

**Azay Quliyev Xocalı soyqırımını törədən Serj Sərkisyanın beynəlxalq səviyyədə hərbi cinayətkar kimi tanınması üçün petisiya elan etdiyini xatırlatdı və hər kəsdən dəstək istədi:** “100 min imza lazımdır. Ümid edirəm ki, qısa zamanda bu imzanı təqdim edəcəyik”. **A.Quliyev Almaniya və Türkiyənin həmsədrliyə gətirilməsi istiqamətində çalışmaların davam etdirilməsini də zəruri saydı:** “ABŞ, Rusiya və Fransa indiyə qədər Ermənistanı dəstəkləyib. Balansı yaratmaq üçün tərkibə yenidən baxılmalıdır”.

**İqbal Ağazadə Gənclər günü olmasını xatırladıb həbsdəki gənclərə diqqət çəkdi və ölkədə amnistiya elan olunmasına çağırış etdi:** “Bir qrup gənclərimiz də var ki, uzun müddətdir həbsxanadadır. Qarşıdan Yay Avropa Oyunları gəlir. Azərbaycan gərək bu proseslərdə elə mövqe sərgiləsin ki, heç yerdən bu proseslərə mane olan heç bir addım atılmasın. Siyasi partiyalarla hakimiyyət arasında dialoq da davam etdirilməlidir. Qarşıdan Novruz bayramı, Cümhuriyyət günü, Avropa Oyunları gəlir. Milli Məclis amnistiya aktı hazırlaya bilər. Bu gün həbsdə olan NİDA-çı gənclər, Tofiq Yaqublu, İlqar Məmmədov, Yadigar Sadıqov, Murad Adilov, Seymur Həzi, Fərəc Kərimli və başqaları da bu siyahıda yer ala, onlar həbsdən azad oluna bilər. Bu, həm ölkədə barış yaradılması, həm də 2015-ci parlament seçkilərinə normal şəraitdə gedilməsini təmin edə bilər”.

**Deputat həbsdəki qadınların sayının da artdığına diqqət çəkdi:** “İstər Xədicə İsmayıl, istər Leyla Yunusun həbsi də ciddi müzakirə mövzusudur, bu məsələyə də yenidən baxıla bilər. Azərbaycan hakimiyyəti tərəfindən amnistiya aktı ilə tənzimlənməlidir. Bu gün hansı pəncərədən baxsaq ordan Azərbaycan görünür. Hətta bəzən günahlara və cəzalara da yumşaq mövqe sərgiləməliyik ki, Azərbaycan yaxşı görünsün”.

**O.Əsədov dedi ki, bu yaxınlarda 100-ə yaxın insan əfv olundu.** “Əfsus ki, bir çox ruhsuz adamlar ruh almaq əvəzinə, Azərbaycanda Avropa Oyunlarının keçirilməsinə qarşı iş aparır”-dedi.



## Azay Quliyev Almaniya və Türkiyənin həmsədrliyə gətirilməsinin zəruriliyindən danışdı

**Sabir Rüstəmxanlı rayonların vəziyyətindən danışdı:** “Təəssüf ki, bir sıra rayonlarda idarələr birləşdirilir, regional idarələr yaradılır. Niyə Yardımlıda bir idarə olmasın, qaz idarəsi Lənkəranda, digəri Masallıda olsun. Beş idarə getsə, hərəsindən 20 nəfər işsiz qalacaq. Bu məsələ yenidən müzakirə olunmalıdır”. **S.Rüstəmxanlı Bakıda Paris evlərinin tikilməsi ilə bağlı iradlarını çatdırdı:** “Niyə orda ağ evlərin üstünə qara kirəmit vururlar, gərək elə ora qara şəhər ola?”

**S.Rüstəmxanlı Gəncədən aldığı müraciət haqda da danışdı:** “Zəng edib deyirlər ki, üç ildir Gəncədə Rəsulzadənin büstünün başına çuval keçiriblər ki, təmir gedir. Rəsulzadə ölkənin qurucularından biridir, onun başına çuval keçirmək cinayətdir. Bu, nə deməkdir, niyə camaat buna reaksiya vermir?”

**Sədaqət Vəliyeva** isə Liviya haqqında çıxarılan qətnaməni 2 saatda icraya yönəldən qüvvələrin Qarabağ məsələsinə biganə qalmasına etiraz etdi.

**Siyavuş Novruzov** Yay Oyunları yaxınlaşdıqca Azərbaycan əleyhinə təbliğatın gücləndiyini dedi. Ancaq bildirdi ki, Azərbaycan haqq yolundadır, heç bir təzyiqdən çəkinməməlidir.

Çingiz Qənizadə bildirdi ki, bu gün minlərlə insan MTK sahibləri tərəfindən torpaq, mənzil almaq adı ilə aldadılıb. Deputat bir mənzilin bir neçə şəxsə satılmasının qarşısını almaq üçün "Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti haqqında" Qanuna dəyişikliklərin edilməsini zəruri saydı. Ç.Qənizadə soyuq silahla bağlı cinayətlərin artdığını nəzərə alıb soyuq silaha görə məsuliyyətin artırılmasını zəruri hesab etdi.

**O.Əsədov Azərbaycan nümayəndə heyətinin AŞ PA-da Rusiyanı müdafiə etməsini də təqdir etdi:** “Azərbaycan torpaqları işğal olunanda o dövlətlər bizi dəstəklədimi? Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyib. Ancaq ikili standartlara qarşıdır. Bir ölkəyə qarşı sanksiya qərarı verilirsə, digərinə qarşı da qəbul olunsun. Biz istəyirik ki, bizim də səsimiz eşidilsin. İstəyirəm hər kəs, o cümlədən jurnalistlər bunu bilsin” .

**Elman Məmmədov da beynəlxalq təşkilatların ikili standartlarından danışdı:** "Fransanın keçmiş prezidenti demişdi ki, Ermənistan Fransanın kiçik bacısıdır. Gərək bir qədər də dəqiq deyərdi. Deyərdi ki, Ermənistan Fransanın əxlaqsız, yolunu azmış bacısıdır".

**Milli Məclisin sədr müavini Bahar Muradova dedi ki, Seçki Məcəlləsinin bütün müddəaları bugünkü Azərbaycan cəmiyyətinin tələblərinə uyğundur və hansısa ciddi dəyişikliyə ehtiyac görmür:** “Xüsusən də burada girov qoymaqla namizədin qeydiyyata alınması məsələsi. Əksinə, bu geriyə doğru addımdır və konyuktur hərəkətlərə yol açır. Yəni arxasında gücü və elektoratı olmayan şəxs bu metoddan istifadə edir və cəmiyyəti düzgün olmayan istiqamətə yönəldir. Odur ki, bu müddəanın dəyişikliyinə heç bir ehtiyac yoxdur”.

**Milli Məclisin iş planının müzakirəsi zamanı çıxış edən deputat Qüdrət Həsənquliyev ölkədə xüsusilə də gənc qızların hesabına genişlənən narkomaniya ilə bağlı tədbirlər görməyə çağırdı. Dedi ki, bu gün həbsxanada yatan məhbusların təqribən 30 faizi narkomanlardır:** “Narkomaniya həm də xəstəlikdir. Həbsxana narkomanların müalicə yeri deyil və xəstələrin həbsxanalara doldurulmasının yeri yoxdur. İndi məktəbliləri, universitet tələbələrini, xüsusilə də qızları narkomanlığa cəlb edirlər”. Deputat onu da vurğuladı ki, oğurluğun, qətllərin sayının artmasının da əsas səbəbi narkotik tələbatdır. Bu mənada, o, böyük bir bəla olan narkomaniyaya qarşı mübarizə aparmaq üçün qanunvericiliyə də yenidən baxılmasını zəruri saydı.

Q.Həsənquliyev Azərbaycanda hazırda fəaliyyətdə olan idman mərc oyunlarının ləğv olunmasını da təklif etdi. Deputat bu oyunların ləğv edilməsini, bunun əvəzində keçmişdə olduğu kimi “super lotto” kimi oyunların keçirilməsini təklif etdi. Spiker də onunla razı olduğunu bildirdi.

**Fərəc Quliyev Milli Məclisin ehtiyat fondunun yaradılmasını təklif etdi:** “Milli Məclis bu məsələdə təvazökarlıq edir, amma hökumət də sui-istifadəyə yol verir”. O, Gürcüstanda yaşayan soydaşlarımızın Azərbaycanda güzəştli qaydada təhsil alması üçün kvotanın ayrılmasını da zəruri hesab etdi.

**İqbal Ağazadə 2015-ci ilin parlament seçkiləri ərəfəsində Seçki Məcəlləsinə mümkün dəyişikliklərin edilməsini təklif etdi:** “Milli Məclis qanunda hökmən dəyişikliklər etməlidir. Ilk növbədə girov qoymaqla qeydə alınma məsələsi bərpa olunmalıdır. Həmçinin seçki komissiyalarının formalaşmasında ədalət prinsipinin gözlənilməsinə nail olunmalıdır. Biz komissiyada təmsil olunuruq, əksər rayonlarda bizə yer verilməyib, adını da qoyurlar ki, bu, səsvermə ilə olub”. İ.Ağazadə 14 saylı cəzaçəkmə müəssisəsində bir vətəndaşın döyülərək öldürülməsi ilə bağlı hər kəsin susduğunu dedi. Ondan sonra həbsxanalardan gələn xəbərlərin daha dəhşətli olduğunu vurğuladı.

**Deputat daha sonra Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun oğlunun ölümündə günahlandırılan Lamiyə Quliyevanın 10 illik cəzasının üstünə daha 5,6 illik cəzanın verilməsini də “dəhşətli addım” adlandırıb:** “Daha dəhşətlisi odur ki, həbsxanada həmin qadına ərizə yazdırırlar ki, öz xoşu ilə uşaq doğduğunu desin. Bu gün onun içəridən videosunu yaydırırlar ki, "öz xoşumla uşaq dünyaya gətirmişəm". Kimin cinayətini pərdələyirlər? Ora dövlətin nəzarətində olan yerdir. Buna görə kim cəzalandırılmalıdır?" **İ.Ağazadə həmin qətldə günahlandırılanların bütün yaxın ətrafına qarşı basqıları sadalayıb:** “Bu, nə qisasçılıq əməliyyatıdır? Yoxsa feodal dövrünə qayıdırıq?”

**Deputat daha sonra deyib ki, hökumətin hesabatına qədər penitensiar sistem bu məsələyə aydınlıq gətirməlidir. İ.Ağazadə xanım deputatlara müraciət edərək, həmin xanımın hüquqlarının müdafiəsi ilə bağlı müvafiq qurumlara təsir etməyə çağırıb:** “Bir məsələ var ki, məhkəmə Azərbaycan vətəndaşının güvənmədiyi, ədalət gözləmədiyi yerdir”.

**Eldar İbrahimov Dövlət Yol Polisi əməkdaşlarının bəziləri haqda iradlarını çatdırdı:** “Hətta məni də saxlayıblar. Milli Məclisin deputatlıq kitabçasını da göstərmişəm. Deyirəm, oxuyun ki, orada nə yazılıb. Mənə deyir ki, ”bu kitabçadan hamıda var da". Deyirəm, a kişi, bu kitabçadan 125 deputatda var. Oxudun başa düşmədin? Bu “dana” üzr istəyirəm hardan gəlib? Bunları işə götürəndə təbliğat işi də aparılmalıdır. Bunlara bir başa salın ki, deputat, prezident, baş nazir kimdir. Hüquq, məhkəmə şurasının üzvlərinin, yəqin heç üzlərini də tanımırlar. Mən arzu edirəm ki, bunlar olmasın".

**İclasın yekununda deputat Vahid Əhmədovun müəllifi olduğu “Reklam haqqında” yeni qanun layihəsinin müzakirəsi keçirilib. V.Əhmədov layihə barədə məlumat verəndən və müzakirələrdən sonra qanun layihəsi ilkin oxunuşda qəbul edilib.**

❑ Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015





# "125-lər" Rəsulzadəni andı

## "Bizim üçün Məhəmməd Əmin Rəsulzadə büt deyil, şəxsiyyət olmaq üçün nümunədir"

**Şənbə günü Ümid Partiyasının mərkəzi qərargahında "125-lər Siyasi Klubu" Azərbaycan milli məfkurəsinin müəllifi, Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin doğum gününü qeyd edib. Tədbiri "125-lər Siyasi Klubu"nun sədri İlhamiyyə Rza aparıb. Tədbirdə Rəsulzadə şəxsiyyətinin xalqımız üçün tarixi əhəmiyyəti, onun ideyalarının sözdə deyil, əməldə də qələbə çalması, demokratik dəyərlər daşıyıcısı olan hüquqi dövlətin qurulması zərurəti istiqamətində çıxışlar olub. Tədbir zamanı klub öz seçki strategiyasını da açıqlayıb.**

Öncə söz Ümid Partiyası sədrinin İctimaiyyətlə Əlaqələr və Xaricdə yaşayan soydaşlarımızla iş üzrə müavini, "125-lər Siyasi Klubu"nun üzvü Rüfət Muradlıya verilib. O, Rəsulzadə şəxsiyyətinin xalqımız üçün tarixi əhəmiyyəti mövzusunda çıxış edərək qeyd edib ki, Məhəmməd Əmin Rəsulzadə 1925-ci ildə İstanbulda çap olunan "İstiqlal məfkurəsi və gənclik" adlı əsərində yazırdı: "Rusiya idarəsindəki müsəlmanlara "Türk" dedirtmək bu gün qazanılmış bir davadır. Yalnız Türk kəlməsi deyil, "Azərbaycan" adı da qazanılmışdır. Bu gun dövlət olaraq da, millət olaraq da varlığımızı ona borcluyuq.

R.Muradlı hakimiyyəti Məhəmməd Əmin Rəsulzadə irsinin əbədiləşdirilməsi ilə bağlı verdiyi qərarda səmimi olmağa səsləyib, tezliklə Bakı Dövlət Universitetinə milli liderin adının qaytarılmasına ümid etdiyini bildirib.

Daha sonra "125-lər Siyasi Klubu"nun sədri **İlhamiyyə Rza** təşkilatın Rəsulzadə ideyalarına sahib çıxaraq, öz fəaliyyətində onlara sadiq qalacaqlarından, ölkənin demokratikləşməsi naminə fəaliyyət göstərəcəklərindən danışıb:

"Təxminən bir ildir ki, təsis olunmuşuq. Bu bir ildə ölkədə baş verən ən əhəmiyyətli məsələlərlə bağlı mövqeyimizi sərgiləmişik, ictimai-siyasi həyatın canlanması üçün öz töhfələrimizi vermişik, siyasətə qatılmaqdan ehtiyat edən, lakin vətəndaş mövqeyinə sahib olan, xalqının, ölkəsinin müqəddəratına biganə olmayan insanların prosesə qoşulmasına zəmin yaratmışıq. Adımızdan da göründüyü kimi, yaxın məqsədimiz parlamentdə təmsil olunmaqla, əsasnaməmizdə də qeyd olunmuş dəyərlərə sadiq qalmaq, ölkənin rifahı naminə nəzərdə tutulmuş işləri həyata keçirməkdir. Odur ki, 2015-ci il bizimçün həlledici dönəmdir. Artıq seçkilərə hazırlıq prosesinə, üzvlərimizin kapasitəsinin artırılmasına başlamaqla bu dönəmə- seçki ilinə start veririk".





Bir ilə yaxındır ki, fəaliyyət göstərən siyasi klubun növbəti mərhələlərdə, 2015-ci il parlament seçkiləri dönəmində nəzərdə tutduğu fəaliyyət barədə çıxış edən klubun idarə heyəti üzvləri artıq seçki dairələrini müəyyənləşdirmiş üzvlərin seçkiyə necə hazırlaşması, bir qurum olaraq seçki üçün gərək olan imkanların artırılması barədə öz fikir və mülahizələrini bölüşüblər.

"Parlamentin yeni nəfəsə ehtiyacı var, seçildiyimiz təqdirdə, bu yeniliyi həyata keçirmək missiyası məhz biz 125-lərin üzərinə düşəcək, əminəm ki, Məhəmməd Əmin Rəsulzadənin adına layiq olacaq bir dövlətçiliyin inkişafına öz töhfəmizi verəcəyik" - deyə klubun sədr müavini Üzeyir Cəfərli qeyd edib.

Çıxış edən sədr müavinlərindən **Günel Səfərova** seçkilər üçün şəbəkələşmənin əhəmiyyətinə diqqət çəkərək, bu istiqamətdə bütün namizədlərin bir-birinə dəstək olmasının vacib olduğunu vurğulayıb: "Biz Azərbaycanda demokratik prosesin aparıcıları olaraq eyni dəyərləri paylaşan insanlariq və şəbəkəmizin iştirakı ilə seçkilərdə uğur qazanacağımıza əminik".

**"125-lər Siyasi Klubu"nun digər sədr müavini Anar Qasımlı bildirdi ki, klubun əsas hədəfi 2015-ci ilin parlament seçkilərində vətəndaşları təşviq etməkdir:** "Passiv seçici yox, passiv namizəd olur. Əminəm ki, aktiv namizədlərlə seçkiyə qatılmaq seçicilərin gələcəyə inamına stimul verəcək".

**Klubun sədr müavini Tamilla Qulami çıxış edərkən bildirdi ki, klubumuzun bugünkü tədbirinin Azərbaycan Cumhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin doğum günü ilə üst-üstə düşməsi təsadüfi deyil:** "Klubumuzun əsas məqsədi məhz parlamentdə Rəsulzadə ideyalarını geniş şəkildə təbliğ etmək, ölkəmizin müstəqilliyini möhkəmləndirmək, demokratikləşməyə şərait yaratmaqdır. Məhz insan haqlarını uca tutduğumuzdandır ki, azad, demokratik seçki istəyirik. Çünki ölkənin demokratikləşməsi üçün seçki ən vacib prosedurlardan biridir".

**Ümid Partiyasının sədri, Millət vəkili, "125-lər Klubu"nun üzvü İqbal Ağazadə tədbirdə iştirak edənlərə, bütün çətinliklərə rəğmən, prosesin getməsi üçün əzmkarlıq göstərənlərə təşəkkür edib və seçkilərlə bağlı öz fikirlərini səsləndirib:** "Nədənsə şikayət etməzdən, narazılıq bildirməzdən öncə, gərək ilk olaraq özün prosesə müdaxilə edəsən, təşəbbüs göstərəsən. Seçki saxtakarlığına şərait yaradan amillərdən ən birincisi ictimai fəallığın kifayət qədər olmamasıdır. Özün seçkidə iştirak etmirsənsə, seçkinin saxtalaşdırıldığından necə gileylənə bilərsən, axı sən özün buna şərait yaratmısan".

**Klubun təsisçilərindən olan Ramin Hacılı çıxışında Məhəmməd Əmin Rəsulzadənin təbliğinə nə üçün ehtiyac olduğuna diqqət çəkib:** "Bizim üçün Məhəmməd Əmin Rəsulzadə büt deyil, şəxsiyyət olmaq üçün nümunədir. Dəyərləri ifadə edən simvoldur. Biz fəxr edirik ki, Məhəmməd Əmin Rəsulzadə ədaləti, demokratiyanı, insan haqlarını öz həyatında yaşadıb. Bizlər də bu nümunəni özümüzə istinad seçərək, Azərbaycanımıza xidmət etmək istəyirik".

**Klubun üzvü Yeganə Hacıyeva qeyd etdi ki, dünyada 6000 xalq, 200 dövlət var:** "İkincilərdən olduğumuz üçün Məhəmməd Əmin Rəsulzadə və onun silahdaşlarına borcluyuq. Tarixi şəxsiyyətlərə abidəni zaman qoyur. Məhəmməd Əmin Rəsulzadənin abidəsi isə qəlblərdədir". **Yeganə Hacıyeva "125-lər Siyasi Klubu"nu seçməsinin əsas məramlarını açıqladı. O söylədi ki, siyasət irəliyə baxmaq və həmçinin mütəmadi olaraq özünə hesabat vermək elmidir:** "Siyasətlə məşğul olduğum zaman ərzində qarşıma qoyduğum məqsədlər və məqsədlərə çatmaq imkanlarımı dəyərləndirdim. Hesab edirəm ki, məqsədlərimə nail olmaq üçün siyasətə baxışımı dəyişmək zamanıdır. Məqsədimiz isə demokratik Azərbaycan, qanunun aliliyi və insan haqlarına hörmətin təmin olunduğu ölkədir. Azərbaycan siyasətindəki imkanları dəyərləndirib, "125-lər Siyasi Klubu"nun hazırkı situasiyada ən uyğun format olduğu qənaətindəyəm və qələbəmizə əminəm!"

## Başsağlığı

**Ümid Partiyası Ali Məclisinin sədri, tanınmış şair Rəfail Tağızadənin ailəsinə ağır itki üz verib.**
**Onun anası Gülarə xanım vəfat edib.**
**Millət vəkili, Ümid Partiyasının sədri İqbal Ağazadə və partiyanın Rəyasət Heyəti Gülarə xanımın vəfatından kədərləndiyini bildirir, Rəfail bəyə və mərhumun yaxınlarına**
**dərin hüznlə başsağlığı verir, səbir diləyir.**
**Allah rəhmət eləsin!**

***

**Ümid Partiyası Yardımlı rayon şöbəsinin sədri Tanrıverdiyev Ramazanın ailəsinə ağır itki üz verib.**
**Onun atası, Ümid Partiyasının üzvü Novruz Tanrıverdi vəfat edib.**
**Millət vəkili, Ümid Partiyasının sədri İqbal Ağazadə və partiyanın Rəyasət Heyəti Novruz bəyin vəfatından kədərləndiyini bildirir, Ramazan bəyə və mərhumun yaxınlarına**
**dərin hüznlə başsağlığı verir, səbir diləyir.**
**Allah rəhmət eləsin!**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015



# Basatı gözləyərkən

Zamin HACI
zaminhaci@gmail.com

**"Gözüm, gözüm yalnız gözüm!
Sən yalnız gözlə mən
Oğuzu sındırmışdım"**

*("Dədə Qorqud" dastanından)*

**Dünən bir xəritəmiz hazırlanıb, bu münasibətlə tədbirdə PA-nın şöbə müdiri Əli Həsənov çox tarixi söz deyibdir: "Bu xəritənin hazırlanması Qarabağ probleminin ədalətli həllinə töhfə verəcəkdir".**

Biz buna heç şübhə eləmirik. 21 ildir yapistlər hakimiyyətdə idilər və niyə bir qarış torpaq ala bilməyiblər? Xəritə yox idi! Məsələ bu qədər sadədir. İndi Qarabağın yolunu-yolağasını tapdıq. 21 il də xəritəni öyrənməyə gedər, inşallah, ona qədər də ya xan ölər, ya xəritə cırılar.

Ümumiyyətlə, xəritələşdirmə, kodlaşdırma kimi işlərə biz ciddi diqqət ayırmalıyıq. Təzəlikcə bu yöndə görkəmli filosof-patoloqoanatom-politoloq-geopolitik-araşdırmaçı-qarışdırmaçı alimimiz Sərdar müəllim Cəlaloğlu *(ən son elmi araşdırmalarından biri Eynşteynin gicbəsər olmasının isbatına həsr edilmişdir-Z.H.)* maraqlı təşəbbüs irəli sürdü. Bəy dövlət başçısına müraciətində yazırdı: "Azərbaycanda milli kodlaşdırmaya ehtiyac var. Biz Nadir şahı, Qacarı, Səttarxanı dünyaya tanıtdırmalıyıq. Bu yöndə dövlət proqramları hazırlasanız qəşəng olardı".

Əlbəttə, Nadir şah Yunus Oğuzun bostanıdır və Sərdar bəy niyə bu mövzuya girir - ilk baxışdan anlaşılmır. Ancaq milli kod vacibdir axı! Biz Səttarxanı dünyaya tanıtdırsaq, nəticədə "20 yanvar" metrosunun üstündə "Sumqayıt! Sumqayıııt! Qabaq yer! İndi çıxırıq!" tipli geopolitik anlaşılmazlıqlar da çözülər. Böyük adamlar belədir. Sərdar Cəlaloğlu Qacarı, Cəmil Həsənli Anarı dünyaya tanıtdırsa, bəlkə bizim heç Əli müəllimin xəritəsinə ehtiyacımız olmaz, ermənilər qaçar gedər, Qarabağ bizə qalar. Sən öl vurmuram, səni istəməyənlər ölsün! Vallah! Billah!

Hələ gör multikulturizm, mollalar və "hamımız naxçıvanlıyıq" məsələləri üzrə dövlət müşaviri Kamal Abdulla neyləyib. Dəhşətdir. Adam birbaşa senzuranı yarıb. Dövlətin yarıtmaz repressiv siyasətini darmadağın edib. Əsl yazıçı istedadı budur, yenə sən ölmə! Axırıncı dəfə Azərbaycanda belə möhtəşəm hadisə Fikrət Qocanın Kürdəmir pambıqçılarının ağır vəziyyətini nəzərdə tutub yazdığı "Vyetnam, balanam sənin!" poemasında olmuşdu. İndiki gənclər, əlbəttə, belə şeyləri qanmazlar. O vaxt sovet senzurasını yarıb şeir, roman qayırmaq, orda əzilən xalqın səsini vermək böyük ustalıq tələb edirdi. Misal üçün, Rəsuz Rza "Sarı dana" şeirinə görə nə qədər təzyiq görmüşdü! Hətta bir il Soçiyə gedə bilməmişdi, azğın bolşeviklər onu putyovkasız qoymuşdu. O cümlədən, çox adamlar bilmir, əslində Anar müəllimin "Beşmərtəbəli evin altıncı mərtəbəsindəki su bakı" romanı (bəli, senzura axırıncı iki sözü kəsib!) sovet "xruşşovkalarında" yaşayan zəhmətkeş insanların dama çıxmaq üçün JEK-dən icazə alması probleminə həsr olunmuşdur.

Nə isə, qayıdaq Kamal müəllimin hərəkətinə. Bugünlərdə Kamal Abdullanın rəhbərliyi altında "Dədə Qorqud" dastanındakı Təpəgözə həsr olunan beynəlxalq iclas olub. Qısa arayış verim ki, "Basatın Təpəgözü öldürməsi boyu" dastanın Avropada ilk dəfə çap edilən boyudur. 1815-ci ildə bunu bir alman alim edibdir. Əlbəttə, Azərbaycan həqiqətlərini dünyaya tanıdan həmin alim Fridrix fon Ditsin adı daim qəlbimizdədir, nə olsun ki, indi AzTV demişkən, Almaniya dağılır? Biz yalnız qara rəngləri görməyək.

Uzun sözün qısası, Kamal müəllim tədbiri "Təpəgöz boyunun aşkara çıxmasının 200 illiyi" adıyla keçirdib. Bax, yazıçı cəsarəti, milli qeyrət, vətən yanğısı da elə burdadır! İzah edim.

Qeyd elədiyim kimi, əslində dastanın 8-ci hissəsi olan o boyun adı "Basatın Təpəgözü öldürməsi"dir. *(Orijinalda "Basat Dəpə gözi öldürdügi boyı bəyan edər, xanım, hey!" adlanır).* Yəni Kamal müəllim istəsə tədbirdə vurğu Basat üzərində də qurula bilərdi. Amma o, Təpəgözü qabağa çəkir! Demək istəyir ki, hazırda ölkəmizdə Təpəgöz bir sistem var, oğuz elini basıb yeyirlər, dörd oğlu olanın iki, üç oğlu olanın iki uşağını cəbhə xəttinə basıb vurdururlar. Yüzlərlə təpəgözlər icra hakimiyyətlərində, məktəblərdə, xəstəxanalarda, hüquq mühafizə sistemində oturub xalqımıza qan uddururlar.

Basat isə yoxdur. Olsa Kamal müəllim tədbirdə onun da adını çəkərdi.

---

## Abbasov və İbrahimbəyov yenidən rusların "Bakı layihəsində"

# "Milyarderlər ittifaqı" siyasi səhnəyə qayıdır

### Moskvanın elitar restoranlarının birində RATİ-nin fəal üzvləri Dağıstan prezidenti Ramazan Abdulatipov, Abbas Abbasov və Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov nədən danışıblar? Mümkündür ki, Kreml kritik parlament seçkiləri ərəfəsi yenidən rəsmi Bakını pressinq altında saxlamağı hədəfləyib

**Azərbaycan baş nazirinin sabiq birinci müavini Abbas Abbasov haqda məlumatlar yenidən ölkə mətbuatının gündəmini zəbt edib. Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyətində ("AzerRos") son yaşananlar, A.Abbasovun keçmiş silahdaşı Söyün Sadıqovla təşkilata nəzarət uğrunda açıq mübarizəsi və Kremlin bu savaşda sabiq baş nazir müavininin tərəfini tutması diqqəti yenidən bu personanın üzərinə yönəldib.**



Bəzi məlumatlara görə, "AzerRos"da baş verən qarşıdurmada rəsmi Bakı da maraqlıdır və bu mübarizədə S.Sadıqovun tərəfindən "vuruşur". İddialara görə, Azərbaycan hakimiyyəti 2012-ci ildə Kremlin xeyir-duası ilə yaradılan Rusiya Azərbaycanlıları Təşkilatları İttifaqını (RATİ) 2015-ci il seçkiləri ərəfəsi tam zəiflətmək istəyir və bu səbəbdən əlverişli situasiyadan yararlanaraq savaşan tərəflərdən birini tutur.

Xatırladaq ki, A.Abbasovun təşkilatdan uzaqlaşdırıldığı 17 yanvar qurultayına Rusiyanın hüquq-mühafizə orqanları ciddi maneə törətmiş, Azərbaycanın Rusiyadakı səfirliyinin müavini isə S.Sadıqovun rəhbərlik etdiyi tədbirdə şəxsən iştirak edərək ona dəstək vermişdi.

***

Bəllidir ki, son prezident seçkiləri zamanı RATİ, xüsusən bu qurumun fəal üzvləri olan A.Abbasov və S.Sadıqov Azərbaycan iqtidarına kifayət qədər başağrısı yaratmışdı. Amma Rusiya prezidenti Vladimir Putinin seçki ərəfəsi Bakıya səfərindən sonra "Milyarderlər ittifaqı" Azərbaycanın fəal siyasi səhnəsindən çəkildi, Kremlin projesi olduğu deyilən Milli Şuranın isə yalnız adı qaldı.

Bəs niyə hakimiyyət seçki ilində yenidən "Milyarderlər ittifaqı"nın fəallaşmasından ehtiyat edir və bu qurumu zəiflətmək üçün hətta nifrət etdiklərini gizlətməyən S.Sadıqovun tərəfini belə tutmağa razılıq verirlər?

"Yeni Müsavat"ın əldə etdiyi xəbərə görə, bugünlərdə Moskvanın elitar restoranlarının birində Azərbaycan hakimiyyətini narahat edə biləcək bir ekip diqqəti cəlb edib. Məlumata görə, Dağıstan prezidenti Ramazan Abdulatipovun başda əyləşdiyi məclisdə Abbas Abbasovla bərabər Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov da olub. Buradaca qeyd edək ki, seçkidən sonra R.İbrahimbəyovla A.Abbasovun münasibətləri soyumuşdu, hər halda, hər iki tərəfin mətbuata açıqlamalarında bu soyuqluq sezilirdi.

Məsələn, A.Abbasovun müsahibələrinin birində R.İbrahimbəyovun Azərbaycan hakimiyyətinə qəzəbli olmasına Bakıda Kino Evinin tikilməsinə razılıq verilməməsi ilə izahı qarşı tərəfi narazı salmışdı. Son olaraq A.Abbasovun "AzerRos"un Ağsaqqallar Şurasından uzaqlaşdırılması barədə xəbərlərə R.İbrahimbəyov etinasız olaraq münasibət bildirmək istəməmişdi.

İndi seçki ilində yenidən "Milyarderlər ittifaqı"nın yenidən təşkilatlanması (həmin məclisdə digər RATİ üzvlərinin iştirak etdiyi də deyilir) maraq doğurur.

Yeri gəlmişkən, 2013-cü ilin yanvarında Putinin Dağıstan prezidenti vəzifəsinə təyin etdiyi RATİ-nin Koordinasiya Şurasının üzvü Ramazan Abdulatipovun Azərbaycan hakimiyyəti ilə münasibətləri hələ də gərgindir. Dağıstan prezidenti olduğu iki il ərzində onun Azərbaycan rəhbərliyi ilə rəsmi təmasının olmaması da deyilənləri təsdiq edir.

***

2013-cü il seçki ərəfəsində A.Abbasovun rəhbərliyi ilə Azərbaycanın siyasi səhnəsinə çıxan "Milyarderlər ittifaqı" ölkədə az qala zəlzələ effekti yaratdı. Hətta bütün proseslərə skeptik yanaşmağa vərdiş edən, "onsuz da xeyri yoxdur, heç nə dəyişməyəcək" kimi pessimist əhval-ruhiyyədə olan Azərbaycan seçicisi də "Milyarderlər ittifaqı"na dəyişikliyin müjdəçisi kimi baxmağa başladı.

Müxalif siyasi düşərgə isə "Milyarderlər ittifaqı"nın üzvü olan R.İbrahimbəyovun rəhbərliyi ilə Milli Şura yaradaraq nəzərlərini Moskvaya dikməyə məcbur oldu.

Sonrası məlum: İbrahimbəyov Bakıya, Milli Şura hakimiyyətə gələ bilmədi, Abbas Abbasov da, "milyonçuları" da kölgəyə çəkildi...

Azərbaycan siyasi səhnəsində hələ ki ciddi fəallıq gözə dəymir. Amma Moskvadakı restoran görüşü barədə xəbərin fonunda iki fakt diqqət çəkir. Birincisi, uzun müddətdir yalnız "kino çəkən", "mən siyasətdə deyildim ki" deyən R.İbrahimbəyovun yenidən mediada fəallaşması və yanvarın 28-də Milli Şura üzvlərinə göndərdiyi müraciətdir. Həmin müraciətdə qeyri-adi fikirlər yoxdur. Amma müxalifətlə "barışığa" çağırılan müraciətdə hədəf yenə Azərbaycan hakimiyyətidir.

İkinci diqqət çəkən məqam isə R.İbrahimbəyovun fəxri sədrlik etdiyi qurumun mart ayında aksiyalara başlayacağı ilə bağlı anonsudur...

Mümkündür ki, sadaladıqlarımız yalnız Moskva görüşü ilə üst-üstə düşən təsadüfdür. Amma o da mümkündür ki, Kreml kritik parlament seçkiləri ərəfəsi yenidən rəsmi Bakını pressinq altında saxlamağı hədəfləyib.

A.Abbasovun "AzerRos"da zədələnmiş reputasiyası Kreml üçün də arzuedilən deyil. Bu səbəbdən də Rusiyadakı nüfuzlu dostlarının ona və həm də R.İbrahimbəyova yeni şans verməsi də mümkündür.

**Baş rolda yenə Abbas Abbasov olarsa...**

❑ Xəbər xidməti

---

# Müxalifətdən Fransa prezidentinə sərt cavab

### Gülağa Aslanlı: "Bir ölkənin prezidentinin digər bir ölkəyə "erməni soyqırımını tanı" deməsi siyasi etikaya uyğun deyil"

**Ermənilərin uydurduğu "erməni soyqırımı"nın "yüz illiyi" yaxınlaşdıqca bəzi dövlətlər tərəfindən Türkiyənin zərərinə mövqelər ortaya qoyulmaqdadır. Ermənilərin ənənəvi müttəfiqi sayılan Fransa yenə öndədir. Ötən həftə Fransa prezidenti Fransua Olland Türkiyə hakimiyyətinə "erməni soyqırımı"nı tanımaq çağırışını etdi.**



Onun bu çağırışının Türkiyə ilə yanaşı Azərbaycanın da maraqlarına zidd olduğu bəllidir. Bu baxımdan gözlənilən idi ki, bu tip məsələlərdə dərhal Türkiyənin yanında olduğunu nümayiş etdirən Azərbaycandan da Ollandın çağırışına cavab veriləcək. Hakimiyyət düşərgəsindən Fransa prezidentinin çağırışına cavab elə həmin günün səhərisi ifadə olundu. Müxalifət düşərgəsi isə məsələyə nədənsə hər hansı şəkildə münasibət bildirmədi.

**Məsələ ilə bağlı Müsavat Partiyasının mövqeyini öyrəndik. Partiyanın Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı dedi ki, Ollandın Türkiyəyə etdiyi məlum çağırışla bağlı partiyada müzakirə aparılmayıb:** "Mənim şəxsi fikrim ondan ibarətdir ki, "erməni soyqırımı" məsələsi tarixçilərin ixtiyarına buraxılmalıdır. Bu məsələdə hansısa bir ölkənin prezidentinin digər bir ölkəyə "erməni soyqırımını tanı" deyə müraciət eləməsi heç də siyasi etikaya uyğun deyil. Türkiyə hökuməti də dəfələrlə bəyanat verib ki, bu məsələ siyasətçilərin yox, tarixçilərin araşdırmalı olduğu məsələdir. Arxivlər açıqdır, tarixçilər gəlib araşdırsınlar və qiymət versinlər".

**Azadlıq Partiyasının sədri Əhməd Oruc isə bildirdi ki, Fransa prezidentindən ermənilərin marağına xidmət edən mövqenin ifadə edilməsi gözlənilməz deyil. Fransa həmişə işğalçı erməniləri müdafiə edib, Fransadakı erməni lobbisinin bu ölkənin siyasi mövqeyinə təsiri var:** "Ollanddan əvvəlki prezidentlər də vaxtaşırı ermənilərin mövqeyini müdafiə edən, Türkiyənin isə əleyhinə olan mövqe ortaya qoyurdular. Fransa əgər ədalətin bərpa olunmasını istəyirsə, soyqırımı həyata keçirənlərin yanında yox, soyqırıma məruz qalmışların yanındadırsa, Xocalı soyqırımını tanısın. Xocalı soyqırımı reallıqdır, yaxın tarixdə baş verib və sübutlar var. "Erməni soyqırımı" isə ermənilərin uydurmasıdır. Əsirlikdə olan 1000-dən çox Xocalı sakini dindirilib. Onlar şahidlik ediblər ki, Serj Sərkisyan onlara necə işgəncələr verib. Sərkisyanın özünün Avropa Şurasında səhra komandiri olması barədə etirafı və Xocalının işğalı haqda verdiyi müsahibə onun cinayətkar kimi mühakiməsi üçün kifayətdir. Olland bu faktlara diqqət yetirsin. Fransa özü Xocalı soyqırımını tanımayınca başqa bir ölkəyə "erməni soyqırımını" tanımaq çağırışını etmək haqqına sahib deyil".

❑ Etibar SEYİDAĞA

# Solçular Yunanıstanı hansı tərəfə aparır?

## Zahid Oruc: "Yunanıstan bundan sonra Rusiya ilə yeni münasibətlər başladacaq"

**Yunanıstanın yeni energetika naziri Panayotis Lafazanis Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən bu ölkənin qazpaylayıcı şəbəkənin operatoru olan DESFA şirkətinin səhmlərinin alınmasına münasibət bildirib. APA-nın "Reuters"ə istinadən verdiyi xəbərə görə, nazir şirkətin heç kimə satılmayacağını bəyan edib. Sitat: "Maraqlı tərəfin kimliyindən asılı olmayaraq, biz DESFA-nı heç kimə satmayacağıq və özəlləşdirilməsinə imkan verməyəcəyik".**

Xatırladaq ki, 2013-cü il iyulun 31-də Yunanıstanın Dövlət Əmlakının İdarə Edilməsi Fondu (Hellenic Republic Asset Development Fund, HRADF) DESFA qazpaylayıcı şirkətinin 66%-lik səhm paketinin ARDNŞ tərəfindən 400 mln. avroya alınmasına dair sövdələşməni təqdir edib. 2013-cü ilin dekabr ayında SOCAR ilə Yunanıstanın Dövlət Özəlləşdirmə Fondu və "Petroleum" şirkəti arasında "Səhmlərin Alğı-satqı Müqaviləsi" və "Səhmdarlar haqqında Müqavilə" imzalanıb. Yanvarın 25-də Yunanıstanda keçirilən seçkilər nəticəsində hakimiyyətə sol qüvvələrin bloku "Siriza" qalib gəlib. Ötən həftə isə 40 yaşlı Aleksis Sirpas baş nazir kimi ölkənin yeni hökumətini formalaşdırıb. Müşahidəçilər Avropa Birliyinin üzvü olan və son bir neçə ildə düşdüyü iqtisadi böhrandan çıxa bilməyən Yunanıstanda solların seçkilərdə qalib gəlməsini ölkənin böhrandan çıxması üçün axtarışlar kimi dəyərləndirir.

**Milli Məclisin deputatı Zahid Oruc deyir ki, "Siriza" blokunun qalib gəlməsi yeni siyasi situasiya yarada bilər:** "Yeni yunanlar açıq şəkildə Avropanın vahid mövqeyini sarsıda, onu əngəlləyə, bəzi hallarda isə tamamilə bloklaya bilər. AB-də qərarların konsensus prinsipi ilə qəbul olunduğunu nəzərə almalıyıq. İkincisi, şübhəsiz ki, həm də bunlar ideoloji yönümünə görə Avropa arealında mövcud olan hərəkatların gələcək perspektivlərinə inam yaradır. Təsadüfi deyildi ki, "Siriza"nın qələbəsindən az keçməsinə baxmayaraq, artıq İspaniyada yüz minlərlə insanlara küçələrə çıxaraq "yunan təcrübəsi"ni tətbiq etməyə çağırış edirlər. Əmin olun ki, bu, Fransada, həmçinin sol hərəkatların geniş yer aldığı Şərqi Avropa ölkələrində özünü büruzə verəcək".


Zahid Oruc

**Bəs indiki böhranlı vəziyyətdə sol hökumət Yunanıstanı xilas edə biləcəkmi? Z.Oruc deyir ki, ənənəvi olaraq yunan solları da Rusiyaya üz tutur:** "Yeni hökumətin Yunanıstanı xilas etməsi mürəkkəb olsa da, hər halda, AB üçün ciddi problem yaradacaq. Düşünürəm ki, solların qalibiyyəti vahid Avropa siyasətinin gələcəyi baxımından təhlükəlidir. Lakin bu hadisələrin bütövlükdə birliyin dağılmasına səbəb olacağını düşünmürəm. O cümlədən, bu hadisələr Rusiya-Qərb konfrontasiyası dövrünə təsadüf edir. Bir çoxları açıq şəkildə bildirirlər ki, kommunist platformasının, qeyri-dindar baxışlar sistemini daşıyan şəxslərin qələbəsi fonunda Rusiya Yunanıstan və bütövlükdə sol qüvvələr vasitəsilə Qərb siyasətinə təsir göstərə bilər. Artıq yeni Yunanıstan hökuməti Rusiyaya müraciət edərək yunan mallarının Rusiyaya daxil olmasına icazə verilməsini xahiş ediblər. Ona görə də düşünürəm ki, qarşıdakı dövrdə biz onun şahidi olacağıq ki, həqiqətən də Yunanıstan AB-nin ən zəif bəndi kimi Almaniya və Fransanın lokomotiv rolunda əsas diktədici qərarların müəyyənləşdirilməsinə qarşı çıxacaq. Bir çoxları isə Yunanıstan vasitəsilə Almaniya və Fransadan istədiklərini almaq üçün yararlanacaqlar. Beləliklə, baxmayaraq ki, Yunanıstanın 320 milyard avrodan yuxarı xarici borcu var və onun 220 milyarda yaxını qısa dövrdə qaytarılmalıdır, artıq yunan hökuməti yeni borclanmalardan xilas olmaq üçün yeni siyasi və iqtisadi cəbhə açıb. Bu, təkcə yunan xalqının inkişafı, özünə hörmət, ideyaların üstünlük təşkil eləməsi, Avrosentrizmin iflasından yox, qeyd etdiyimiz kimi, Avropa Birliyinin beynəlxalq məkanda ABŞ-ın əlində mühüm vasitə kimi istifadəsinin qarşısını ala bilər. Yunanıstan bundan sonra Rusiya ilə yeni münasibətlər başladacaq, Putinin qarşıdakı dövrdə həyata keçirəcəyi səfərləri fonunda siz şahidi olacaqsınız ki, bu təfriqələr genişlənəcək. Və bu, Avropa arealında parçalanmalarda da rol oynayacaq".

**O ki qaldı yeni hökumətin SOCAR-la bağlı 400 milyonluq anlaşmanın ləğv olunmasına, Z.Orucun fikrincə, bu, yeni hökumətin özünün etimadına zərbə vurur:** "Bu, Afina üçün yaxşı hadisə deyil. Ona görə yox ki, biz burda tərəfik və bu müqavilə bizə zərbə vurub. Onsuz da Yunanıstandakı həmin layihədən kənarda Azərbaycan Qərblə enerji partnyoru olmaqda davam edir və bu statusu dəyişən yoxdur. Ancaq hər bir hökumət əvvəlkilərdən aldığı mirası tam olaraq qəbul etməyərək onu təftiş edəcəksə, bu, həmin dövlətin etibarlılığına təsir göstərəcək. Yəni Beynəlxalq Valyuta Fondunun hansısa borc tranşlarından imtina etmək ayrı siyasətdir, amma Azərbaycan kimi ölkələrdə bu cür davranışlar başqa məsələdir. Bir sözlə, Yunanıstanın indiki hakimiyyəti Qərbin gələcək siyasəti üçün sürprizlər vəd edir".

❑ KƏNAN

# "İqtidarın Qərblə anlaşması müxalifətin ziyanına deyil"

## Natiq Miri: "Qərb hakimiyyətlə dil tapmaqda nə qədər maraqlıdırsa, güclü müxalifətin varlığında da bir o qədər maraqlıdır..."


Natiq Miri

**Azərbaycan Qərb ölkələrinin hökumətləri və beynəlxalq təşkilatları ilə münasibətləri qaydaya salır. İ.Əliyevin Avropaya səfərindən sonra bir çox müşahidəçilərə görə, Bakı Avropanın aparıcı dövlətləri ilə münasibətlərdəki soyuqluğu aradan qaldırmağa nail olub. Hazırda bütün incikliklərin və narazılıqların aradan götürüldüyünü iddia etmək çətin olsa da, rəsmi Bakı hər dəfə olduğu kimi, növbəti dəfə təhlükəsizlik və enerji sahəsində əməkdaşlıq mövzusunda Qərblə dil tapa bilir.**

İndi isə gözlər Vaşinqtondadır və bir çox müşahidəçilərə görə, rəsmi Bakı bütün imkanlarını işə salaraq Vaşinqtonla münasibətlərdəki soyuqluğu aradan qaldırmağa çalışır. Bakıdan Vaşinqtona nümayəndələr göndərilib, lobbi qurumları vasitəsilə Amerika hökumətinə Bakı ilə əməkdaşlığa çağırış müraciətləri yayılır. Eyni zamanda görünən odur ki, Vaşinqton özü də Bakı ilə münaqişəni daha da dərinləşdirmək deyil, əməkdaşlığı davam etdirməkdə maraqlıdır.

Bakının Qərblə dil tapması ölkə daxilində siyasi proseslərə də istər-istəməz təsir edəcək. Məsələ biurasındadır ki, məhz ötən bir neçə il ərzində Azərbaycanda söz və mətbuat azadlığı, sərbəst toplaşmaq hüquqlarının bərpa olunması ilə bağlı Qərb ölkələri rəsmi Bakıya təzyiq etməyə çalışıb, ancaq Azərbaycan hakimiyyəti bu iradları qəbul etməyib və Qərbə müqavimət göstərib, eyni zamanda daxildə təzyiq siyasəti daha da sərtləşib. İndi isə belə görünür ki, Qərblə Bakının anlaşması ölkə daxilində siyasi qüvvələr üçün daha çətin və necə deyərlər, yeni bir prosesin başlanğıcı olacaq.

**Mövzunu "Yeni Müsavat"a şərh edən siyasi şərhçi Natiq Miri deyir ki, ilk növbədə müxalif siyasi qüvvələrin daxilində fəaliyyətlə bağlı yenilənmə olmalıdır:** "Hər şeydən öncə müxalifət öz fəaliyyətində müəyyən korrektələr etməlidir. Bu, mübarizə metodları daxil, fəaliyyət prinsiplərində, müxalif qüvvələr və hakimiyyətlə əməkdaşlıq formalarında özünü göstərməlidir. Müxalif partiyalar bir bütün kimi özünü yeni təşkil etməyi bacarmalıdır. Yalnız bundan sonra həm hakimiyyət, həm də demokratiya mərkəzləri müxalifət siyasi qüvvələrinə ciddi yanaşmağa başlayacaq".

**Təhlilçi deyir ki, Qərbin hakimiyyətlə anlaşması nəticəsində ciddi dəyişiklik olmayacaq, əksinə, bu vəziyyətdə də Qərb üçün Azərbaycanda güclü müxalifətin olması uyğundur. Bu səbəbdən də müxalifətin fəaliyyəti dəstəklənəcək:** "Qərbin hakimiyyətlə yenidən isti münasibətlər qurmasından müxalifət heç bir əndişə duymamalıdır. Çünki ümumi vəziyyətdə dəyişən heç nə olmayacaq. Qərb hakimiyyətlə dil tapmaqda nə qədər maraqlıdırsa, iqtidara alternativ ola bilən güclü müxalifətin varlığında da bir o qədər maraqlıdır. Çünki həmişə güclü bir alternativin varlığı Qərb üçün siyasi balans yaratmağa imkan verir. Üstəlik, güclü müxalifətin varlığı Qərbə hakimiyyətə təzyiq üçün əlavə ciddi imkanlar yaradır. Bunun isə effekti xarici faktorlardan daha güclüdür. Bu gün Qərb ona görə hakimiyyətə ciddi təzyiq edə bilmir ki, müxalifət çox zəifdir. Başqa xarici faktorlara dayanan təzyiqlərə isə geosiyasi maraqlar imkan vermir. Ona görə də bunların bir biri tamamlayıcı amil kimi çıxış edirlər. Yəni Qərbin müxalifətə yardımı davam edəcək, bir şərtlə ki, ortada ciddi təşkilatlanma, ciddi fəaliyyət olsun".

❑ KƏNAN

# Rusiya ilə məsafə saxlayaqmı?



Azər RƏŞİDOĞLU

**Rusiya artıq Azərbaycan üçün önəmli ölkəyə çevrilib. Bakı xarici siyasətini Kremllə uzlaşdırmağa başlayıb. Bunu Azərbaycanın yanvarın 28-də Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) plenar iclasında Rusiyanın bu qurumda səsvermə hüququndan məhrum edilməsi ilə bağlı qərarın əleyhinə səs verməsi faktı da sübuta yetirdi. Rəsmi Bakı bu qərarını tarixi adlandırdı.**

Əslində burada təəccübə səbəb olacaq bir nəsnə də yoxdur. Prosesləri Rusiya idarə edir. Əgər belədirsə, o təqdirdə ölkəni daha faciəli perspektiv gözləyə bilər.

Rusiya adi bir səsvermə tərəfkeşliyi ilə qane olana bənzəmir. Kremlə lazım olan rus ordusunun yenidən Azərbaycana qayıtması, enerjidaşıyıcılarında Moskva ilə daha sıx əməkdaşlıq etməsi, siyasi iradəsinin önəmli hissəsini "könüllü" şəkildə "böyük qardaşa" həvalə etməsidir.

Rusiyanın tərəfini tutan, Qərbin strateji tərəfdaşı olan Ukraynaya arxa çevirən Bakının addımları qeyri-ardıcıllığı ilə seçilir. Bir sözlə, ölkədə "şimal küləkləri" indi daha bərk əsir və hər an qasırğa qopması ehtimalı mövcuddur. Qasırğanın hansı fəlakətləri gətirəcəyini isə ehtimal etmək o qədər də çətin deyil. Əminliklə vurğulamaq olar ki, Rusiya öz təhdidlərini bundan sonra da davam etdirəcək. Bu təhdidlər rəsmi Bakını qərbyönümlü siyasi kursdan tam üz çevirməyə vadar etməyə yönələcək.

Kənardan görünən budur ki, hakimiyyətdəki "beşinci kolon" tam hücuma keçib. Artıq onlar hakimiyyəti də rusiyapərəst xətt yeritməyə vadar edirlər. İndiki xəttin qarşısı alınmasa, daha ağır fəsadlar törədə bilər. Ehtimal etmək olar ki, Azərbaycanın gələcəyini düşünən qüvvələr məhz Qərblə inteqrasiya yolunu seçəcəklər.

Ən azı ona görə ki, Rusiya ekspertləri özləri etiraf edir ki, Qərblə mövcud münasibətlər azı iki il davam edəcək. Odur ki, Rusiyanın durumunun ağırlaşacağını ehtimal edə bilərik. Belə bir vəziyyətdə olan Rusiya Azərbaycana hansı yardımı edə bilər? Göründüyü kimi, Qərb Azərbaycanın Rusiyanın yedəyində batmasına bu mərhələdə göz yummaq fikrindədir. Kremlin Bakıya təzyiq mexanizmi tükənmək üzrədir. Rusiyanın bir yolu qalır - Qarabağ müharibəsini yenidən alovlandırmaq. Azərbaycan iqtidarı lokal müharibədə kiçik qələbə, bir neçə rayonun qaytarılmasına nail olarsa, öz rəqiblərinə sarsıdıcı zərbələr vura bilər. Proseslərin təhlili də göstərir ki, Azərbaycan Kreml tərəfindən müharibəyə sövq edilir. Müharibə isə Qərbin maraqlarına cavab vermir. Ən azı enerjidaşıyıcılarının təhlükəsizliyi baxımından Qərb buna razı ola bilməz. Avropa Yay Oyunlarına az bir vaxt qalmış şəraitdə belə bir savaşda Bakı da maraqlı ola bilməz. Lakin Rusiya irimiqyaslı deyil, lokal müharibədə maraqlıdır. Tərəflərə təzyiqini saxlaya bilməkdən ötrü Moskvaya status kvonun saxlanılması daha önəmlidir. Odur ki, irimiqyaslı hərbi əməliyyatlardan söhbət gedə bilməz. Düzdür, rəsmi Bakı bütün cəbhə boyunca müharibəyə başlamağa şirniləndirilə bilər. Bu isə artıq son demək olardı.

Bütün bunlara baxmayaraq, Rusiya ilə münasibətlərin normalaşdırılması vacibdir. Bütövlükdə rusları düşmən obrazında görmək ölkə diplomatiyası üçün naşılıq olardı. "Rusiya amilinə" "ura-patriotik" rakursdan yanaşma imkansızdır. Bu, normal haldır. Lakin daha bir addıma ehtiyac var. Geosiyasi reallıqların dərindən təhlilinə ehtiyac yaranır. Unutmaq olmaz ki, Rusiya Azərbaycanın dostu deyil. Azərbaycanın yeganə strateji müttəfiqi Türkiyədir. Lakin Rusiya ilə əlaqələr qurmamaq, bu amili nəzərə almamaq fəsadlar yaradır. Rusiya ilə məsafə saxlamaq daha məqsədəuyğundur. Bu ölkə ilə münasibətlərdə "bir addım irəli, iki addım geri" modeli daha məqbul variantdır...



# Dövlət içərisində "dövlət" yaradan məmurlar...

## İcra başçıları yerlərdə özlərini "padşah" kimi aparırlar; bu, sonda xalq etirazlarına səbəb olur

**Azərbaycanda icra başçılarının özbaşınalıqları günbəgün artmaqdadır. Hər rayonun icra başçısı öz kiçik "padşahlığı"nı yaradaraq, həmin bölgəyə qanunlarını tətbiq edir. Bu isə sonda xalq etirazlarına səbəb olur.**

Yuxarıda sadaladığımız amillərə sübut olaraq, 2012-ci ilin martında Quba və 2013-cü ilin yanvarında İsmayıllıda baş verən xalq üsyanlarını misal göstərə bilərik. Hər iki etiraz aksiyası bilavasitə icra başçılarının qanunsuzluğu nəticəsində baş vermişdi. Nəticədə cəzalandırılan hadisələrin səbəbkarları yox, xalq oldu... Onlarla etirazçı həbs edildi, işgəncələrə məruz qaldı. Hazırda hər iki üsyanla bağlı həbsxanalarda məhbuslar var.

İcra hakimiyyəti başçılarının qanunsuzluğuna Şəmkirin sabiq icra başçısı Aslan Aslanovun əməllərini də əlavə edə bilərik. Hazırda həbsxanada uşaq dünyaya gətirən Lamiyənin məhbus həyatı yaşamasının da birbaşa baiskarı bu şəxsdir. Məhz onun Şəmkirdə tətbiq etdiyi qanunlar, insanlara verdiyi zülm oğlu Ruslanın harınlaşmasına və sonda öldürülməsinə, Vüqar və Lamiyənin gənclik həyatlarının məhv olmasına səbəb olmuşdu. Oğlunun öldürülməsindən sonra Aslan Aslanovun törətdiyi əməllər sözün əsl mənasında insanlığın sonu demək idi. Oğlunu namussuzluğa görə qətlə yetirdiyi deyilən Lamiyə və hadisədə iştirakı iddia olunan nişanlısı Vüqarın ailəsinə verilən zülm, onların valideynlərinin həbsə atılması, Aslan Aslanovun mərhum oğlunu suçsuz çıxarmaq üçün məhkəmədəki əməlləri çoxlarımızın yadındadır. Vüqara ömürlük həbs verdirməsi, 10 il həbs cəzası verilən Lamiyənin işini uzatdırması, açıq şəkildə "mən həyatda yaşadığım sürəcdə onlar həbsxanada çürüyəcəklər" kimi sözləri bunlara sübutdur. Hətta deyilənlərə görə, oğlunun ölüm günü övladına toy etdiyi üçün sabiq icra başçısı Şəmkir ağsaqqalını həbsə atdırıb. Şəmkirin kəndlərindən birinə atası Yaqubun adını verməsi Aslan Aslanovun rayonu orta əsrlərə aparması demək idi. Bütün bunlar xırda bir məmurun kiçik əməlləri idi. A.Aslanov etdiyi cinayətlərə görə nəinki həbs edilmədi, hətta nazir müavini təyin olunmuşdu.

Göründüyü kimi, rayonlarda icra başçılarının zülmü ərşə dayanıb. Bölgələrin bəzi nazirlərin nəzarətinə verilməsi də bu problemlərin baş verməsinə səbəb olan amillərdəndir.

**Politoloq Natiq Miri hesab edir ki, rayonlarda "kiçik padşahlıqlar"ın yaradılması təhlükəli tendensiyadır:** "Azərbaycanda idarəetmə sahəsində ciddi qüsurlar var. Zaman -zaman etika sisteminin formalaşması istiqamətində biz töv-siyələr vermişik. Ölkəmizdə bu sahədə islahatlar aparılmalıdır. Təəssüf ki, hələ də köhnə idarəetmə sistemi qalır. Nazirlərin arasında müxtəlif maraqlara xidmət edən güc mərkəzləri var. Onların adamları icra başçıları təyin olunurlar. Yerlərdə güc mərkəzlərinin maraqlarını ifadə edirlər".

**Natiq Miri qanunsuzluqların qarşısının alınması yollarından da danışdı:** "İdarəetmədə yeni islahatlar aparıldığı, konkret sərhədlər müəyyənləşdirildiyi təqdirdə düşünürəm ki, heç bir özbaşınalıq ola bilməz. İcra başçıları bilsələr ki, etdiklərinə görə cəzalanacaqlar, onda onlar hüquq çərçivəsində davranmaq məcburiyyətində qalacaqlar. Amma bu gün cəzasızlıq sindromu var. Qanunlar əsasən, cəmiyyət və xalq üçün tətbiq edilir. Eyni qanunlar hakim dairələrdə olanlara şamil olunmur. Hər bir icra başçısı özünü "kiçik prezident" kimi aparır. Bunun üçün nəzarət sistemi olmalıdır. Dəyərlərə hörmət edənlər bu vəzifəyə təyin olunmalıdırlar. İcra başçıları qubernatorluq sistemində qubernatorların maraqlarını ifadə edirlər. Əsas qüsurlardan biri də budur. Xalq bundan narazı olur. Bu sistemin tətbiqinə nə ehtiyac var? Təəssüf ki, bu sistem Azərbaycanda hökmrandır. Bunların qarşısını almaq üçün görülən tədbirlər heç bir təhlükə törətməz. Əgər islahatlar başlasa, hər şey asanlıqla yerinə yetiriləcək".

❑ Cavanşir ABBASLI



# "Lamiyə Quliyeva işi"ndə şok gəlişmə

## Onun uşağının atasını tanıyanlar danışdı; **Üzeyir Məmmədli:** "İki ümidsiz insan bir-biri ilə görüşüb, çarəni bir-birində tapdılar, o oğlanı tanıyıram" **Vəkil Adəm Məmmədov:** "O adam vaxtilə Lamiyənin üzünə durmuşdu, münasibətləri qisasçılıqdan ülvi hisslərə keçdi"

**Şəmkirin keçmiş icra başçısı Aslan Aslanovun oğlu Ruslan Aslanovun qətlində təqsirləndirilən və türmədə ana olan Lamiyə Quliyeva olayı get-gedə böyüyür. Parlamentin 2 fevral tarixli sessiyasında da sözügedən mövzu geniş müzakirələrə səbəb olub və bu barədə geniş məqalə ilə qəzetimizdə tanış ola bilərsiz.**

Amma "Yeni Müsavat" qəzeti L.Quliyevanın uşağının atası, bu hadisənin yaşanması ilə bağlı beyinlərdə yaranan suallara aydınlıq gətirməyə çalışıb. Öncə mövzu ilə bağlı köşə yazısı ilə çıxış edən NİDA üzvü, bu yaxınlarda azadlığa çıxmış Üzeyir Məmmədlinin yazdıqlarına diqqət edək. NİDA-çı gənc "Əl çəkin Lamiyədən" başlıqlı köşə yazısında bu hadisə barədə danışıb. Yazıdakı bəzi detallara diqqət edək: "Burda gəlin bir şeyə aydınlıq gətirək ki, sonuncu hadisədə Lamiyəyə qarşı heç bir zorakılıq olmayıb. Məhbəsdə olarkən bunu bilirdim. Lamiyə özü də son açıqlamasında ona qarşı zorakılıq olmadığını və hər şeyin öz razılığı ilə olduğunu bildirir. Bu, təbii ki, Lamiyəni bu günə salanların günahlarını azaltmır. Amma sonuncu uşaq hadisəsinə, mən hamının baxdığı kimi, pis bir şey kimi baxmıram. Lamiyəni həbsdə olarkən, cox qısa da olsa, bir neçə dəfə görmüşəm. Onun öz davranışları və ona qarşı olan davranışları müşahidə eləmişəm. Təbii ki, 15 yaşından məhbəsdə keçən həyat onda öz dərin izlərini buraxıb. Bu izləri silmək çətin olacaq. Amma Lamiyənin uşağı onun üçün bəlkə də son şansdır. Onu təkrar həyata bağlayacaq və onun bu dəhşətli taleyində bir umid işığı olacaq son şans. Lamiyə öz açıqlamasında da təxminən bunu deyir: "Mən ömrümün sonuna kimi həbslərdə çürüyəcəyimi anlayaraq, depressiyaya düşdüm və bu addımı atdım. Bu addım ümidsizlikdən yaranan bir addım idi". Lamiyə indi bəlkə də öz uşağı ilə xoşbəxt günlərini keçirir. Lamiyə üzərindən xal qazanmaq istəyənlərə sözüm budur ki, imkan verin Lamiyə öz həyatını yaşasın. Siz onsuz da bu səs-küyünüzlə ona heç bir kömək edə bilməyəcəksiniz, bəlkə də daha çox ziyan vuracaqsınız. Əl çəkin Lamiyədən! O öz payına düşənləri artıqlaması ilə yaşayıb. Yeni obyektlər tapın özünüzə!"

**"Yeni Müsavat"a açıqlamasında Ü.Məmmədli bildirdi ki, təcridxana ərazisində L.Quliyevanın hansısa bir kişi ilə görüşməsi mümkün deyil:** "Hər tərəfdə kamera var. O təcridxanada 2013-cü il aprelin 10-dan elə hadisə olmayıb. Ondan əvvəl elə hadisələr olub".

**Müsahibimiz dedi ki, L.Quliyevanın uşağının atasının kim olması türmədə bəlli idi. "Mən bilirəm ki, söhbət kimdən gedir, həmin kişi məhbusun da adını dəqiq bilirəm" deyən Ü.Məmmədli bunu açıqlamağın doğru olmadığını vurğuladı:** "Türmədə dəqiq bilinirdi ki, uşağın atası kimdir. Hətta onu sonuncu apelyasiyasında görmüşəm. Onların görüş detalları açıqlanmır. Fərziyyə etmək olar. Amma əsas odur ki, bu görüş təcridxana ərazisində olmayıb. Lamiyənin açıqlamaları əsasdır. Orda detalları açıqlamır".

**Ü.Məmmədlinin sözlərinə görə, sözügedən məhbus qatı cinayətkar deyil və yaxın illərdə azadlığa çıxma ehtimalı var:** "Nə qədər iş alıb, onu bilmirəm. Müəyyən çevrələrdə bu hekayə yayılmışdı. İki ümidsiz insan bir-biriilə görüşüb, çarəni bir-birində tapırlar. Sonradan davam edəcəkmi, bilinməz. Orda belə hekayələr var".



Adəm Məmmədov



Üzeyir Məmmədli

**Amma mövzu ilə bağlı L.Quliyevanın keçmiş nişanlısı, hazırda ömürlük həbsdə olan Vüqar Əliyevin vəkili Adəm Məmmədov daha ilginc məlumatlar verdi. A.Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, V.Əliyev L.Quliyevanın uşağının atası ilə bağlı bütün həqiqəti bilir:** "Mən onunla bunla bağlı söhbət etmişəm. O, tam həqiqəti bilir. Çox həssas məsələ var. Vüqar Əliyev hekayənin bütün detallarını bilir. Orada elə bir məqam yaranıb ki, Vüqar da hekayəni bilmək zorunda qalıb. Əvvəlcədən hər şey qisasçılıq zəminində başlayıb. Kökü bundandır. Sonradan bu qisasçılıq ülvi hisslərə çevrilib. Lamiyənin uşağının atası qətl işində Lamiyə əleyhinə, Aslan Aslanovun xeyrinə ifadə verib. O adam cinayət işinin motivinin dəyişdirilməsi, cinayət hadisəsinin yaranma səbəbini pərdələmək üçün ifadə verib".

**Müsahibimiz dedi ki, azadlıqda olan bu şəxsin içəri girib, L.Quliyeva ilə necə münasibətdə olmasına Penitensiar Xidmət rəhbərliyi cavabdehlik daşıyır:** "Mən yenə də deyirəm, onların münasibətində həm qisas, həm ülvi hisslər var. Çünki o adam bir dəfə Aslan Aslanovun sifarişini yerinə yetirib. Amma onun hansısa məhkumla münasibətinin olması qeyri-mümkündür, real deyil. Bu, yalan ssenaridir. Vüqarın dediyi daha realdır. Məhkum olunan şəxs çöldə olanlardan daha məlumatlıdır".

**A.Məmmədov onu da dedi ki, V.Əliyevlə L.Quliyevanın bütün münasibətləri 2003-cü ildə yekunlaşıb. Onun sözlərinə görə, L.Quliyeva elə münasibətlərinin yekunlaşmasının aqressiyası ilə bu qətli törədib:** "Vüqar da görür ki, atasının, anasının, xalasının həbs olunması, ailəsinin başına bu işlərin gəlməsinə Lamiyənin törətdiyi hadisə səbəbdir. Onun türmədə olanda da Lamiyə ilə hər hansı kontaktı, məktublaşması olmayıb. Özü də ailə qurub qohumlarından biri ilə. Vüqar cinayətkar deyil, cinayət aləmi ilə əlaqəsi yoxdur. Aslan Aslanov özü də bilir ki, oğlunu Vüqar öldürməyib".

**Vəkil həmçinin dedi ki, V.Əliyevin əfv olunması mümkündür:** "Prezidentə əfv üçün müraciət hazırlayıram. Bu, prezidentin səlahiyyətinə aid olan məsələdir. Ümid edirəm ki, ölkə başçısı ədaləti bərpa edəcək. Eyni zamanda yeni açılmış hal kimi Azərbaycan Respublikasının Ali Məhkəməsinin Plenumuna müraciət edəcəyəm".

**Müsahibimiz xatırlatdı ki, V.Əliyevə CM-in 177.2.1 maddəsi ilə ittiham irəli sürülüb. Onun sözlərinə görə, mərhumun üstündə olan telefonu ayaqyoluna tullayan şəxs L.Quliyeva olub. A.Məmmədov Lamiyənin cinayəti etiraf etdiyini də xatırladıb, bu maddənin V.Əliyevin üzərindən götürülməsinin vacibliyini vurğuladı:** "İstintaqçılar belə nəticəyə gəlmişlər ki, guya bu cinayət hadisəsi Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Aslan Aslanovun öz xidməti vəzifəsini təəsirləndirilən şəxsin və ya ailə üzvlərinin (torpaq mübahisəsi) maraqlarına zidd şəkildə icra etməsi səbəbi ilə baş vermişdir. Bu səbəbdən də, Əliyev Vüqar İbrahim oğluna AR CM-in 120.2.3-cü maddəsi ilə də ittiham verilmişdir.

Belə ki, AR Cinayət Məcəlləsinin 120.2.3-cü maddəsinə əsasən, zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürməni nəzərdə tutur. Aslan Aslanovun oğluna rəhmət və ailəsinə səbr diləyirik. Lakin bütün bunlara baxmayaraq, Aslan Aslanov məhkum Əliyev Vüqar İbrahim oğlunun ömürlük azadlıqdan məhrum edilməsinə öz qulluq mövqeyindən istifadə edərək hüquq-mühafizə orqanlarına təsiri ilə nail olmuşdur. Qəsdən adam öldürmə işləri üzrə bir nəfərin öldürülməsinə görə məhkəmə təcrübəsində ömürlük azadlıqdan məhrum etmə cəzasının verilməsinin statistik göstəricilərdə faiz dərəcəsi sıfra bərabərdir. Əliyev Vüqar İbrahim oğlunun həqiqətdə Aslan Aslanovun oğlunu öldürmədiyi məlumdur. Əgər bu işdə iştirak etsə belə, əvvəllər məhkum olunmamış və bir nəfərin ölümü ilə nəticələnən cinayət hadisəsinə görə ömürlükdən azadlıqdan məhrum edilməsi məntiqə və məqsədə uyğun deyildir".

Xatırladaq ki, Əliyev Vüqar İbrahim oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.2.1, 120.2.3, 120.2.4, 152, 170.3, 177.2.1, 228.4-cü maddələri ilə təqsirli bilinib Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin 22 dekabr 2003-cü il tarixli hökmü ilə ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilib.

Qeyd edək ki, Şəmkirin eks-icra başçısı, sonralar isə kənd təsərrüfatı nazirinin müavini olmuş Aslan Aslanovun oğlunun qətlində iki nəfər təqsirləndirilərək həbs olunub. Bunlar yuxarıda adları qeyd olunan Vüqar Əliyev və son günlər mətbuatın gündəmindən düşməyən Lamiyə Quliyevadır.

❑ Sevinc TELMANQIZI

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015

**2015-ci ilin ilk ayı da Qarabağ nizamlanmasında hər hansı irəliləyişə gətirmədi. Əksinə, ötən ay təmas xəttində gərginliyin bir az da artması ilə yadda qaldı. Diqqət çəkən həm də odur ki, bütövlükdə prezidentlərin 27 oktyabr Paris görüşündən sonra münaqişə tərəfləri arasında xarici işlər nazirləri səviyyəsində belə hər hansı kontakt baş verməyib.**




# Uğursuz Minsk Qrupunun gələcəyinə dair iki mövqe

## Analitiklərə görə, qurum Qarabağ vasitəçiliyində öz potensialını çoxdan tükədib, onun effektli olması üçün ya format dəyişməli və həmsədrliyə Türkiyə ilə Almaniya gətirilməlidir, ya da o, ləğv edilməlidir; keçmiş həmsədr: "ABŞ-ın təşəbbüsü ələ alması zamanıdır..."

Bu, o deməkdir ki, sülh prosesində dalan mərhələsi davam edir. Belə vəziyyətə görə, təbii ki, ilk növbədə ATƏT-in Minsk Qrupu (MQ), ələlxüsus da onun həmsədrləri sorumludur. Əksər praqmatik analitiklərə görə, MQ artıq öz potensialını tükədib və ondan problemin həllinə real töhfə gözləmək əbəsdir.

Gerçəkdən də əgər məntiqlə Rusiya ilə Qərb arasında münasibətlərin normal olduğu zamanlarda üç həmsədr dövlət ixtilafın həlli üçün optimal variant tapıb tərəfləri, ilk növbədə də işğalçı Ermənistanı buna vadar etməyibsə, Qərb-Rusiya "soyuq savaş"ının başladığı dönəmdə bunu baş verəcəyi əsla real görünmür. Bəzi təhlilçilər isə çıxış yollarından biri kimi həmsədrlik institutunda dəyişiklik edilməsində görürlər.

*****

"Dağlıq Qarabağ problemi ATƏT-in Minsk Qrupunun indiyə qədərki yarıtmaz fəaliyyəti üzündən heç bir şəkildə nəticə verməyib. Niyə nəticə verməmdi? Çünki bir tərəfdə Rusiya, bir tərəfdə Fransa, o biri tərəfdə də ABŞ var. Bu üç dövlətin üçündə də güclü erməni diasporu mövcuddur. Hər üç ölkə ermənilərin təsiri altında olduğundan, onlar heç bir şəkildə bu problemi həll etməyə çalışmadılar".

**Bu fikir Türkiyə Böyük Millət Məclisinin üzvü Sinan Oğana** məxsusdur ("Trend""). S.Oğan hesab edir ki, indiki mərhələdə problemi həll etmək lazımdır, bunun üçünsə güclü beynəlxalq təşkilata ehtiyac var: "Minsk Qrupu təəssüf ki, nüfuzunu tamam itirib. Bu təşkilatın yenidən nüfuzlu olması üçün "5-lik Sədrlər Şurası" ideal bir formatdır. Niyə idealdır? Bir tərəfdən Avrasiya coğrafiyasının lideri Türkiyə, o biri tərəfdə Avropa coğrafiyasının lideri olan Almaniya var. Bu iki ölkə bu qrupda yer alsa, tarazlıq yaranacaq və Minsk Qrupu, ümumiyyətlə, ATƏT-in bu yöndə problemi həll etməkdə göstərəcəyi təşəbbüs olacaq".

**Onun sözlərinə görə, Türkiyənin MQ həmsədrliyində olması "Olmazsa olmaz" prinsipidir. Bu, Avropanın iqtisadi lideri olan Almaniyanın burada olmasına da aiddir:** "Almaniya və Türkiyə də bu işə böyük həvəslə qatılmaq istəyəcəklər. Bu, Azərbaycan və Türkiyə adına vacib, düşünülmüş, hesablanmış, önəmli bir strateji addım olacaq. Çünki biz bu məsələni, sadəcə, Azərbaycanın problemi olaraq yox, həm də Türkiyənin problemi olaraq görürük. Bilirsiniz ki, Almaniyada güclü türk diasporu var. Almaniya iqtisadi cəhətdən çox güclüdür, amma siyasət olaraq təəssüf ki, bu tip qurumlarda ön plana çıxmayıb. Bu, Almaniyanı da Azərbaycanın yanına çəkəcək, Almaniyanı da bu məsələdə ön plana çıxaracaq".

**Deputata görə, Türkiyə öz imkanları ilə bu mövzunun üzərində çalışmalıdır:** "Almaniya tərəfdən də bu məsələnin işlənməsinə çalışmalıyıq. Azərbaycanın da geniş diplomatik missiyaları var. Türkiyə ilə Azərbaycan birgə bu mövzunu beynəlxalq səviyyəyə çıxarmalıdır. Azərbaycanın Türkiyə ilə deyil, Almaniya ilə də çox gözəl münasibətləri var. Azərbaycanın Rusiya ilə də xüsusi münasibətləri var. ABŞ və Fransa ilə əlaqələri də var. Hər iki ölkə öz imkanlarını dövriyyəyə salaraq bu yeni formatı beynəlxalq arenaya çıxarmalıdır. Çünki artıq dəqiq şəkildə bəllidir ki, mövcud fəaliyyəti ilə Minsk Qrupu Dağlıq Qarabağ problemini həll etmək iqtidarında deyil. Bu yeni format daha balanslı, daha tarazlaşdırılmış bir quruluşla problemi həll edəcək. Təkcə bu problemi deyil, bölgədəki bir çox digər münaqişələri də - Ukrayna, Krım - həll edəcək".

Qeyd edək ki, ATƏT PA-da Siyasi məsələlər və təhlükəsizlik komitəsi sədrinin müavini, deputat Azay Quliyev mediaya ATƏT PA-nın gələn ay Vyanada keçiriləcək qış sessiyasında həm Almaniyanın, həm də Türkiyənin Dağlıq Qarabağ münaqişəsinin Minsk prosesinə yaxından cəlb edilməsi və hazırda 3 ölkədən ibarət həmsədrlik institutunun dəyişdirilərək "5-lik Sədrlər Şurası" ilə əvəz olunması haqqında məsələ qaldırmağı planlaşdırdığını açıqlayıb.

*****

Lakin məsələyə fərqli rakurslardan yanaşanlar da var.

"ABŞ Güney Qafqaza olduqca az diqqət ayırır. Diqqət nəinki azdır, o, demək olar, yoxdur". Musavat.om-un məlumatına görə, bu barədə Amerikanın Azərbaycandakı sabiq səfiri, Minsk Qrupundakı amerikalı eks-həmsədr Metyu Brayza "Vestnik Kavkaza"ya müsahibəsində bildirib.

"Regionda üç ölkə var və onlardan ən aktivi, əlbəttə ki, Azərbaycandır - söhbət iqtisadiyyatdan, əhali sayından və



strateji quruculuqdan gedir" deyən Brayzanın sözlərinə görə, Birləşmiş Ştatlar Qarabağ məsələsi ilə kifayət qədər maraqlanmır. O, irəliləyiş əldə olunması üçün Vaşingtonu Bakı və İrəvana kömək eləməyə çağırıb. **Sitat:** "ABŞ prezidenti vaxtaşırı və birbaşa İlham Əliyev və Serj Sərkisyanla görüşməlidir - necə ki, bunu prezident olarkən Dmitri Medvedyev edirdi. Bu zaman prezident Obama açıq şəkildə göstərməlidir ki, bu münaqişə ABŞ-dan ötrü mühüm əhəmiyyətdədir".

**Yeni keçmiş həmsədr bununla faktiki surətdə Qarabağ məsələsində Amerikanın təşəbbüsü bütünlüklə öz öhdəsinə götürməsini təklif edir. Məntiqlidir ki, bu xüsusda o, MQ-nin formatının dəyişdirilməsini və həmsədrliyə Türkiyə və Almaniyanın gətirilməsini real hesab eləmir:** "Ermənistan heç vaxt Türkiyəni Dağlıq Qarabağ ixtilafının həllində vasitəçi kimi qəbul etməyəcək. Bu, yalnız türk-erməni münasibətlərinin normallaşacağı halda mümkündür ki, ona da Azərbaycan razı olmayacaq. Bakı imkan verməz ki, Ankara Ermənistanla sərhədləri açsın. Bundan əlavə, Ermənistan dünyada heç bir ölkədən Türkiyədən qorxduğu qədər qorxmur".

**Sabiq diplomatın qənaətincə, Almaniya da münaqişənin həlli prosesinə əhəmiyyətli töhfə vermək qabiliyyətində deyil:** "Avropa Birliyi bu kontekstdə daha effektli ola bilər, nəinki Almaniya, çünki təşkilat ABŞ və Rusiyanın tərəfdaşıdır".

**Keçmiş həmsədr bir az da irəli gedərək, qat-qat effektli variant kimi nizamlama prosesindən Minsk Qrupunu kənarlaşdırıb Azərbaycan və Ermənistan prezidentlərinə vasitəçilərsiz-filansız birbaşa danışmaq imkanı yaratmağı təklif edir:** "Daha vasitəçilərə ehtiyac yoxdur və tərəflər birbaşa görüşlərin təşkili üçün xüsusi nümayəndələr təyin edə bilərlər. Hər halda, münaqişələrin həllinə səy etməyən Rusiyanın Minsk Qrupuna daxil olması məntiqli görünmür. Əsas odur ki, Azərbaycan və Ermənistan prezidentləri birbaşa danışsınlar. Bu gün beynəlxalq vasitəçiləri ittiham eləmək çox asandır, ancaq onlar heç nəyi həll eləmir, yalnız həll yolları təklif edirlər".

# Ermənistan ordusunda kütləvi istefa

## Cəbhədəki itkilərdən şoka düşən işğalçı rejim təcili addımlar atmaq zorunda qalıb...


Serj Sarkisyan

**Ermənistanın son günlər cəbhədə verdiyi ağır itkilər ordu rəhbərliyində kütləvi istefalarla nəticələnib. Məlumatlara görə, Ermənistan Hərbi İnstitutunun rəhbəri, general-leytenant Martin Karapetyanın postundan istefa verdiyi deyilir.**

Erməni KİV-lər istefanın Ali Hərbi Məktəbin kursantı Aykaz Barseqyanın əvvəlcə döyülərək öldürülməsi, sonradan isə asılması ilə bağlı olduğunu yazsa da, əslində bu addımın ordudakı son itkilərlə bağlı olduğunu qeyd edənlər də az deyil. Ermənistanın işğalçı rejimi cəbhədə itkilərdən şoka düşərək təcili addım atmağa məcbur olub. Ermənistanın zabit hazırlayan ali məktəbinin rəhbərliyini dəyişməklə Serj Sarkisyan erməni zabitlərinin peşəkarlığını artıracağını güman edir. Bu addım kursantın intiharı ilə əlaqələndirilməyə çalışılsa da, Ermənistanda əslində məsələnin başqa olduğunu dərk edənlər kifayət qədərdir.

Diqqətçəkicidir ki, istefaya gedən təkcə general-leytenant Martin Karapetyan deyil. Ali Hərbi Məktəbin bütün rəhbər heyəti bir nəfər kimi Ohanyan tərəfindən vəzifədən uzaqlaşdırılıb.

Onu da qeyd edək ki, axır zamanlar erməni tərəfi cəbhədə ağır itki verməkdədir. Sonuncu dəfə Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığı və görülən qabaqlayıcı tədbirlər nəticəsində təxribat törətmək məqsədilə minalanmış sahədən keçid açmağa cəhd göstərən düşmənin 6 nəfərdən ibarət hərbi qulluqçusu məhv edilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015

# Azərbaycan dövlətinin ayırdığı fantastik vəsait “yoxa” çıxıb

**Bu ilin sentyabr-oktyabr aylarında qədim Azərbaycan şəhəri olan Dərbəndin 2 min illiyi qeyd olunacaq. Bugünlərdə Dərbənd Bələdiyyə Şurasının sədri postuna təyin olunan Məhəmməd Xəlil oğlu Cəlilovla yubiley hazırlıqları və digər məsələlər haqda söhbətləşmişik.**



# Bakıdan Dərbəndə göndərilən 30 milyonu kimlər yeyib?

## Dərbəndin yeni başçısı Məhəmməd Cəlilov bu haqda “Yeni Müsavat”a şok açıqlamalar verib; “Həmin pul Dərbəndin abadlaşdırılması və digər işlərin görülməsi üçün nəzərdə tutulmuşdu, amma lazımsız adama verilib, indi də o vəsait ortada yoxdu”

*Fevralın 1-də ad gününü qeyd edən yeni sədr problemlərin çoxluğundan danışır:*

- Hazırda ölkəmiz maliyyə problemləri yaşayır. Dağıstanın bir parçası olan Dərbənd də Rusiya Federasiyasının tərkibində olaraq bu problemlə üzləşib. Bu problemə qədər də Dərbəndin büdcə xərcləri gəlirlərini üstələyib. Bizim qarşımızda duran əsas məsələ bu istiqamətdə dönüş yaratmaqdır. Büdcəyə daxilolmalar çox aşağı səviyyədədir. Dərbəndin 41 yaşayış məntəqəsi var. Hər birində yollar bərbad vəziyyətdədir. Sanitar durum da xoşagələn deyil. Zibil vaxtında yığılmır, su sistemi da dağınıqdır. Rayon administrasiyasının istifadəsində olan torpaqlarla bağlı vəziyyət qarışıqdır. Torpaqların kadastr qeydiyyatı aparılmalıdır. Torpaqlar qanunauyğun şəkildə auksiona çıxarılmalı və kim istəyirsə gedib almalıdır. Bu, rayonun büdcəsinə maliyyə daxilolmalarının təmin edilməsi üçün atılmalı addımlardır.

***- Dərbəndin yubileyi ilə bağlı hazırlıqlar gedir?***

- Bəli, planlar var və gerçəkləşdirəcəyik. Dərbəndə turistlərin cəlb olunması üçün müvafiq işlər görüləcək. Rayonda çoxlu turist bazaları var. Amma həmin bazalar köhnəlib və bu günün tələblərinə cavab vermir. Həmin bazaların inkişaf etdirilməsi nəzərdə tutulub. Turistlərin Dərbəndə gəlib gəzib istirahəti üçün müvafiq şərait yaradılacaq.

Dərbənd əhalisinin əksəriyyəti azərbaycanlılardır.

***- Belə məlumatlar yayılırdı ki, Dağıstanda yaranmış yeni situasiyada həmyerlilərimizin vəziyyəti ağırlaşır. Bu həqiqətdirmi?***

- Azərbaycanlılar Dərbənddə yaşayan ən qədim toplum, xalqdır. Burada 80 faiz azərbaycanlı yaşayır və müvafiq olaraq rəhbər vəzifələrə də 70-80 faiz azərbaycanlılar təyin olunur. Məndən əvvəl də bu vəzifəni azərbaycanlı tutub, bu gün də rayonun rəhbəri azərbaycanlıdır. Hakimiyyət uğrunda mübarizə aparanlar belə xoşagəlməz məsələləri qaldırırlar. Burada prospektlərdən birinə Heydər Əliyevin adını veriblər. Azərbaycan dövləti tərəfindən həmin prospektin yenidən qurulmasına pul ayrılıb. Amma adamlar pulu alıblar və işi görməyiblər. Belə adamlara niyə pul verilməlidir? Pul millətdən ötrü canını yandıran adamlara verməlidirlər ki, işlər görülsün, Azərbaycanın adı yüksəlsin. Milləti düşünənlər, milləti sevənlər olmasa, o millətin gələcəyi yoxdur. Öz millətini sevməyən, ona hörmət etməyən başqa millətlər üçün nə edə bilər?

***- Prospektin yenidən qurulması üçün pulu kimə veriblər?***

- Camaat bilir ki, Azərbaycan rəhbərliyi həmin prospektin yenidən tikilməsi və digər işlərin görülməsi üçün Dərbəndə böyük pul göndərib. Həmin pul isə ortada yoxdur. Mən elə hesab edirəm ki, həmin pul lazımsız adama verilib. Əgər pul normal bir adama verilsəydi, yəqin ki, bu gün həmin prospekt artıq yenidən qurulub təhvil verilərdi. Burada Heydər Əliyevin, Səid Camaloviçin adına prospektlər var, Azərbaycan teatrı var, böyük şairimiz Nizaminin adına park var. Olimpiya stadionu tikilməli idi. Teatrımızın binasının tikintisi yarımçıqdır, Nizami parkı da bərbad gündədir. Stadionun özülü qazılıb və iş dayandırılıb.

***- Bu işlərin görülməsi üçün hansı addımlar atılmalıdır?***

- Əgər həmin işlərin görülməsini mənə tapşırsalar, mən millətim üçün bu işləri görməyə hazıram.

***- Bu işlərin görülməsi üçün dediniz ki, vəsait ayrılıb. Kimə ayrıldığı məlumdursa, o şəxsdən vəsaitin geri alınması üçün addımlar atılacaqmı?***

- Bu məsələ ilə Azərbaycan tərəfi məşğul olmalıdır. Pulu elə şəxslərə vermək lazımdır ki, millət üçün iş görsün. Qarşıdan Dərbəndin yubileyi gəlir. Dərbənddə digər xalqların teatrı var və yaxşı vəziyyətdədir. Yubileylə bağlı Dərbəndə gələn qonaqlar şəhərlə tanış olanda görəcəklər ki, Azərbaycan teatrı, Nizami parkı, Heydər Əliyev küçəsi bərbad durumdadır. Bu işlər görülməlidir.

***- Azərbaycan dövlətinə, hökumətinə bu problemlərin həlli üçün müraciət etmək fikriniz varmı?***

- Əlbəttə. Bizimlə görüş olsa bu məsələləri qaldıracağıq. Məktəblərdə Azərbaycan dilində kitablar çatışmır. İxtisaslı kadrlar azdır. Mən Rükəl kəndində məktəbdə təhsil alanda bütün kitablar vardı. Ana dili və ədəbiyyatımız keçirilirdi. Azərbaycan dili və ədəbiyyatımızı tədris edən kadrlar demək olar ki, yoxdur. Mən istəyirəm ki, necə ki, burada yaşayan başqa millətlərə öz dilləri və ədəbiyyatları öyrədilir, azərbaycanlılara da öz dil və ədəbiyyatları ən yüksək səviyyədə öyrədilsin.

***- Dərbənd büdcəsi, Dərbənddə yaşayan azərbaycanlıların şəxsi vəsaitləri hesabına bu addımların atılması mümkündürmü?***

- Hələlik bu məsələləri araşdırmamışam. Bu vəzifədə mənə qədər də azərbaycanlı olub. Əgər imkan olsaydı, bu məsələlər həllini tapardı.

***- Əhaliyə torpaqların paylanması nəzərdə tutulur?***

- Bəli. Dərbənd əhalisinin əsas gəliri əkin-biçindəndir. Camaatımız üzümçülüklə, bostançılıqla məşğuldur. Torpaqlar əhaliyə veriləcək. Artıq qəbul keçirib əhalini dinləmişik. Qaldırılan problemlərin həlli istiqamətində tədbirlər görüləcək. Torpaq istəyənlərin bir neçəsinə torpaq vermişəm. 1 hektar torpaq istəyən də oldu. Camaat üzümçülük üçün, ev tikmək üçün torpaq istəyir. Qullar kəndində torpağı paylayıblar, amma büdcəyə 1 rubl belə daxil olmayıb.



***- Köhnə rəhbərliklə münasibətləriniz necədir?***

- Normaldır. Bir-birimizə qarşı hansısa pis addımımız olmayıb. İşləyib imkanımız daxilində köməklik edəcəyik. Əlbəttə ki, qanun çərçivəsində.

***- Əvvəllər Dərbənddə yaşayan azərbaycanlıların problemi olanda Səid Qurbanovun qəbuluna gedib köməklik olunmasını xahiş edirdilər. Səid Qurbanov rəhmətə gedib, oğlu Qurban Qurbanov hazırda vəzifəsindən uzaqlaşdırılıb. Belə bir vəziyyətdə həmyerlilərimiz problemlərinin həlli üçün kimə üz tutmalıdırlar?***

- Düşünmədən mənə müraciət etsinlər. Mən millətimə kömək etməyə hər an hazıram.

***- Kadr islahatı aparılacaqmı?***

- Aparılacaq. Kim ki öz işini bilmir, işə çıxmır, o adamlarla yolumuz ayrılacaq. İşləyənlərin əmək haqqı inflyasiyaya uyğun qaldırılacaq.

***- Büdcə təşkilatlarında çalışmayanlara necə köməklik etmək fikrindəsiz?***

- Dərbənd üzümçülükdə ad çıxarıb, Dərbənd üzümünün ad və dadı dünyanın əksər ölkələrində tanınır. Bu sahəni inkişaf etdirməklə insanların məşğuliyyətini təşkil edəcək, gəlirlərinin artmasına nail olacağıq. Azərbaycanlı iş adamlarını da burada üzüm şirəsi çəkən konserv zavodları tikməyə dəvət edəcəyik. Burada Bəlucda konserv zavodu var. Həmin zavoda sərmayəçiləri cəlb etmək fikrindəyik. Burada zavodları özəlləşdiriblər, amma işlətmək üçün maddi imkan yoxdur. Ona görə də həmin adamlarla danışıq aparıb zavodların fəaliyyətini təmin etmələrini və ya satıb işləməsinə yol açmalarını təklif edəcəyik. Bu gün Dərbənd şəhərinin balansında zavodlar var ki, hələlik özəlləşdirilməyib. Onları özəlləşdirmək istəyənlər isə qapıları bağlayıb iş görmək istəməyənlərdir. Belə özəlləşdirmələr inkişafın qarşısını alır. Buradakı şirə zavodunu əvvəllər direktoru olmuş şəxs alıb. Amma iş görmür. Ona görə də Azərbaycandan olan investorları bura dəvət etmək fikrindəyik. Qəbələdə olan şirə zavodu tipində zavodun tikilməsini təklif edəcəyik. Azərbaycanlı sərmayəçilər burada belə bir zavod tiksələr, öz millətimizdən olan xeyli insan burada işləyər, öz üzüm sahəsindən üzümü bura təhvil verib qazanarlar. Mən Azərbaycanlı iş adamlarını Dərbəndə iş görməyə dəvət edirəm.

***- Dağıstandan Suriyaya İŞİD-ə qoşulanlar haqda zaman-zaman xəbərlər yayılır. Buradan İŞİD-ə üz tutanlar arasında azərbaycanlılar var?***

- Hər millətdən var. Azərbaycanlılar da həmçinin. Amma belə halların qarşısını almaq üçün profilaktik tədbirlər görülür. 2014-cü ildə Dağıstanda terror aktı qeydə alınmayıb. Vəziyyət yaxşıdır. Hüquq-mühafizə orqanları müvafiq tədbirlər görürlər. Saqqallıların əl izləri, fotoşəkilləri çəkilir. Artıq mütəşəkkil cinayətkar qruplaşmalara cavanların qoşulması halları yoxdur. Suriyaya gedənlərin geriyə yolu bağlıdır. Sərhəddə onları tuturlar.

***- Azərbaycan mətbuatında Dərbənd küçələrində Azərbaycan vətəndaşı olan, lakin bunu təsdiq edən sənədlərini itirmiş vətəndaşlarımızın səfil həyat tərzi keçirməsi haqda xəbərlər yer alıb. Belə aydın olur ki, həmin vətəndaşlar Rusiya paytaxtına gedib səfirliyimizdə problemlərini həll edə bilmirlər. Belə şəxslərin problemlərinin həlli üçün Dərbənddə konsulluğumuzun açılması təşəbbüsü ilə çıxış edəcəksiz?***

- Bəli, bu gün Dərbənddə belə azərbaycanlılar var. Əlbəttə ki, konsulluğun açılması çox yaxşı olardı. Bu gün Rusiyada elə azərbaycanlı ailələr var ki, onların övladları dünyaya gəlib, lakin özlərinin sənədləri olmadığından uşaqlarına da sənəd ala bilmirlər. Bu adamlar Azərbaycan sərhədinə gedir və geri qayıtmalı olurlar. Min bir əzab-əziyyətə qatlaşıb qazandıqlarını da dələduzlar aldadıb əllərindən alırlar. Konsulluğun olması belə problemlərin həllinə çox böyük köməklik olardı. Bu haqda əvvəllər Azərbaycana müraciətlər olub, biz də müraciət edəcəyik. Millətimiz belə problemlərlə üz-üzə qalmamalıdır.

Qeyd edək ki, Azərbaycan hökuməti Dərbənd şəhərində Nizami Gəncəvi Parkının, Heydər Əliyev prospektinin, Qırxlar Məzarlığının və Dərbəndin 2000 illik yubileyi münasibətilə şəhərin abadlaşdırılması, Dərbənd-Azərbaycan Dövlət Dram Teatrının yenidən qurulması, Olimpiya Mərkəzinin inşa edilməsi və bir neçə istehsal müəssisəsinin yaradılması üçün dövlət büdcəsindən 30 milyon manat vəsait xərcləyib. Amma Məhəmməd Cəlilovun dediklərindən belə çıxır ki, kimlərsə həmin vəsaiti oğurlayıb yeyiblər...

**❑ “Yeni Müsavat”ın Reportyor Qrupu**

Növbəti saylarımızda Dərbənd üçün ayrılan vəsaitin Azərbaycan məmurlarından kimə verilməsi və Dərbəndin bu günü haqda yazı-reportajlarımızı təqdim edəcəyik.

**Ölkədə spirtli içkilər, şampan şərabları, adi şərablar, eləcə də siqaretlər, siqarlar və digər tütün məmulatları bahalaşacaq. Nazirlər Kabineti "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli qərarında dəyişikliklər edilməsi barədə qərar qəbul edib. Bu qərarla bəzi məhsulları üzrə aksiz dərəcələri kəskin artırılıb. Bir sıra mallarda isə əksinə, aşağı salınıb.**



# Ölkədə spirtli içki və siqaret bahalaşdı

Beləliklə, qərara əsasən, ölkəyə gətirilən etil spirti üzrə aksiz dərəcəsi indiki 1 ABŞ dollarından və ya 0,8 manatdan 2 manata qaldırılıb. Ölkəyə gətirilən pivə üzrə aksiz vergisi 1 litr üçün 1 ABŞ dolları və ya 0,8 manatdan 1 manata qaldırılıb. Üzüm şərabları üzrə aksiz dərəcələri demək olar ki, dəyişməyib və əvvəlki 2,5 dollar əvəzinə 2 manat həddində müəyyən edilib. Əvəzində indiyədək aksiz vergisinə cəlb edilməyən şampan şərablarının hər litri üçün 2,5 manat aksiz vergisi müəyyən edilib. Eləcə də viski, rom, araq, likör və s. içkilər üçün aksiz dərəcələri 20 faiz artaraq 6 dollar (və ya 4,8 manatdan) 6 manata qaldırılıb.

Aksiz dərəcəsi kəskin artırılan mallardan biri də siqaretlər və tütün məmulatları olacaq. Nazirlər Kabinetinin qərarı ilə bu məhsulların aksiz vergisi təqribən 3 dəfə artırılaraq hər 1000 ədəd siqaret üçün 1,8 dollar, yəni 1,44 manat əvəzinə 4 manat müəyyən edilib. Əvəzində müəyyən növ benzinlər üçün aksiz vergisi bir ton benzinə görə 250 ABŞ dollarından 120 manata endirilib.



**Vüqar Bayramov:** "Tütün və spirt məhsullarını istifadə etməyənlərin xərclərində dəyişiklik olmayacaq""



**Samir Əliyev:** "Aksiz vergisinin dərəcəsinin artırması gələcəkdə ölkədə inflyasiya artımına gətirib çıxaracaq"

Digər tərəf bituma görə aksiz vergisi kəskin artırılaraq hər ton məhsula görə 1 dollardan 24 manata qaldırılıb.

**Ekspertlərin fakta münasibəti fərqlidir. Aksiz vergilərinin artırılması zərurəti və bunun ölkədə başlada biləcəyi iqtisadi proseslər barədə musavat.com-a danışan iqtisadçı ekspert Vüqar Bayramovun sözlərinə görə, aksiz markaların qiymətinin artırılması təbii olaraq spirt və tütün məhsullarının qiymətlərinin artımına gətirib çıxarır:** "Satış məntəqələrində, mağazalarda siqaret və spirtli içkilərin qiyməti artacaq. Qiymət artımı restoranlarda da özünü göstərəcək".

**İqtisadçı ekspert deyib ki, yanvar ayından etibarən bir sıra aksiz markalarında artım müşahidə edilir. Buna səbəb isə neftin qiymətinin aşağı düşməsidir:** "Neftin qiymətinin düşməsi büdcəyə daxilolmaların azalmasına gətirib çıxaracaq. Həmin xərcin ödənməsi üçün indiki halda dövlətin tətbiq etdiyi əsas vasitə aksiz vergilərin artırılması ilə bağlı qərar qəbul etməkdir. Spirtli içkilərin qiyməti aşağıdır. Bunun üçün də həmin içkilərə tələbat artır. Qiymətin artması spirtli içkilərin istehlakının azalmasına gətirib çıxarır. Spirt və siqaretin ziyanını nəzərə alsaq, bu, birmənalı şəkildə arzuolunandır. Aksiz vergilərin artırılması digər məhsulların qiymətində artıma gətirib çıxarmayacaq. Amma spirtli içkilərdən istifadə edənlər qiymət artımını restoranlarda da hiss edəcək. Spirtli içki, siqaret istifadə edənlərin xərclərində artım olacaq, lakin tütün və spirt məhsullarını istifadə etməyənlərin xərclərində dəyişiklik olmayacaq".

**Ekspert Samir Əliyev isə musavat.com-a açıqlamasında qeyd edib ki, hökumətin qarşısında qeyri-neft sektorunu inkişaf etdirmək kimi bir vəzifə durur:** "Səbəb də aydındır. Artıq neft gəlirləri əvvəlki səviyyədə deyil. Qeyri-neft sektorunu inkişaf etdirmək üçün ya ixrac stimullaşdırılmalıdır, ya da daxili bazar qorunmalıdır. Manatın devalvasiyasının indiki dövrdə təhlükəli olması stimullaşdırma ideyasını hələ ki arxa plana keçirir. Deməli, daxili bazarı qorumaqla yerli istehsalın rəqabət qabiliyyətini artırmaq olar. Ucuz və keyfiyyətli xarici malın qarşısında ancaq ondan da ucuz yerli istehsal dayana bilər. Fikrimcə, bir sıra mallara, o cümlədən geniş istehlak olunan siqaret və spirtli içkilərin idxalına qoyulan aksizlərin artırılması daha çox daxili bazarı qorumaq məqsədi daşıyır. Çünki Azərbaycanın əsas ticarət tərəfdaşları olan ölkələrin demək olar ki, hamısında milli valyutalar devalvasiyaya uğrayıb. Bu isə o deməkdir ki, onların istehsalı olan məhsullar ölkəyə gətiriləndə yerli mallarla müqayisədə ucuz olur. Bu da yerli istehsal üçün problem yaradır. Hökumət bu yolla daxili istehsalı qorumağa çalışır".

**Onun sözlərinə görə, bunun arxasında dövlət büdcəsinə vergi daxilolmalarının artırılması kimi məqsəd də durur:** "Nazirlər Kabinetinin siqaret və spirtli içkilərin idxalına tətbiq edilən aksiz vergisinin dərəcəsinin artırması gələcəkdə ölkədə inflyasiya artımına gətirib çıxaracaq. Təbii ki adıçəkilən malların bahalaşması qaçılmaz olacaq".

❑ RÖYA

# Mərkəzi Bankın Çin seçimi

## MB Çinə 500 milyon dollarlıq investisiya qoymağı planlaşdırır

**Dövlət Neft Fondundan sonra Mərkəzi Bank (MB) da Çinə investisiya yatıracaq. Bu barədə MB-nin "Yeni Müsavat"ın sorğusuna cavabında bildirilir. MB-nin cavabında deyilir: "Dünya maliyyə bazarlarında aşağı gəlirlilik şəraitində ehtiyatların valyuta və coğrafi diversifikasiyasının genişləndirilməsi Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatlarının idarə edilməsində başlıca istiqamət seçilib. İnvestisiyaların Asiya ölkələrinə diversifikasiyası çərçivəsində Mərkəzi Bank yüksək keyfiyyətli sabit gəlirli qiymətli kağızlarından ibarət multivalyutada investisiya portfelləri formalaşdıraraq xarici idarəetməyə verməyi planlaşdırır. Bu məqsədlə xarici menecerlərin seçilməsi prosesi tamamlanmaq üzrədir.**



Valyuta ehtiyatlarının bir hissəsinin Çin banklararası istiqraz bazarına investisiya edilməsi ilə bağlı Çin Mərkəzi Bankı ilə müzakirələr aparılır".

Bank rəsmilərinin açıqlamalarına görə, ümumilikdə Asiya bazarlarına 1 milyard, Çinə isə 500 milyon dollarlıq investisiya etmək planlaşdırılır. Bəs Çinə investisiya qoymaq nə qədər uğurlu seçimdir? Ekspertlər Asiya bazarlarını perspektivli hesab etsələr də, ehtiyatlı olmağı məsləhət görürlər. **İqtisadçı ekspert Natiq Cəfərli deyib ki, Asiya bazarı son illərdə ən yüksək templə inkişaf edən bazardır:** "Çin iqtisadiyyatı ABŞ və AB ilə paralel olaraq dünya iqtisadiyyatının lokomotivlərindən birini təşkil edir. Ona görə də Çin bazarına girmək, investisiya yatırmaq cazibəli görünür".

**Ancaq ekspert hesab edir ki, bir neçə amil var ki, onları nəzərə almaq lazımdır:** "Dünya Bankının və bir sıra beynəlxalq təşkilatların son hesabatlarına görə, Çin valyutası hökuməti tərəfindən bilərəkdən dəyərsizləşdirilir ki, ixracat potensialı daha da artsın, ona görə də yaxın illərdə bu tendensiya ABŞ və digər ticarət tərəfdaşlarının tələbinə görə dəyişə bilər, Çin yuanı dəyər qazana bilər. Digər məsələ isə Çin daşınmaz əmlak bazarının aşırı dərəcədə "şişməsidir", bu da bank kreditləri üzərində qurulub, çox güman yaxın zamanlarda Çin daşınmaz əmlak bazarında süni şişən "balonlar", "şarlar" partlaya bilər, bu isə bank sektoruna ciddi ziyan vura bilər. Mütləq bu məsələləri nəzərə almaq lazımdır".

**İqtisadçı ekspert Samir Əliyev isə deyir ki, Dövlət Neft Fondundan fərqli olaraq MB ehtiyatların strukturu barədə məlumatı daha xəsisliklə paylaşır:** "Bu məlumatlar ən yaxşı halda illik hesabatlarda məhdud formada açıqlanır. Valyuta ehtiyatının düzgün idarə edilməsi onun qorunması baxımından çox vacibdir. Xüsusilə dünya bazarlarında qeyri-sabitliyin mövcud olduğu bir dövrdə əsas məqsəd qazanc götürmək yox, itkinin olmasına yol verməməkdir. Diqqət yetirsək görərik ki, istər Neft Fondunun aktivlərində, istərsə də Mərkəzi Bankın ehtiyatlarına daxil edilmiş valyutalar - avro, funt sterlinq, lirə, rubl ötən il xeyli ucuzlaşıb və bu ucuzlaşma bu il də davam edir. Yeganə olaraq dollar möhkəmlənib. Qiymətli kağızlara yatırım isə dərin təhlil tələb edir. Burada 2 seçim var: azgəlirli və etibarlı kağızlara yatırım etmək və ya çoxgəlirli, ancaq riskli kağızlara yatırım etmək. Azərbaycan ilk dövrlər 1-ci varianta daha çox önəm verib, son vaxtlar 2-cinin payında artım müşahidə edilir.

Asiya ölkələrinə investisiyaların artımı baş verir. Xüsusilə də Avropada iqtisadi böhran Çinə diqqəti artırır. Ancaq ABŞ və Avropa böhrandan qurtulmağa başladığı bir dövrdə Çin iqtisadiyyatında son illər zəifləmə müşahidə edilir. Ötən il iqtisadi artım 7,4 faiz olub və bu son 24 ildə ən aşağı artım səviyyəsidir. Növbəti illərdə artım səviyyəsinin daha aşağı olacağı proqnozlaşdırılır. Çinin fond bazarı ticarətin həcminə və bazarın kapitallaşmasına görə dünyada ikinci ən böyük bazardır. Neft Fondunun ardınca Mərkəzi Bankın Çin bazarına üz tutması ehtiyatların diversifikasiyası baxımından anlaşılandır. Çünki Çinin istiqrazlarının gəlirliliyi Almaniya, Fransa, ABŞ kimi ölkələrinin istiqrazlarında nisbətən yüksəkdir və eyni zamanda az risklidir. Ancaq Çin iqtisadiyyatında müşahidə edilən və proqnozlaşdırılan zəifləmə yüksək ehtiyat tələb edir".

❑ Bəkir NƏRİMANOĞLU



## Magistraturaya sənəd qəbulu başlayır

**Bu gündən etibarən ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ərizə qəbulu başlanacaq. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasından (TQDK) azvision.az-a verilən məlumata görə, 2015-2016-cı tədris ili üçün ali məktəblərin magistratura pilləsinə ərizə qəbulu fevralın 3-dən 12-nə qədər davam edəcək. Bu müddət ərzində bakalavrlar elektron ərizələri doldurmalıdırlar. Fevralın 22-də isə magistraturaya qəbul imtahanının 1-ci mərhələsi keçiriləcək. 1-ci mərhələdə lazımi balı toplayan tələbələr aprelin 1-10-da proqram seçimi edəcəklər. Qəbul imtahanının 2-ci mərhələsi isə aprelin 26-da keçiriləcək. 7-12 may tarixlərində ixtisaslaşma seçimi olacaq. Qeyd edək ki, magistraturaya qəbul ola bilməyən tələbələr üçün boş qalan yerlərə ixtisaslaşma seçimi iyunun 22-28-i arası olacaq.**

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015

# Azərbaycanda nağdsız ödəniş sistemi niyə populyar deyil?

## **Ekspert:** "Vətəndaşlar düşünür ki, plastik kartla alış-veriş etsələr, onların kartlarından çox pul çıxılacaq"

**Vergilər Nazirliyinin audit və operativ nəzarət sahələri üzrə müşaviri İlqar Əhmədov mətbuata açıqlamasında Azərbaycanda nağdsız ödəniş sisteminə keçməyin vacib olduğunu bildirib, buna imkan verən amillərdən birinin də ödəniş kartlarının sayının 6 milyona çatması olduğunu söyləyib. Onun sözlərinə görə, mövcud pos-terminalların sayı da nağdsız ödəniş sisteminə keçmək üçün kifayət qədərdir.**





Qeyd edək ki, son illər dünyada nağdsız ödənişlərin həcmi artmaqdadır. Hesablamalara görə, 2020-ci il üçün Avropa Birliyi ölkələrində ümumi hesablaşmaların 30 faizi nağdsız aparılacaq. Azərbaycanda isə bu sistemdən çox az istifadə edilir. Apardığımız müşahidə zamanı da bunun şahidi olduq. Pos-terminallara yalnız supermarketlərdə və geyim mağazalarının bəzilərində rast gəlinirdi.

Ərzaq mağazasında kassanın qarşısında pos-terminalı görüb satıcıdan onu istifadə edib etmədiklərini soruşduq. **Kassir Turanə Ağayeva** pos-terminal işləsə də nağdsız alış-veriş edənlərin az olduğunu dedi: "Gün ərzində 3-4 nəfər nağdsız kartla alış-veriş edir ya yox. Daha çox "Albalı+" kartı ilə ödəniş edirlər. Ərzağın qiyməti nə qədərdisə, o miqdarda pul çəkilir. Yəni heç bir faiz alınmır".

**Baş çəkdiyimiz geyim mağazasında isə nağdsız ödənişdən daha çox istifadə edildiyini deyən satıcı xanım endirim zamanı nağdsız ödənişdə fərq olduğunu bildirdi:** "Məsələn, bir paltarın qiyməti 70 manatdan endirimlə 50 manata düşübsə, həmin paltara nağdsız, kartla alınanda 65 manat alırıq. Yəni endirimin müəyyən faizi alıcıdan alınır".

**İqtisadçı ekspert Vüqar Bayramov vətəndaşların plastik kartlardan istifadə etməsi haqda təkliflər paketi hazırlayaraq hökumətə təqdim etdiklərini dedi:** "Paketdə nağdsız hesablaşmalardan istifadəni genişləndirmək üçün nağdsız hesablaşmaların sitimullaşdırılması və müəyyən inzibati metodlardan istifadə edilməsini təklif etmişik. Vətəndaşların nağdsız hesablaşmalardan istifadəsinin sitimullaşdırılması üçün bonus sisteminin tətbiqini təklif edirik. Bu sistem Türkiyə daxil olmaqla, bir sıra qonşu ölkələrdə var. Bu sistemin üstünlüyü ondan ibarətdir ki, vətəndaş plastik kartdan istifadə edərək ödədiyi vəsaitin bir hissəsini geri ala bilir. Adətən bu 5-7 faiz intervalında dəyişir. Biz Azərbaycanda 5 faizlik bonus sisteminin tətbiq olunmasını istəyirik. Bu, o deməkdir ki, əgər vətəndaş rüb ərzində min manatlıq alış-veriş edibsə, alış-veriş zamanı plastik kartdan istifadə edibsə, rüb başa çatdıqdan sonra vətəndaşın ödədiyi min manatın 5 faizi, yəni 50 manatı avtomotik olaraq yenidən vətəndaşın plastik kartına yüklənir. 5 faizin geri alınması vətəndaşda nağdsız hesablaşmanın istifadəsi ilə bağlı stimul yaradır. Nağdsız hesablaşmalar dövlətin də xeyrinədir. Çünki nağdsız hesablaşmalar zamanı vergidən yayınmaq mümkün deyil. Əlavə dəyər vergisinin 18 faiz, bonus sisteminin isə 5 faiz olduğunu nəzərə alsaq, dövlət büdcəsi udur. Digər tərəfdən, təklif edirik ki, Fransada olduğu kimi, nağdsız hesablaşmanı limitlər müəyyənləşdirsin. Məsələn, satılan malın məbləği min manatdan artıqdırsa, həmin malın nağd satışı qadağan edilsin. Bu, artıq məcbur edəcək ki, mebel, avtomobil kimi bahalı məhsullar nağd alınıb-satılmasın. Bu, tətbiq edilsə, vətəndaş plastik kart almağa məcbur olacaq. Çünki bahalı nəsə alanda artıq nağdlı ödənişlərdən istifadə edə bilməyəcəklər".

**Ekspert nağdsız hesablaşmalardan az istifadə edilməsinin səbəblərindən birini də vətəndaşların plastik kartlara inamının az olmasında görür. Vətəndaşların bir qisminin nağdsız hesablaşmalar zamanı aldadılacağını düşündüyünü deyən V.Bayramov bunların hamısının vətəndaşların plastik kartlar haqda məlumatsız olmasından irəli gəldiyini dedi:** "Vətəndaşlar düşünür ki, plastik kartla alış-veriş etsələr, onların kartlarından çox pul çıxılacaq və ya kartın informasiyası götürüləcək. Digər problem isə ondan ibarətdir ki, əksər satış və xidmət obyektlərində pos-terminallar olsa belə, ondan istifadə edilmir. Məsələn, vətəndaş hansısa restoranda yemək yedikdən və ya hansısa mağazada alış-veriş etdikdən sonra plastik kart təqdim edir. Amma qaşı tərəf pos-terminalın işləmədiyini deyir. Təəssüf ki, pos-terminalların böyük bir qisminin işləməməsi vətəndaşlara imkan vermir ki, plastik kartlardan daim yararlansın. Sahibkarın pos-terminaldan istifadə etməməsi və vətəndaşın plastik kart almaqdan imtina etməsi istehlakçıların hüququnun pozulması deməkdir. Bu baxımdan vətəndaşların plastik kartdan istifadə etməsi üçün daha sərt cəzaların tətbiq edilməsinə ehtiyac var. Bütövlükdə vətəndaşların plastik kartlardan istifadə etməsi o vaxt artacaq ki, vətəndaş əmin olsun ki, bütün satış və xidmət obyektlərində plastik kartlar istifadə edə biləcək. ABŞ-da ödənişlərin 97 faizi plastik kartlar vasitəsilə həyata keçirilir. Hətta küçə ticarətində belə plastik kartdan istifadə etmək mümkündür".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

## Bakıda ağır qəza: ölən var



**Bakıda bir nəfərin ölümü ilə nəticələnən yol qəzası baş verib. Daxili İşlər Nazirliyindən APA-ya verilən məlumata görə, hadisə Nərimanov rayonunda qeydə alınıb. Bakı şəhər sakini Adil Uluxanov idarə etdiyi "Toyota" markalı avtomobili yol ayrıcına vurub. Qəza zamanı xəsarət alan A. Uluxanov xəstəxanada dünyasını dəyişib. Faktla bağlı araşdırma aparılır.**

## "Dedilər qadın satmışam"

### Müğənni Maral Tahirqızı istintaqa cəlb olundu



**Müğənni Maral Tahirqızı istintaqa cəlb olunub. APA-nın məlumatına görə, müğənni insan alverində təqsirləndirilir. O, bu gün təqsirləndirilən şəxs qismində Xətai Rayon Polis İdarəsinə çağırılaraq ifadəsi alınıb. Xətai Rayon Polis İdarəsindən APA-ya onlarda müğənni Maral Tahirqızı ilə bağlı cinayət işinin olduğunu təsdiqləsələr də, əlavə açıqlama verilməyib: "Hələlik dindirmə gedir. Əlavə heç nə deyə bilmərik".**

"Polsi İdarəsində mənə dedilər ki, guya bir qadını satmışam". Bu sözləri Maral Tahirqızı "Yeni Müsavat"ın əməkdaşına verdiyi açıqlamada bildirib: "Keçən ilin may ayında bir salona gedərək üz-qaşımı aldırmışam. Salonda işləyən qadının adı Esmiradır. İndi o, boynuma qoyur ki, guya bir qadını pula satmışam və məni "mama roza" adlandırır. Qadın alveri hara, mən hara. Mən belə işlərlə məşğul deyiləm. Şöbəyə çağırılanda çox təəccübləndim. Polisə də hirslənib dedim ki, niyə məni bura çağırmısız? Mən hamı kimi salona getmişəm, ordakıların hansı işlə məşğul olduğunu hardan bilim? Bütün bu işlərlə indi vəkilim məşğuldur. Bax, indi siz mənimlə əlaqə saxlamısız, indi sizi də istintaqa cəlb edə bilərlər ki, Maral xanımla hansı əlaqələriniz var".

## Şəki penitensiar müəssisəsində narkotik və telefon tapıldı



**Şəki penitensiar müəssisəsində narkotik və telefon tapılıb. Bu barədə musavat.com-a Penitensiar Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Xəbərdə deyilir ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Şəki penitensiar müəssisəsində mühafizə taborunun əməkdaşları tərəfindən müəssisənin mühafizəsində olan daxili iz zolağında 1 ədəd bükülüdə xalis çəkisi 8,89 qram olan narkotik vasitə - marixuana, 2 ədəd bükülüdə daxilində "Nar" danışıq kartı olan "Nokia" markalı mobil telefon aparatı və daxilində "Cin" danışıq kartı olan "Nokia" markalı mobil telefon aparatı və 2 ədəd elektrik qidalandırıcısı aşkar edilərək götürülüb.**

Fakt üzrə araşdırma aparılır.

❑ **M.MAHRIZLI**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



*Əyləncəli, sürətli, asan!*



Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- *İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!*
- *Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!*
- *Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!*
- *Əla tələffüz və güvənlə danışmaq*
- *Real ingiliscə söhbətlər*

BONUS english EXPLOSION *dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!*

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34


**Başsağlığı**

**Vüqar bəy və Orucovlar ailəsi bacısı Şəfəq xanımın həyat yoldaşı Cavadov Elmanın vəfatından kədələndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

YENİ MÜSAVAT
N 24 (6052) 3 fevral 2015

# Hövsanda yeni gərginlik yetişir

## Sakinləri rayonun deputatı Sevinc Fətəliyevadan şikayətçidirlər; qəsəbə sakinlərindən polisə şikayət verən Ağasəlim Əliyev danışdı

**Hövsan qəsəbəsində icra nümayəndəsi Ağasəlim Əliyevin avtomobilinin aksiya iştirakçıları tərəfindən sındırılması iddiası ilə bağlı Suraxanı rayonu 30-cu polis idarəsində dindirmələr davam edir. Hövsan qəsəbəsinin sakini Azad Həsənov "Yeni Müsavat"a bildirib ki, son olaraq Telman adlı gənc polis idarəsinə çağırılıb və ona avtomobilə xəsarət yetirdiyi və bununla bağlı şahidlərin olduğu bildirilib. Telman isə cavab verib ki, o, dünyasını dəyişən gəncin xəstəxanaya çatdırılması üçün təcili yardım maşını ilə birgə gedib.**

Məktəb direktoru Qardaşxan Səlimovla bağlı aparılan araşdırma işinə gəlincə, Azad Həsənov qeyd etdi ki, hazırda təhsil şöbəsi və Suraxanı Rayon İcra Hakimiyyətinin humanitar məsələlər üzrə müavini Sevinc Hüseynova məktəbdə araşdırma aparır: "Sevinc Hüseynova ilə Qardaşxan Səlimovun çox yaxşı əlaqələri var. Daha əvvəl də Qardaşxan Səlimovla bağlı şikayətlərə baxılarkən Sevinc Hüseynova direktorun tərəfini saxlayıb. Biz düşünürük ki, bu araşdırma işinin Sevinc Hüseynovaya tapşırılmasının səbəbi direktorun əməllərini ört-basdır etmək və onun əleyhinə olan faktları yox etməkdir".

**Azad Həsənov onu da bildirdi ki, hadisələr başlayandan sonra rayonun deputatı Sevinc Fətəliyeva bir dəfə də olsun gəlib proseslərlə maraqlanmayıb:** "Demək olar ki, Sevinc Fətəliyeva Hövsan qəsəbəsində baş verənlərə reaksiya verməyib. Bir neçə dəfə sakinlər onunla görüşərək problemləri dilə gətiriblər. Ancaq o, məsələ ilə maraqlanacağını desə də hələ ki hər hansı addım atdığını görməmişik".

Müsahibimiz onu da bildirdi ki, mətbuatda gedən son məlumatlardan sonra təzyiqlər nisbətən səngiyib.

**Son günlər mətbuatda adı hallanan Hövsan qəsəbəsinin icra nümayəndəsi Ağasəlim Əliyev də "Yeni Müsavat"a danışdı. O bildirdi ki, yeganə məqsədi avtomobilinə ziyan vuranların cəzalandırılmasıdır:** "Birincisi, mən qeyd etmək istəyirəm ki, aksiyada dünyasını dəyişən gənc haqqında yazarkən onun bədbəxt hadisə nəticəsində dünyasını dəyişdiyini qeyd etmək lazımdır. Çünki bu insanın ölümündə heç kim günahkar deyil".



**Avtomobilinə xəsarət yetirilməsinə gəlincə, A. Əliyev bunu qanun çərçivəsində həll edəcəyini söylədi:** "Kimlərsə narazıdır və gəlib aksiya keçirir. Mənim avtomobilimin burada nə günahı var? Mənim maşınımı sındırıblar, mən də həmin insanlardan polisə şikayət eləmişəm. Hər insan öz əməllərinə görə cavab verməlidir. Bu bir xuliqanlıq hərəkətidir. Maşının əzilməsi səhnələri internetdəki videolarda da var, polis o zaman orada olub və kimlərin bu işi gördüyü aydındır, şahidlər də var. Mən ərizədə 3 nəfərin adını yazıb vermişəm. O ki qaldı mənim onlara müxalifətçi deməyimə, onların müxalifətçi olduğunu hamı bilir. Bu insanlar mənim adımı çəkirlər ki, Elmarın dünyasını dəyişməsində mən günahkaram. Bu hadisənin mənimlə nə əlaqəsi var?"

**Baş verənlərə münasibət bildirən hüquq müdafiəçisi Arzu Abdulla Hövsan sakinlərinə hüquqi yardım göstərməyə hazır olduğunu bildirdi:** "Əgər Azərbaycanda ədalətli istintaq, ədalətli məhkəmə sistemi olsaydı, insanların heç bir qorxusu olmazdı, əhali aksiya keçirmək məcburiyyətində qalmazdı. Ancaq hər kəs bilir ki, məhkəmələr də sifarişli olur, istintaq da sifariş əsasında keçirilir. Çalışırlar ki, insanların müqavimətini qırsınlar, qula çevirsinlər. Xüsusən də rayon məktəblərində şagirdləri bu ruhda tərbiyə edirlər. İndi Hövsanda aksiya keçirən insanları günahlandırırlar ki, avtomobili sındırıblar. Əgər istintaqı aparanlar ədalətli qərar çıxarmaqda maraqlı deyillərsə, həmin sakinlər də qorxu içində olacaqlar. Əgər insanlar qorxacaqsa, o zaman heç nəyə nail ola bilməyəcəklər. Əgər insanlara qarşı təzyiq varsa, mən onlara deyirəm ki, bizə, hüquq müdafiəçilərinə müraciət etsinlər. Vəkillərlə birgə biz də onlara yardım edə bilərik və həqiqətin üzə çıxarılmasında yardımçı olarıq".

**Yazıda adıçəkilən digər şəxslərin də mövqeyini verməyə hazırıq.**

❑ **Nərgiz LİFTİYEVA**

# Televiziya aparıcısı necə olmalıdır?

## **Zeynal Məmmədli:** "Dünya ölkələrində onları tamaşaçının özü onlayn səsvermə yolu ilə seçir"

## **Qulu Məhərrəmli:** "Aparıcının diplomu olmaya bilər, amma dünya görüşü, səviyyəsi mütləq olmalıdır..."

**Artıq xeyli vaxtdır Azərbaycan telekanallarındakı nöqsanlı hallar, aparıcıların qeyri-peşəkar davranışları cəmiyyətdə narazılıqla qarşılanır. Çoxları bu kimi neqativ halların səbəbini aparıcıların savadsızlığı, təcrübəsizliyində görsə də, günahı televiziya rəhbərliyində axtaranlar da az deyil. Bəs aparıcı hansısa meyarlara cavab verməlidir?**



**Televiziya mütəxəssisi Zeynal Məmmədliyə** görə, bir jurnalist verilişləri var, bir də qeyri-jurnalist verilişləri: "Jurnalist verilişlərini aparanların adətən reportyor, ekran təcrübəsi olur və bunlardan formalaşır. Qeyri-jurnalist verilişlərinin isə üç prinsipi var: birinci prinsip prodüser komandasıdır. Prodüser aparıcı olacaq şəxsin xarizmasına, hazırlığına görə özü məsuldur, nəinki aparıcı. İkinci prinsipdə isə adətən müxtəlif aparıcılarla bağlı fraqmentlər göstərirlər. İzləyicilərdə kimə daha çox reytinq verirlərsə, kanal onu aparıcı edir. Dünyanın əksər televiziyaları bu üsuldan geniş istifadə edir. Hətta reportyorları da bu cür seçirlər. Yəni dünya ölkələrində aparıcıları tamaşaçı özü onlayn səsvermə yolu ilə seçir. Çünki hər bir aparıcı verilişin simasıdır və buna görə də kifayət qədər əmək haqqı alır. Hətta aparıcı prodüserdən də çox əmək haqqı alır. Amma elə vaxt olur ki, veriliş elə aparıcının öz verilişi olur, yəni müəllif verilişi. Bunlarda da birinci kriteriya odur ki, aparıcı xoşagəlimli və bəyənilən bir tip olmalıdır. Başqa riskli tip var ki, o bəyənilmir, amma baxılır. Bu adam mübahisə qaynağı olur. İzləyənlər söyür, amma yenə də baxır. Bu aparıcının kadrda hazırlığı, kamera qarşısında özünü necə aparması, müsahiblərlə özünü necə aparması, özünü ifadə, ünsiyyət qabiliyyəti verilişin tipinə, mövzusuna görə ciddi şəkildə nəzərə alınır və həmin aparıcı müəyyən bir konkursdan keçir. Aparıcılıq üçün hazırlıq kursları olur və burada onlara mütəxəssislər dərs deyir. Daha sonra praktikada bunları sınayırlar. Sınanandan sonra kim bəyənilirsə, onun reklam kampaniyasına başlayırlar".

**Televiziyaların öz siyasətindən çox şeyin asılı olduğunu deyən Z.Məmmədli o sırada kanalların yüksək səviyyədə fəaliyyətini bu kanalların müstəqillik dərəcəsi ilə bağlayır:** "Maraqlıdır ki, televiziyaların öz proqram siyasətini müstəqil şəkildə tərtib etmək imkanı varmı? Aparıcı sistemində müstəqillik nə dərəcədədir? Televiziyalarda menecmentlik problemləri də çoxdur. Aparıcının danışığına, hazırlığına, seçim azadlığına bütövlükdə media, söz azadlığının məhdud olması da təsir edir. Belə deyək ki, xarici ölkələrin aparıcıları dəlləkliyi ilk olaraq müqəvvanın başında öyrənir, Azərbaycanda isə aparıcılar birbaşa insanın başında öyrənirlər".

**Azərbaycanın əməkdar jurnalisti, mütəxəssis Qulu Məhərrəmli aparıcının televiziya mühitindən keçməsinin vacib olduğunu bildirdi:** "O, televiziyanın bütün yaradıcı peşələrini öyrənməlidir. Ən aşağı funksiyalarını belə bilməlidir. Yaradıcılıq mərhələlərindən də keçməlidir. Yəni mövzunu götürüb işləyib, onu müəyyən bir mərhələyə gətirənədək olan bir prosesi anlamalı və duymalıdır. Təəssüf ki, bizdə bu prosesə çox səthi baxırlar. Məsələn, şou aparıcıları var ki, onları jurnalist adlandırmaq düzgün deyil. Çünki onların məqsədi izləyicini maarifləndirmək deyil, əyləndirməkdir. Amma bütövlükdə aparıcı anlayışı, yəni məlumatlandırma ilə bağlı olan sahə çox ciddi məsuliyyət tələb edir. Dediyim mərhələləri keçməyəndə aparıcılarla bağlı davamlı problemlər olur. Bir çox televiziyalarda tanıdığımız, üzdə olan aparıcılar var. Bunlar televiziyanın yaradıcılığını bəzən yanlış anlayırlar və özlərini istədikləri kimi aparırlar. Onlar özlərini efirin sahibi hiss edir və elə bilirlər ki, istədikləri kimi danışa bilərlər, məsuliyyətdən uzaqdırlar. Ümumiyyətlə, bu bizim televiziyalarımızın ən ciddi problemlərindəndir. Aparıcı həm də müəyyən mənada televiziyanı təmsil edir. Bu təmsilçilik onda məsuliyyət yaratmalıdır. Aparıcılar iki yerə bölünür: şou verilişinin aparıcıları - bunlar əsasən mətnsiz verilişlərdir və yüngül janrlardır. Bir də var ki, ciddi jurnalistika məhsulu olan verilişlər. Bax, bunların aparıcılarına xüsusi tələblə yanaşmaq lazımdır".

**Q.Məhərrəmli aparıcının təhsildən də əvvəl dünya görüşünün olmasının vacib olduğunu dedi:** "Aparıcının diplomu olmaya bilər, amma dünya görüşü, səviyyəsi mütləq olmalıdır. Biz şou aparıcılarından elə bir şey gözləmirik. Yəni onlar özlərini daha çox sərbəst ifadə edirlər. Təəssüf ki, tamaşaçıların istəyi, zövqü də artıq bu mərhələyə gəlib çatıb. Hətta aparıcının müəyyən məsələdə səhv etməsi, normadan kənara çıxması şou kimi qəbul edilir. Hesab edirəm ki, tamaşaçını buna biz alışdırmışıq və bu bizi fəlakətə doğru aparan bir hadisədir".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 24 (6052) 3 fevral 2015



# Çirkindi, gözəllik kraliçası oldu

İngiltərədə yaşayan Rebeka Hemsley adlı qız ölkə mediasının gündəmindən düşmür. 23 yaşlı qızın bu qədər populyarlaşmasının səbəbi isə keçmişi və bu günü arasında olan fərqdir. Rebekanın sözlərinə görə, kiçik yaşlarda məktəbi tərk edib. Çünki o, aşağı siniflərdə oxuyarkən məktəb yoldaşları ona lağ edirmiş. Çirkin olduğu üçün hər kəs ona gülürmüş. Məktəbdə başına gələn hadisələrdən bezdiyi üçün oxumaqdan vaz keçib. Anasının cəhdləri ilə orta məktəb biliklərinə yiyələnib və evdən bayıra çıxmayıb. Lakin yaşı artdıqca həyatında da ciddi dəyişikliklər olub. Belə ki, uşaq vaxtı çirkin olduğu üçün evdən bayıra çıxmayan qız indi gözəllik kraliçası olmağa hazırlaşır. İki firmanın modeli olaraq çalışan qız İngiltərə gözəli seçilmək üçün müraciət edib və müraciəti qəbul edilib. Hazırda onun gözəllik kraliçası olub-olmayacağı haqda səsvermə davam edir. O, İngiltərə gözəli seçilə bilməsə də ölkənin ən gözəl qızlarından biri olacaq. Ailəsi qızlarının həyatındakı bu dəyişikliyi gözləmədiklərini deyirlər. Çünki Rebeka uzun illərdir ki, evdən çıxmırmış və heç kəslə görüşmürmüş. İndi onun ölkədə gözəl qız kimi tanınması bir çoxlarını şoka salır.

# 2 min il əvvəlki beyin əməliyyatı

Rus alimlər iki min il əvvəlki kəllə sümükləri üzərində araşdırma apardıqları zaman qəribə həqiqətlə üzləşiblər. Onlar ölmüş insanların orqanizmlərini araşdırarkən həmin dövrlərdə də beyin əməliyyatı edildiyini öyrəniblər. Sibirdəki Altay dağlarında yaşamış insanların beyin sümükləri üzərində araşdırma aparan alimlər o zamanın həkimlərinin bəsit alətlərlə uğurlu beyin əməliyyatları etdiklərini açıqlayıblar. Rus



beyin cərrahları, antropoloqlar və arxeoloqlar Pazırıq adlı bir qəbiləyə mənsub olan iki kişi və bir qadına aid olan beyin sümüyünün üzərində beyin əməliyyatının ən köhnə üsulu olan "treansyon"un izlərini tapıblar.

# Balonlarla dünya rekordu



Biri amerikalı, digəri isə rus olan iki pilot başladıqları balon gəzintisini Sakit okeanı aşıb Meksika sahillərinə çatdıqdan sonra başa vurublar. 6 gün ərzində 9 min kilometr məsafə qət edən pilotlar fevralın 2-də Meksikada yerə eniblər. Beləliklə, dünyada balonla ən uzun məsafə qət etmə rekordu yenilənib.

Amerikalı pilot Troy Bradley və Ru pilot Leonid Tiukhtyaev "Two Eagles - İki qartal" adını verdikləri, helium qazı ilə dolu olan xüsusi balonla Yaponiyadan Meksikaya qədər 8 min 465 kilometr məsafədə uçmağı bacarıb. Əvvəlki rekord 1981-ci ildə Yaponiyadan Amerikanın Kaliforniya sahilləri arasında 5 min 209 kilometr məsafədə qırılmışdı. Ötən həftə havaya qalan pilotlar Kanadaya və ya Amerikaya enməyi planlaşdırmışdılar. Lakin güclü külək onların istiqamətini dəyişməsinə səbəb olub. Pilotlar 6 gün yerə enmədən havada qaldıqları üçün 37 illik başqa bir rekordu da yeniləyiblər. Belə ki, 37 il əvvəl Atlantik okeanı üzərində balonla səyahət edən iki pilot 137 saat 5 dəqiqə 50 saniyə yerə enmədən havada qalmışdı.

# Xərçəng hüceyrələrini tapacaq



Google laboratoriyalarında xərçəng hüceyrələrini müəyyən edən yeni bir qolbağı üzərində araşdırma aparılır. Google tərəfindən hazırlanan qolbağın alimlərin və həkimlərin çox işinə yarayacağı gözlənilir. Xərçəng xəstəliyinin erkən müddətdə aşkarlanması məqsədilə hazırlanan qolbaq yaxın müddətdə hazır olacaq. Qolbaq hazır olduqdan sonra xəstəlikdən şübhələnən şəxslərin qoluna bağlanacaq və xəstəliyi müəyyənləşdirməsi gözlənəcək.



# Bir şəkillə bir milyon dollar yardım

Facebook üzərindən "Nyu-Yorkun İnsanları" adlı projeyə rəhbərlik edən Brandon Stanton adlı fotoqraf şəhərdə gördüyü insanların şəklini çəkir və həyat tərzləri haqda hər kəsə məlumat verir. 13 yaşlı Vidal Kastantel adlı şagirdin öz müəlliməsini tərifləməsindən sonra başladılan kampaniya müddətində Stanton ehtiyacı olan insanlar üçün yardım yığmağa başlayıb. Qısa müddət ərzində 1 milyon dollar yığılması isə hər kəsi təəccübləndirib. Toplanan pullar 13 yaşlı şagirdin oxuduğu və sevdiyi müəlliməsinin çalışdığı Brovsville Litseyinə bağışlanacaq.






**QOÇ** - Nə qədər mane olmaq istəsələr də, özünüzü təmkinli aparmaqla rəqiblərinizi zərərsizləşdirməlisiniz. Axşama yaxın sevdiyiniz adamla gəzintiyə çıxmağa çalışın. Bu gün borc almayın.



**BUĞA** - Ümumən gərgin gün olsa da, baş çəkəcəyiniz ünvanlardan asılı olaraq sabitliyinizi təmin edə bilərsiniz. Başqalarının şəxsi işinə müdaxilə etməyin. Dilinizdən dualarınızı əsirgəməyin.



**ƏKİZLƏR** - Günün birinci yarısında həmkarlarınızla müəyyən mübahisələriniz gözlənilir. Əgər haqlı olduğunuza əminsinizsə, mübarizədən yayınmayın. Dost məsləhətinə böyük ehtiyacınız var.



**XƏRÇƏNG** - Hər mənada uğurlu gündür. Qarşınıza qoyduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Odur ki, bəxtinizdən şikayətlənməyi bir kənara atın. Dostlara arxa çevirməyin.



**ŞİR** - Əgər özünüz özünüzə inanmırsınızsa, bunu başqalarından gözləməyə dəyməz. Bir az nikbin olun. Kosmik bioritm bir qədər əleyhinizə işlədiyi üçün görəcəyiniz işləri dönə-dönə götür-qoy edin.



**QIZ** - Böyük dönüş astanasındasınız. Belə məqamlarda adətən ətrafa sədaqətli dostlar toplamaq müsbət nəticə verir. Siz də bu təcrübədən yararlanıb qarşıdakı həftə üçün buna hazır olmalısınız.



**TƏRƏZİ** - Təxminən saat 12-yə qədər əsas vaxtınızı istirahətə həsr edin. Çünki həmin ərəfədə uğurlardan uzaq olacaqsınız. Sonrakı saatlarda isə qarşılıqlı münasibətlərdə irəliləyişlər gözlənilir.



**ƏQRƏB** - Fəaliyyətlə bağlı müvəffəqiyyətə yetişəcəyinizi təsvir edən Göy qübbəsi əzmkarlığınızı artırmağı tələb edir. Bu gün qarşınıza çıxan şəxslərin əksəriyyəti mövqeyinizi dəstəkləyəcək, aktiv olun.



**OXATAN** - Risk və mübahisələrdən yayınsanız, ixtiyarınızda olan bu təqvimdən xeyli razı qalacaqsınız. Ulduzların düzümü maraqlı adamlarla görüşəcəyinizi, həmçinin qonaqlıqlarda iştirakınızı proqnozlaşdırır.



**OĞLAQ** - Səhhətlə bağlı bəzi problemlərlə rastlaşsanız da, bunun ciddi fəsadları olmayacaq. Bununla yanaşı, özünüzü nəqliyyatdan da qorumalısınız. Saat 15-18 arası sevindirici hadisələr olacaq.



**SUTÖKƏN** - Kifayət qədər düşərli gündür. Hansısa xoşagəlməzliyin baş verəcəyinə inanmayın. Əksinə, hər nə olsa, ondan sizə yalnız xeyir gələcək. Perspektivli sövdələşmələriniz də gözlənilir.



**BALIQLAR** - Ulduzların düzümü daha çox səyyar fəaliyyətdə uğurlara yaxın olacağınızı bildirir. Oturaq işlərə az aludə olun. Elə addım atın ki, sizi dolaşdıranların əli boşda qalsın. Səhhətinizi də qoruyun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Mamont skeleti hərraca çıxarıldı



Sibirdə tapılan mamont skeleti internetdə hərraca çıxarılıb. Cataviki hərrac evində təşkil edilən satışda skeletin 160 minlə 210 min avro arasında satılacağı gözlənilirdi. Mamontun 4,10 metr uzunluğu, 2,20 metr hündürlüyü və 1,20 metr eni var. Hərrac üzvləri mamontun dişi cinsi olduğunu güman edir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300